Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Bayraqdar maraqlı detalı açıqladı: ABŞ-ın icazə olmadan...



**F-35 qırıcılarının alıcıları Vaşinqtonun icazəsi olmadan təkbaşına istifadə edə bilməzlər.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin aparıcı pilotsuz təyyarə istehsalçısı olan "Baykar" şirkətinin idarə heyətinin rəhbəri Səlcuq Bayraqdar deyib.

"Müdafiə məsələsinə gəlincə, dövlətlərin suverenliyi yalnız öz texnologiyalarını inkişaf etdirdikdə mümkündür. F-35 alan ölkələrin üzləşdikləri problemlərə baxın. Onlar ABŞ-ın icazəsi olmadan onlardan təkbaşına istifadə edə bilməyəcəklərini deyirlər. Kənardan aldığınız ən qabaqcıl həll, evdə yaratdığınız ən orta texnologiyadan belə daha pisdir. Yüksək texnologiya qandallarla gəlir. İnanıram ki, ən yaxşı həll yolu bu müstəqil yolda davam etməkdir", - deyə Bayraqdar bildirib.

## "40 milyona yaxın azərbaycanlılarımız fars rejminin əlində əsirdir"



**"Biz hamımız Tehranda Azərbaycan səfirliyində baş verən hadisəni qınayırıq. Necə ki, gördüyünüz kimi Azərbaycanda olan bütün dinlərin nümayəndələri gəlib burada başsağlığı verdi".**

Adalet.az-ın məlumatına görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə Azərbaycanın İrandakı səfirliyinə terror hücumunda şəhid olan Orxan Əsgərovun yas mərasimində jurnalistlərə açıqlamasında deyib.

"Çox təəssüflənirəm ki, Azərbaycana qonşu olan bir dövlətin Azərbaycana qarşı apardığı ədavətli hökümlərin nəticəsidir ki, bu gün Akopyanları müqəddəs yerlərə gətirib gəzdirirlər, "Ermənistanın ərazi bütövlüyü bizim qırmızı cizgimizdir" deyirlər, tankları gətirib sərhəddə düzürlər.

Mən burada İran xalqı deməzdim, çünki orda bizim 40 milyona yaxın azərbaycanlılarımız yaşayır, onlar bizim qardaşlarımızdırlar, onlar başa düşürlər, amma bu gün onlar İran rejminin, fars rejminin əlində əsirdirlər.

Mən inanıram ki, gələcəkdə həqiqət öz yerini tapacaq. Bu gün biz İrandan şəhid aldıq, hansı ki, bizi qardaş hesab edirdi. Biz indi bilirik ki, İran bizim qardaşımız deyil. Onlar Ermənistanın qardaşıdır.

Necə ki, cənab Prezident İlham Əliyev bəyan etdi ki, səfirlikdə baş verən hadisə terror aktıdır, biz də deyirik ki, bu terror aktıdır. Bu baxılmalıdır, incələnməlidir və bütün dünya həqiqətin nə olduğunu bilməlidir", - deyə A.Paşazadə əlavə edib.

## Ərdoğan İsveçə xəbərdarlıq etdi

**"Boş yerə çabalama, İsveç.**

**Sən mənim müqəddəs kitabımın yandırılmasına icazə verdiyin müddətcə biz sizin NATO-ya üzv olmağınıza "hə" deməyəcəyik".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Türkiyə Prezidenti bildirib ki, NATO-nun genişləndirilməsi ilə bağlı prosesləri yaxından izləyir:

"Finlandiya məsələsində mövqeyimiz müsbətdir, amma İsveç məsələsində mövqeyimiz qətidir. Bunu da belə bilin".

## Prezident onları təltif etdi

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilmiş terror aktının qarşısının alınmasında iştirak etmiş şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.**







Sərəncama əsasən, 2023-cü il yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilmiş terror aktının qarşısının alınması zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə aşağıdakı şəxslər təltif edilirlər:

**1-ci dərəcəli "Rəşadət" ordeni ilə**
Tağıyev Vasif Natiq oğlu

**"Vətən uğrunda" medalı ilə**
Əsgərov Orxan Rizvan oğlu (ölümündən sonra)
İmanov Mahir Kamil oğlu.

## GEDİŞ HAQQININ ARTIRILMASINI



**xalqımız böyük coşğuyla qarşılamışdı. Redaksiyamıza telefon açaraq zərbəçi əmək növbəsində möhkəm dayanıb qiymət artırılmasında beşilliyi üç ildə yerinə yetirən Tarif Şurasına onların təşəkkürünü çatdırmağı xahiş edirlər.**

Yəqin Novruz bayramı qabağı Tarif Şurası xalqımıza belə sevincləri çox bəxş edəcəkdir.

## ABŞ VƏ NATO RUSİYA İLƏ BACARMIR

**Arada kasıbınkı qırılır. Müharibədə ölənlər slavyanlardı - ukrayna və rus xalqıdı.**

**On milyon əhali də Ukraynanı tərk edib - 7,5 milyonu Avropaya üz tutub, 2,5 milyonu Rusiyaya.**

## UKRAYNANIN ŞƏHƏRLƏRİ AĞDAMIN GÜNÜNƏ DÜŞÜB

**Biz Ağdamı yenidən tikirik və tikəcəyik, amma Ukraynanın dağılmış şəhər və kəndlərini yenidən əvvəlki halına salmaq üçün bir əsr bəs etməz.**





Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 5 (5998) 4 fevral 2023-cü il | Qiyməti 40 qəpik

# DİN-dən İranın casus şəbəkəsinə qarşı əməliyyat



**Daxili İşlər Nazirliyi (DİN) əməkdaşlarının keçirdikləri xüsusi əməliyyat tədbirləri nəticəsində Azərbaycanda "din pərdəsi" altında təxribat və pozuculuq əməllərini həyata keçirən 39 nəfər müəyyən edilərək saxlanılıb.**

**Adalet.az xəbər verir ki, özlərini dindar kimi qələmə verən həmin şəxslər sosial şəbəkələr üzərindən İran lehinə təbliğatlar apararaq ölkəmizdəki dini etiqad azadlığından sui-istifadə edərək Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün İran xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetiriblər.**

**Onlar insanlar arasında məzhəb ayrı-seçkiliyi salmaq, qarşıdurma yaratmaq məqsədilə Azərbaycan vətəndaşlarının qatıldıqları dini mərasimlərdə və sosial şəbəkələrdə İrana aid atributlardan, eləcə də üzərində fars dilində müxtəlif yazılar olan qara bayraqlardan istifadə etməklə cəmiyyətdə çaşqınlıq yaradaraq topladıqları məlumatları tapşırıq aldıqları xüsusi xidmət orqanlarına ötürüblər.**

## Akar: «Azərbaycan başda olmaqla, dünyada sülhə töhfə verməyə davam edirik»



**Türkiyənin müdafiə naziri Hulusi Akar Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi (MÜSİAD) Kayseri şöbəsinin tədbirinə qatılıb.**

O, çıxışında Türkiyədə ticarət və sənaye sahəsində mühüm irəliləyişlərin olduğunu ifadə edərək Kayseri bölgəsinin də iqtisadiyyatda əhəmiyyətli uğurlar qazandığını vurğulayıb. Sülh üçün mübarizə apardıqlarını bəyan edib nazir Azərbaycanı da xatırladıb.

"Bir tərəfdən sərhədlərimizin qorunması üçün, digər tərəfdən terrorla mübarizə üçün Kipr Türk Cümhuriyyəti, azərbaycanlı qardaşlarımız və Liviyalı qardaşlarımız başda olmaqla Somalidə, Sudanda, Kosovoda, Bosniyada və dünyanın 19 fərqli yerində mümkün olan bütün coğrafiyalarda minlərlə əsgərimizlə regional və dünya sülhünə töhfə vermək üçün gecə-gündüz işimizi davam etdiririk", - Akar bildirib. O, İsveç və Finlandiyanın NATO-ya daxil olması məsələsini şərh edərkən Ankaranın hər iki ölkədən əməli addımlar gözlədiyini qeyd edib.

## TƏKCƏ AVROPA PARLAMENTİ DEYİL, ELƏ HAMI İKİÜZLÜDÜR



**Heyvan hüquqlarını müdafiə edən bir xanım Sibirdən bir inək alıb gətirib Kremlin qabağına bağlayıb. Bundan əvvəl də bir qoyunu və bir də Allahın xoşuna gəlməyən bir heyvanını Berlində, deyəsən hökumət evinin qabağına bağlayıbmış. Tələbi də budur ki, insanlar Allahın yaratdığı bu heyvanların ətini yeməsinlər. Dünya televiziyaları xanımın bu hərəkətini yüksək qiymətləndirərək vurhavur yayımlayırlar.**

Bizim ekoaktivistlər iki aya yaxındır ki, Laçın-Xankəndi yolunda nümayiş keçirirlər ki, ermənilər Qarabağda meşələri kəsir, torpaqları erroziyaya uğradır, yeraltı sərvətlərimizi istismar edir, bir sözlə, ekologiyanı məhv edirlər.

Əgər Avropanın bir ölkəsində ekoaktivistlər belə bir tədbir keçirsə bütün ölkələrdəki ekoaktivistlər yığışıb ora gələrlər və dəstək verərlər.

Amma görürsünüz, hələ ki Avropadan, elə dünyadan da səsimizə səs verən yoxdur. Yəni təkcə Avropa parlamenti deyil, beynəlxalq təşkilatların çoxu ikiüzlüdür.

İnanırıq ki, ekoaktivistlərin tələbləri yerinə yetiriləcək. Ruhdan düşmək lazım deyil.

Qaldı heyvanların hüquqları... Allah bu dünyada nə yaradıbsa hamısını İnsan üçün yaradıb. Təbiəti də, dağları da, çayları da, çiçəkləri də, inəyi də, qoyunu da, maralı da, lap elə ceyranı da, cüyürü də.

*Aqil ABBAS*

## ÇAY QIRAĞINDA BİTİB, SUSUZ QALAN AĞACLARIN SAĞLIĞINA...

(Abdal-Gülablı Şakirin xatirəsinə)

(povestdən bir parça)

Bax:səh-5

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*



## "NEFTÇİ" VƏ QURBAN PİRİMOVUN TARI

*Deyəcəksiz ki, futbol komandası ilə Qurban Pirimovun tarının nə əlaqəsi? Tələsməyin, görərsiz.*

*Qurban əmi bildiyiniz kimi, Ağdam rayonunun Abdal-Gülablı kəndində doğulub. Deməк olar ki, bu kəndin yarısı onun qohumudu. Rəmişin uşaqlığında Qurban əmi ona bir tar bağışlamışdı. Sonra Bakının məşhur tarzənləri o tarı Rəmişdən almaq üçün az qala bir "Jiquli"nin pulunu təklif edirdilər, amma Rəmiş o tarı heç kimə satmırdı.*

*Uzatmayım, bunu bir dəfə də yazmışam. Günlərin birində bir toyda Rəmiş hirslənib həmin tarı oynayanların birinin başına vurmuşdu, tar da çilik-çilik olub dağılmışdı. Erməni kamançaçalan vardı, o tarın qırıqlarına üç minmi, üç min beş yüz manatmı verib Rəmişdən almışdı. Yəqin ki, sonra yığdırıb erməni tarı kimi hansısa muzeyə ya satıb, ya da bağışlayıb. Nə isə.*

Bax: səh-2

## Terrorçu Yasin Hüseynzadə ruhi xəstəxanaya yerləşdirildi – İrandan yeni hiylə



**Yanvarın 27-də Azərbaycanın Tehrandakı səfirliyində terror aktı törədən İran vətəndaşı Yasin Hüseynzadə psixiatriya xəstəxanasına yerləşdirilib.**

Adalet.az xəbər verir ki, bu barədə İran mətbuatı məlumat yayıb.

Cinayət işinin istintaqını həyata keçirən Tehran Cinayət Prokurorluğunun qənaətinə görə, Hüseynzadə şizofreniya da daxil olmaqla bir sıra psixi problemlərdən əziyyət çəkir.

Həmçinin məlum olub ki, Azərbaycanın İrandakı səfirliyində terror aktı törədən cinayətkar azı bir ay müddətində Tehrandakı psixiatriya xəstəxanalarından birində qalacaq və burada müxtəlif müayinələrdən keçiriləcək.

Bu faktın özü artıq rəsmi Tehranın cinayətkar Yasin Hüseynzadəni öz himayəsi altına götürdüyünü bir daha sübut edir.

Qeyd edək ki, bundan öncə İran hakimiyyəti terror hücumu edən şəxsin cinayət əməlini guya ailə münaqişəsi zəminində törətdiyini bildirmişdi.

*İradə TUNCAY*
*iradetuncay@rambler.ru*

## Bahalı VAXT



### Əslində nədir vaxt???

**Vaxt bizim bu fani dünyada mövcud olmaq, gəzmək-tozmaq, yemək-içmək, geyinib-kecinmək üçün sərf edə biləcəyimiz dövrə deyirik. Nisbi anlayişdır, əlbəttə... Kiminin sərf etdiyi zaman kəsiyi böyük dövrü əhatə edir, kiminin dövrü azdır... Buna qərarı biz vermirik - indiyə qədər mübahisəsi, davaları çox olub . Müxtəlif dinlər buna müxtəlif rakurslardan yanaşıb - nəticə yoxdu... Bildiyimiz bir həqiqət var ki, VAXT yaşadığımız məkanla bir müstəvidə birləşir. Köhnə dövrün adamı olduğum üçün yazdıqlarıma, tərzimə xüsusi diqqət verirəm. Yeni nəsil üçün bu problem yoxdur - nə istəsələr, necə istəsələr yazırlar... Yəni mənim işim yazmaq olduğu üçün yazı dedim. Müəllim öz işinə öz vaxtıyla, həkim də öz vaxtıyla yanaşır. Sanki kapital, ən böyük kapital, maddi nəsə desək onunla müqayisə oluna bilər. Amma demək olmur axı - kimin pulu çoxdu, vaxtı da çoxdu... Olmur...**

Bax:səh-3

## Ukrayna yeni hücum briqadaları yaradır



**Ukrayna Luqansk, Donetsk və Krımın işğaldan azad olunması üçün könüllülərdən ibarət "Hücum qvardiyası" briqadaları yaradır.**

Bu barədə Ukrayna Milli Polisi məlumat yayıb. "Ukrayna işğalçıları öz ərazisindən qovmaq üçün Krım və Qara dənizə kimi hücuma hazırlaşır.

Bu briqadalar Luqansk, Donetsk və Krımın işğaldan azad olunmasında iştirak edəcək könüllü, motivasiyalı insanlardan ibarətdir. 8 briqada 1 düşmən! Hər şeyi qaytarmağın vaxtıdır", - məlumatda qeyd olunub. Briqadalara "Bureviy", "Krasnaya kalina", "Qara dağ", "Rubej", "Spartalı" və "Azov" kimi adlar verilib.

## İTİNİZİ AYAĞINIZA BAĞLAYIN



***Qarabağın separatçı rejiminin lideri Araik Aratunyan gedib ağalarının yanına. Paşinyanın yox, Moskvadakı ağalarının - yeni təlimat almağa. Və təbii ki, həm də Vardanyandan şikayət etməyə ki, itinizi ayağınıza bağlayın.***

## İsrail Ukraynaya gülləkeçirməz təcili yardım maşınları verib

**İsrail Ukraynaya gülləkeçirməz təcili yardım maşınları təhvil verib. Onlar xilasetmə qrupları tərəfindən istifadə olunacaq.**

Bu barədə İsrail Müdafiə Nazirliyi məlumat yayıb.

"İsrail Müdafiə Nazirliyi 3 gülləkeçirməz təcili yardım avtomobilini ukraynalı xilasedicilərə təhvil verib", - məlumatda deyilir.

Qeyd olunur ki, avtomobilləri İsrailin "Plasan Reem" şirkəti sifariş edib. Maşınlar lazımi tibbi avadanlıqla təchiz edilib.

Burada əlavə monitorlar, defibrilatorlar və oksigen sistemləri var.

## “Təbii qaz ehtiyatlarımız ən azı yüz il kifayət edəcək”



**Təbii qaz ehtiyatlarımız bizim və tərəfdaşlarımız üçün ən azı yüz il kifayət edəcək.**

Adalet.az xəbər verir ki, bu fikri Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib.

”Bu gün biz, əlbəttə ki, gələcəyə doğru baxırıq, yaşıl enerji ilə bağlı Məşvərət Şurası yaranıb. Cəmi dörd ölkə var və heyət kifayət qədər kiçikdir. Lakin onun böyüməsi potensialı var. Nəinki hökumətlər, o cümlədən şirkətlər də belə mühüm təşəbbüsdə iştirak etməyə maraq göstərəcəklər”, - deyə Azərbaycan Prezidenti qeyd edib.

## “Qarşıdakı illərdə milyardlarla kubmetr təbii qaza qənaət edəcəyik”

**Bu gün biz Azərbaycanda ”Masdar” və ”ACWA Power” kimi investorlarla birgə iki investisiya layihəsini həyata keçiririk. Bu, günəş və külək enerjisinin istehsalına aiddir. Onların ümumi gücü 470 meqavatdır.**

Adalet.az xəbər verir ki, bu fikri Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib.

Dövlətimizin başçısı bu sahədə BP şirkəti ilə də layihənin icrasına başlanılacağını vurğulayaraq qeyd edib: ”İşğaldan azad edilmiş Cəbrayıl rayonunda 240 meqavatlıq enerji stansiyası yaradacağıq. Qarşıdakı illərdə biz milyardlarla kubmetr təbii qaza qənaət edəcəyik”.

## İlham Əliyev qəbul keçirdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı tədbirdə iştirakına görə Kadri Simsona təşəkkürünü bildirib. Prezident İlham Əliyev ötən ilin iyulunda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədə uyğun olaraq, ölkəmizin qaz istehsalını 2027-ci ilədək artırmaq niyyətində olduğunu və Aİ-yə üzv ölkələr arasında qurulan interkonnektorlar vasitəsilə yeni bazarlara çıxış imkanlarının yarandığını diqqətə çatdırdı.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Yaşıl enerji üzrə nazirlərin 1-ci iclasının, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında nazirlər səviyyəsində görüşün keçiriləcəyini qeyd etdi.

Ölkəmizin bərpaolunan enerji sahəsində böyük resurslarının olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış sənədin də ölkəmizin bərpaolunan mənbələrdən əldə edilən elektrik enerjisinin Avropa bazarına çıxarılması üçün böyük perspektivlər vəd etdiyini bildirdi. Azərbaycan Prezidenti Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılacaq müzakirələr nəticəsində yeni təşəbbüslərin və ideyaların yaranacağına ümidvar olduğunu qeyd etdi. Kadri Simson Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumuna görə təşəkkürünü ifadə etdi və Azərbaycanın Avropa İttifaqına üzv ölkələrin qaza tələbatının ödənilməsində oynadığı rolunun, enerji təhlükəsizliyinə verdiyi töhfələrinin yüksək qiymətləndiririldiyini diqqətə çatdırdı. Qonaq dedi ki, hazırda Aİ məkanında enerji təhlükəsizliyi baxımından gərgin zamanda Azərbaycanın dəstəyi və yardımı yüksək qiymətləndirilir. Energetika məsələləri üzrə komissar bildirdi ki, Aİ Azərbaycanla təbii qaz, yaşıl enerji sahələrində əlaqələri genişləndirməkdə maraqlıdır, həmçinin Azərbaycanla elektrik enerjisi ilə bağlı əməkdaşlıq imkanlarını yüksək qiymətləndirərək onu nəzərdən keçirir və bu istiqamətdə də əməkdaşlığa hazırdır.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına verdiyi töhfəsinin və Brüssel sülh prosesinin əhəmiyyəti vurğulandı.

## Prezident italiyalı naziri qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak edən İtaliya Respublikasının ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini qəbul edib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı 2020-ci ildə İtaliyaya dövlət səfərini, həmçinin ötən ilin sentyabrında rəsmi səfərini xatırladı, İtaliyanın Prezidenti və digər yüksək rəsmi şəxsləri ilə görüşlərini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev imzalanmış sənədlərə əsasən Azərbaycan-İtaliya əməkdaşlığının strateji tərəfdaşlıq ruhunda inkişaf etdiyini bildirdi, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu dedi.

İtaliya ilə Azərbaycan arasında əməkdaşlığın yalnız enerji sahəsini deyil, çox geniş sahələri əhatə etdiyi bildirildi, elm və təhsil sahəsində əməkdaşlıq xüsusi qeyd olundu. Diqqətə çatdırıldı ki, ADA Universiteti ilə İtaliya universitetləri arasında imzalanmış sənədə uyğun olaraq, Bakıda İtaliya-Azərbaycan Universitetinin açılması mühüm əhəmiyyət daşıyır.

Eyni zamanda, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində İtaliya şirkətlərinin fəal çalışdıqları vurğulandı. Diqqətə çatdırıldı ki, Azərbaycanla İtaliya arasında əməkdaşlıq bütün sahələrdə dostluq və qarşılıqlı anlaşma əsasında inkişaf edir. Həmçinin iki ölkə arasında enerji sahəsində əməkdaşlığın vacib komponenti olan TAP layihəsinin əhəmiyyəti qeyd edildi.

İtaliyalı nazir öz növbəsində qəbula görə təşəkkürün bildirdi və Cənub Qaz Dəhlizi Məşvərət Şurasının nazirlər toplantısı çərçivəsində aparılan müzakirələrin əhəmiyyətini qeyd etdi. Nazir ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğuladı, Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynadığını dedi.

Cilberto Piketto Fratin yaxın gələcəkdə TAP layihəsinin ötürücülük qabiliyyətinin artırılmasının əhəmiyyətini qeyd etdi, İtaliyanın Azərbaycandan qaz idxalının artırılmasında maraqlı olduğunu bildirdi. Qonaq Azərbaycanın böyük bərpaolunan enerji potensialına malik olduğunu deyərək İtaliya şirkətlərinin gələcəkdə bu sahədə də ölkəmizlə əməkdaşlıq etmək niyyətində olduqlarını diqqətə çatdırdı. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# "Macarıstan və Azərbaycan dost və tərəfdaş ölkələrdi"

**Cari ilin 30 yanvar tarixində Macarıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Budapeştdə mətbuat qarşısında bəyənatla çıxış edib.**

Macarıstan və Azərbaycanın iki dost və tərəfdaş ölkə olduğunu bildirən İlham Əliyev, bildirib ki, bundan sonra da ölkələrimiz, həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcək, həm də təmsil olunduğumuz beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi də bir-birinə əsirgəməyəcək. Azərbaycan və Macarıstan arasında olan dostluq əlaqələri həm ölkələrimiz üçün, həm Avrasiya qitəsi üçün çox böyük önəm daşıyır. Strateji tərəfdaşlığa dair imzalanmış sənədlər onu göstərir ki, həqiqətən Macarıstan və Azərbaycan dost ölkələrdir.

”Uzun illər ərzində apardığımız uğurlu siyasət, birgə addımlar bu gün enerji sahəsində əməkdaşlıq üçün çox güclü zəmin yaratdı. Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çatdırmaq üçün fəal çalışırdı və nəticə etibarilə iki il bundan əvvəl Cənub Qaz Dəhlizi icra edildi. Bu, çox müasir enerji infrastrukturudur, uzunluğu 3500 kilometrdir və artıq iki ildir ki, Azərbaycan Avropa İttifaqı məkanına öz təbii qaz resurslarını çatdırır.

Keçən il Avropa Komissiyası ilə imzalanmış sənədə əsasən, Azərbaycan qaz təchizatını iki dəfə, bəlkə ondan da çox artırmağı planlaşdırır. Bunun üçün resurslar da var, siyasi iradə də var və tərəfdaşlarımızla təmaslar da var.

Vaxtilə tarixə qovuşmuş sayılan NABUKKO layihəsini biz indi canlandırmışıq. Artıq interkonnektorlar vasitəsilə Azərbaycan qazı Bolqarıstana, ondan sonra Rumıniyaya, ondan sonra Macarıstana və Macarıstandan sonra digər Avropa ölkələrinə çatdırılacaqdır. Macarıstan təkcə Azərbaycan qazının istehlakçısı deyil, eyni zamanda, Azərbaycan qazını digər Avropa ölkələrinə tranzit edən ölkə kimi fəaliyyət göstərəcək.

Avropa Komissiyasının rəhbərliyi Azərbaycanı etibarlı tərəfdaş adlandırır. Enerji təhlükəsizliyi məsələləri bugünkü dünyada



xüsusi əhəmiyyət daşıyır və dünya gündəliyinin ön sıralarındadır. Azərbaycanın zəngin neft-qaz resursları imkan verir ki, uzun illər bundan sonra - təbii qazla bağlı ən azı yüz il bundan sonra Avropa üçün etibarlı tərəfdaş olsun.

Yaxın keçmişdə aşkarlanan böyük yaşıl enerji potensialı Azərbaycanın önəmini daha da artırır. Yaşıl enerji ilə bağlı olan və artıq icra olunan layihələr bizi Avropa üçün daha da yaxın edəcək. Keçən ay imzalanmış sazişə əsasən, Azərbaycan yaşıl enerjisini Avropaya çatdıracaq. Bakıda fevralın 3-də keçiriləcək toplantıda ilkin addımı atacağıq və beləliklə, Avropa qitəsinin enerji təhlükəsizliyi daha dolğun və əhatəli şəkildə təmin ediləcəkdir.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkə olsa da, Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilə bilər. Nəqliyyat sahəsində əməkdaşlığa dair çox böyük planlar mövcuddur. Dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, Azərbaycandan Macarıstana yüklərin ötürülməsinə başlamışıq. Bu layihənin də böyük potensialı var. Çünki Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycan ərazisindən keçən yüklərin həcmi kəskin artmışdır. Təkcə keçən il tranzit yüklərin həcmi 75 faiz artmışdır. Azərbaycanda mövcud müasir nəqliyyat infrastrukturu - istər tankerlər, gəmilər olsun, istər böyük dəniz ticarəti limanı olsun, dəmir yolları olsun, bunlar hamısı müasirdir və bütün lazımi tələblərə cavab verir.

Təhsil sahəsində aparılan əməkdaşlığın da çox yaxşı nəticələr var. 200 Azərbaycan gənci Macarıstan hökumətinin dəstəyi ilə (tələbə təqaüdləri) Macarıstanda oxuyurlar. Bu, Azərbaycanda kadr potensialının yaradılması istiqamətində çox önəmli hadisədir.

Minatəmizləmə sahəsi əməkdaşlığın vacib istiqamətidir. Azərbaycan İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində bu sahədə böyük problemlərlə üzləşib, bir milyondan çox mina təmizlənməlidir. Müharibədən sonra iki il ərzində 300-ə yaxın Azərbaycan vətəndaşı ya həlak olub, ya da ki, ağır yaralanıb. Ona görə bu sahədə Macarıstanın təcrübəsini nəzərə alaraq biz əməkdaşlıq üçün yaxşı imkanlar görürük.

Macar şirkətləri azad edilmiş Qarabağ və Zəngəzur torpaqlarında da fəaliyyət göstərəcək. Bir həftə bundan sonra biz konkret layihələrin müzakirəsinə başlayacağıq. Azərbaycan çox maraqlıdır ki, şəhərsalma istiqamətində hansı ki, Macarıstanın çox böyük təcrübəsi var, birgə işləyək. Çünki on min kvadratkilometrə bərabər olan azad edilmiş torpaqlarda bir daş daş üstə qalmayıb. Bütün binalar, bütün infrastruktur işğal dövründə dağıdılıb”.

Cari ilin 30 yanvar tarixində Budapeştdə keçirilən görüşdə, ölkə başçılarının iştirakı ilə Azərbaycan və Macarıstan Respublikaları arasında bir sıra mühüm sənədlər imzalanıb.

Mətbuat konfransında çıxış edən Macarıstanın Baş naziri Viktor Orban çıxışında, Prezident İlham Əliyev barədə bildirib ki, ”Biz xarici siyasətdə bir-birimizi başa düşürük. Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meylliyik və o daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm”.

”Azərbaycan cənubda İranla, şimalda Rusiya ilə, Macarıstan isə qərbdə Almaniya, şərqdə Rusiya ilə həmsərhəddir. Biz bundan keçmişik. Biz vəziyyətə bələdik. Belə bir mürəkkəb vəziyyətdə xalqı idarə etməyin nə dərəcədə çətin olduğunu bilirik. Bu, bizə dostluğumuzun möhkəmlənməsində çox kömək edib”.

**Hazırladı:**
**Mehriban Cəfərova**

## *Süleyman Soylu:* "Bunun səbəbi Türkiyədə sabitliyi pozmaqdır"

**”Bəzi səfirlik və konsulluqların təhlükəsizlik səbəbi ilə müvəqqəti bağlanmaq qərarı Türkiyəyə qarşı psixoloji müharibəyə başlamaqdır”.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin daxili işlər naziri Süleyman Soylu deyib.

”60 milyon turist hədəfini təyin etdiyimizi və 46 milyard dollar turizm gəliri əldə etdiyimizi açıqladığımız gün səfirliklər vasitəsilə Türkiyəyə qarşı yeni psixoloji müharibəyə başladılar” deyən Süleyman Soylunun sözlərinə görə, bu ölkələrin məqsədləri Türkiyənin sabitliyinə və əmin-amanlığına kölgə salmaqdır.



S.Soylu qeyd edib ki, səfirlərin Türkiyəyə qarşı bəyannamə yayımlamalarının səbəbi ölkədə hüquqa müdaxilə etmək və sabitliyi pozmaqdır: ”İstiqlal küçəsində bombalı hücumun, Hatayda polis məntəqəsinə edilən hücumun 2022-ci ildə səfirlərin imzaladığı bəyannamədən bir fərqi yoxdur, eynisidir.

İçlərində qalmış böyük planın bir hissəsidir. Türkiyəyə qarşı yayımladıqları bəyannamədə hansı səfir bu bəyannaməni imzalamağı tövsiyə edibsə, Türkiyədə təxminən 3-4 gündür bir DEAŞ hadisəsi üzərindən səfirliklərin, bəzi ibadət yerlərinin təhlükə altında olduğunu ortaya qoyaraq, bir qurumumuza verdiyi kəşfiyyat xarakterli bir qeydlə digər səfirlərə də 'Biz bağlayırıq, siz də bağlayın' düşüncəsini aşılayaraq, 60 milyon turist hədəfi qoyduğumuz bir gündə, 51 milyon turistin gəldiyini, 46 milyard dollar turizm gəliri əldə etdiyimizi açıqladığımız bir gündə Türkiyədə yeni psixoloji müharibəyə başlamaq ərəfəsində olublar”.

**Qeyd edək ki, Türkiyə ilə bağlı təhlükəsizlik xəbərdarlığı edən və ya bəzi diplomatik və konsulluq nümayəndəliklərini müvəqqəti bağlayan ABŞ, Hollandiya, İsveçrə, İsveç, İngiltərə, Almaniya, Belçika, Fransa və İtaliyanın bu ölkədəki səfirləri və nümayəndələri Türkiyə Xarici İşlər Nazirliyinə çağırılaraq, Ankaranın mövqeyi çatdırılıb.**

**Sübhan**

## *Tural İsmayılov:* "İranın mollakratiya şüuru özünə yeni düşmən axtarır

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi şərhçi Tural İsmayılov Adalet.az-a Azərbaycanın İrandakı səfirliyinə terror hücumu ilə bağlı münasibətini bildirib.**

Onun sözlərinə görə, İran Azərbaycanın regiondakı siyasi gücünü qısqanır.

”İranın Azərbaycan əleyhinə siyasəti tarix boyu davam edib. Eyni zamanda nəzərə almaq lazımdır ki, 44 günlük Vətən müharibəsində çaldığımız zəfərdən sonra Azərbaycan geopolitik güc olaraq regiondakı siyasi-iqtisadi münasibətlər sistemini, həmçinin Avrasiyanın gələcək iqtisadi-siyasi konturlarını müəyyənləşdirir. Təbii ki, İranda yaşayan 30 milyon azərbaycanlının Azərbaycan sevgisi bir an olsun belə səngiməyib və qələbəmizdən sonra İrandakı azərbaycanlı soydaşlarımız dövlətimizə, xalqımıza qarşı simpatiya və məhəbbəti daha da artıb. Bütün bunların fonunda rejim Azərbaycanın güclənməyini qısqanır, eyni zamanda ölkəmizin siyasi münasibətlər sistemində bu qədər ön mövqelərə gəlməsi İran tərəfindən qıcıqla qarşılanır”. ”Hesab edirəm ki, buna görə də İran öz cəmiyyətində Azərbaycan əleyhinə nifrət təfəkkürünü gücləndirmək üçün daim ciddi təbliğatlar aparır. İranın yazılı mətbuatında, televiziya kanallarında Azərbaycan əleyhinə hər gün materiallar yayımlanır. İranda aylardır davam edən xalq üsyanları geniş vüsət alıb. İran bu üsyanların qarşısında aciz qalıb. Rejim artıq xalqın iradəsiylə bacara bilmir.Ölkədəki gündəmdən fikir yayındırmaq üçün klassik mollakratiya şüurunu davam etdirərək düşmən axtarmağa çalışır və



Azərbaycanı bu qəbildən qələmə verir. Düşünürəm ki, İranda Azərbaycan səfirliyinə təşkil edilən terror, İranın isti-isti, həmin an, intintaq aparmadan hadisənin ailəməişət zəmnində baş verməsi kimi təqdim etməsi İranın özünün terrorçu mahiyyətini növbəti dəfə ifşa etmiş oldu. Bu çox ciddi bir nəticəyə səbəb oldu” - Tural İsmayılov deyib. O əlavə edib ki, Azərbaycan-İran münasibətləri daha da gərginləşə bilər. ”Uzun müddətdir İran tərəfindən Azərbaycana qarşı bir növ aqressiya nümayiş etdirilsə də, ölkəmiz səfirliyin fəaliyyətini dayandırmırdı. Bu hadisə isə İrandakı Azərbaycan səfirliyinin fəaliyyətinin yekunlaşması ilə nəticələndi. Hesab edirəm ki, İran obyektiv araşdırma aparmasa, bizim Təbrizdəki konsulluğumuzun təhlükəsizliyini təmin etməsə, Azərbaycan-İran münasibətləri daha da gərgin vəziyyətdə olacaq”.

**Eminquey**

## Səfir Joel Liondan ermənilərin döyülməsinə reaksiya: Ekstremistlər...

**Xəbər verdiyimiz kimi, yanvarın 28-29-u İsraildə ekstrimist ermənilər yaratdıqları gərginlik səbəbindən gündəmi zəbt ediblər. Hadisəyə səbəb ermənilərin işləmək üçün gedib müvəqqəti qaldıqları yerdə yəhudilərə ”bura bizim məhlədir” demələri olub. Sonra mübahisə yaranıb. Əraziyə gələn polis qüvvələri erməni təxribatçılara qarşı güc tətbiq edib, bir qrup ermənini döyüb. Teleqram kanalları məlumat verir ki, polis əməkdaşları erməniləri döydükdən sonra bölməyə aparıblar.**

Adalet.az xəbər verir ki, İsrailin Ermənistandakı səfiri Joel Lion öz Twitter hesabında olaya münasibət bildirib . O, ermənilərə və Qüds Erməni Patriarxlığına qarşı hücumların heç bir halda İsrailin plüralist, eyni zamanda müxtəlif xalq və millətlərdən ibarət cəmiyyətini təmsil etmədiyini yazıb. Səfir Lion öz paylaşımında iddia edib ki, hadisə bir neçə ekstremist tərəfindən həyata keçirilib:”Bu xoşagəlməz hadisələr bir neçə ekstremist tərəfindən törədilib. İsrail bütün dinlərin ibadət azadlığına sadiqdir, bunu şübhəli şəxslərin dərhal həbsi sübut edir”.



Qeyd edək ki, 3 gün əvvəl Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Vahan Hunanyan ”Twitter” səhifəsində:

”Biz Qüdsdəki xristian dini qurumlarına, o cümlədən Erməni Patriarxlığına və İçərişəhərin erməni sakinlərinə qarşı yönəlmiş son zorakılıq və vandalizm aktlarından dərin narahatıq”-deyəpaylaşım etmişdi. Hunanyan bildirirdi ki, Qüdsdən olan Dikon Aqan Qoqçyan adlı erməninin müqəddəs torpaqlarda ermənilərə qarşı hücumlar barədə mətbuata açıqlama verib:” iki yəhudi radikal erməni gənclərin ”Ağlama divarı”na yaxınlaşmasının qarşısını almağa çalışıb və onlardan birinin gözünə gözyaşardıcı qaz atıblar. Həmin gün daha bir yəhudi ekstremist qrupu Qüds Erməni Patriarxlığının damına çıxaraq Ermənistanın xaçı və bayrağını cırmağa cəhd göstərib.

**Şəhərdə xristianlara, ərəblərə və ermənilərə qarşı zorakılığa çağırış edən plakatlar görünməyə başladı. Bir neçə həftə əvvəl İçərişəhərin erməni məhəlləsindəki erməni kilsəsinin divarlarında vandalizm aktları qeydə alınıb”.**

**Əntiqə Rəşid**

## Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən Şahin Bağırov cənablarına



**Hörmətli Şahin müəllim!**

30 yanvar Gömrük işçilərinin peşə bayramı günüdür. Sizi və rəhbərlik etdiyiniz Komitənin bütün şəxsi heyətini bu peşə bayramınız münasibətilə ürəkdən təbrik edir, Sizə və bütün əməkdaşlarınıza can sağlığı, gördüyünüz işlərdə uğurlar arzu edirik. Biz yaxşı bilirik ki, Dövlət Gömrük Komitəsi Sizin rəhbərliyiniz altında özünün peşəkarlığı, xalqa və dövlətə sədaqəti ilə xalqımızın və hər kəsin sevgisini qazana bilibdir.

Xüsusilə son zamanlarda Komitədə aparılan islahatlar, işinizdəki yeniliklər, eləcə də Gömrük Komitəsinə müraciət edən vətəndaşlarla qanunauyğun, həm də aşkarlıq prinsiplərilə həyata keçirilən bütün tədbirlər bilavasitə sizin ölkə Prezidenti və xalqımız qarşısındakı sədaqətinizin, peşəkarlığınızın nümunəsidir.

Hər kəs yaxşı bilir ki, cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev cənablarının Komitəyə göstərdiyi diqqət və qayğı bu kollektivin formalaşmasında, müasir dünyanın ən son avadanlıqları ilə təmin edilməsində, peşə hazırlıqlarının yüksəldilməsində öz sözünü deyib. Avropanın və inkişaf etmiş ölkələrin gömrükçülərilə mübadilələriniz öz müsbət nəticəsini verməkdədir. Ona görə də Sizin rəhbərlik etdiyiniz Komitənin kollektivin fəaliyyəti də həmişə öndə olub və bu gün də öndədir. İş prinsipiallığı, dövlətə və xalqa sədaqət, qarşıya qoyulan vəzifələrin icrası Azərbaycan gömrükçülərinin əsas qayəsidir.

Ona görə də Sizin uğurlu işinizin nəticəsidir ki, dövlət büdcəmizin formalaşmasında gömrükçülərimiz öz sözünü deyib və deyəcəkdir. Bugünkü Azərbaycan reallığı, xüsusilə Azərbaycan Prezidentinin tələb və tapşırıqları bundan sonra da gömrükçülərimiz üçün həyat kredosu olacaqdır.

**Hörmətli Şahin müəllim!**

Bir daha Sizi və bütün kollektivinizi peşə bayramınız günü münasibətilə təbrik edirik.

**Hörmətlə: Millət vəkili Aqil Abbas**
**və “Ədalət” qəzetinin kollektivi**

***Aqil ABBAS***

## "NEFTÇİ" VƏ QURBAN PİRİMOVUN TARI

*Deyəcəksiz ki, futbol komandası ilə Qurban Pirimovun tarının nə əlaqəsi? Tələsməyin, görərsiz.*

*Qurban əmi bildiyiniz kimi, Ağdam rayonunun Abdal-Gülablı kəndində doğulub. Demək olar ki, bu kəndin yarısı onun qohumudu. Rəmişin uşaqlığında Qurban əmi ona bir tar bağışlamışdı. Sonra Bakının məşhur tarzənləri o tarı Rəmişdən almaq üçün az qala bir "Jiquli"nin pulunu təklif edirdilər, amma Rəmiş o tarı heç kimə satmırdı.*

*Uzatmayım, bunu bir dəfə də yazmışam. Günlərin birində bir toyda Rəmiş hirslənib həmin tarı oynayanların birinin başına vurmuşdu, tar da çilik-çilik olub dağılmışdı. Erməni kamançaçalan vardı, o tarın qırıqlarına üç minmi, üç min beş yüz manatmı verib*







*Rəmişdən almışdı. Yəqin ki, sonra yığdırıb erməni tarı kimi hansısa muzeyə ya satıb, ya da bağışlayıb. Nə isə.*

*Gələk Qurban əminin ikinci bir tarına. Qurban əminin Ağdamda kiməsə bağışladığı başqa bir tarı da vardı. O tar da əldən-ələ gəzirdi. Tarçalanlar babat pul verib həmin tarı alırdılar, forslanmaq üçün ki, Qurban əminin tarı məndədi. Biri alırdı, sonra başqası daha bir az çox pul verib tarı götürürdü, beləcə tar üstündə qırğın idi.*

*Axırıncı dəfə Elgiz müəllim almışdı.*

*Ağdamdan çıxan böyük tarzənlərin, ya xanəndələrin demək olar ki, hamısının muğam müəllimi məşhur tarçalan Məşədi Nəriman olmuşdu, özü də həm də söz ustadı idi.*

*Gəlib Məşədi Nərimana deyirlər:*

*- Məşədi, xəbərin var, Qurban əminin tarını indi də dörd min manata Elgiz müəllim alıb.*

*Məşədi başını bulayıb deyir:*

*- Ay bala, o tarın bəxti yoxdu ey. Qurban əmidən sonra hələ bir çalan əlinə düşməyib.*

*İndi "Neftçi" komandası da Böyükağa Hacıyevdən sonra bir normal məşqçi əlinə düşməyib.*

*Allah Qurban əmiyə də, Böyükağa Hacıyevə də rəhmət eləsin.*

## *Korotçenkodan erməni politoloqa tutarlı cavab*

**"Sarkis Tsaturyan çoxdan xarici agent elan edilməli idi". Adalet.az xəbər verir ki, bu sözləri "Milli müdafiə" jurnalının baş redaktoru, tanınmış rusiyalı hərbi ekspert İqor Korotçenko Ermənistan Silahlı Qüvvələri gününün Moskva şəhərində qeyd edilməsinin qarşısının alınmasına qəzəblənən Ermənistanın "Realist" informasiya agentliyinin baş redaktoru Sarkis Tsaturyanın Rusiyanı təxribatçı adlandırmasına və ermənilərdən üzr istənilməsi tələbinə münasibət bildirirkən deyib. Rusiyalı hərbi eksper öz sosial şəbəkə profilində Sarkis Tsaturyana tutarlı cavab verib:"Moskvadan Ermənistana uğurla köçdükdən sonra oradan da "qayığı silkələməyə" çalışan "politoloq"- təxribatçı Sarkis Tsaturyan çoxdan Rusiya Ədliyyə Nazirliyi tərəfindən xarici agent elan edilməlidir. Biz nəyi gözləyirik?!"**

Qeyd edək ki, S.Tsaturyanın uşaqlığı qədim rus şəhəri Böyük Rostovda keçdi, o, (on dörd yaşında) "Rostov Vestnik" qəzetində publisistik debüt etdi.

2005-ci ildə Rusiya Xalqlar Dostluğu Universitetinin Beynəlxalq münasibətlərin nəzəriyyəsi və tarixi fakültəsinə daxil olub.

2010-cu ildə S.Tsaturyan bakalavr, 2012-ci ildə isə beynəlxalq münasibətlər üzrə magistr dərəcəsi alır. O, fransız dilindən tərcümə ixtisasına malikdir. Maraqları: beynəlxalq münasibətlər tarixi; geoiqtisadiyyat; qlobal idarəetmə; ABŞ-ın xarici siyasəti; zorakı olmayan dövlət çevrilişi texnikası. S.Tsaturyanın əsərləri Rusiya Elmlər Akademiyasının jurnallarında dərc olunub. Artıq 1 aya yaxındır ki, bu nankor erməni İrəvanda yaşayır.

**Əntiqə Rəşid**

*İradə TUNCAY*

# Bahalı VAXT

## Əslində nədir vaxt???

**Vaxt bizim bu fani dünyada mövcud olmaq, gəzmək-tozmaq, yemək-içmək, geyinib-kecinmək üçün sərf edə biləcəyimiz dövrə deyirik. Nisbi anlayişdır, əlbəttə... Kiminin sərf etdiyi zaman kəsiyi böyük dövrü əhatə edir, kiminin dövrü azdır... Buna qərarı biz vermirik - indiyə qədər mübahisəsi, davaları çox olub . Müxtəlif dinlər buna müxtəlif rakurslardan yanaşıb - nəticə yoxdu... Bildiyimiz bir həqiqət var ki, VAXT yaşadığımız məkanla bir müstəvidə birləşir. Köhnə dövrün adamı olduğum üçün yazdıqlarıma, tərzimə xüsusi diqqət verirəm. Yeni nəsil üçün bu problem yoxdur - nə istəsələr, necə istəsələr yazırlar... Yəni mənim işim yazmaq olduğu üçün yazı dedim. Müəllim öz işinə öz vaxtıyla, həkim də öz vaxtıyla yanaşır. Sanki kapital, ən böyük kapital, maddi nəsə desək onunla müqayisə oluna bilər. Amma demək olmur axı - kimin pulu çoxdu, vaxtı da çoxdu... Olmur... Pul çox olanda sənə bəxş olunmuş vaxt ərzində yaxşı yeyib-içə bilərsən, yaxşı geyinə bilərsən, yaxşı yerlərdə gəzə bilərsən... Həmin gün ərzində bitəcək, vəssalam. Sərf etdiyin dövrü hansı şəhərdə, kənddə, ölkədə xərclədin? Bax, bu olur əsas məsələ. Tanıdığımız nə qədər insan gözəl ölkələrdə yaşayıb, ölməyə bu narahat yerə qayıdır?.. Guya burda ölmək rahatdır??? Prosesin özünün necə olduğunu kimsə anlamır zatən... Həmin prosesdən sonrakı dövr isə səndən sonra qalanlara bir xeyli problem yaradır - dəfn xərcləri, dəfn olunacağın yer və sairə, və sairə...**

Yəqin düz etmədim - vaxt söhbətinə ölüm haqqında danışmaqla başladım. Amma vaxtın sonu gəlir də bir gün... Son gələnə qədər olacaqlar isə harda yaşadığını müəyyən edir. Heç nə qalmır, heç nə aparmırsan. Ancaq xatirələr...

...İnsanın həyatında elə günlər var ki, parlaq işıqlarla gəlir yaddaşa... Kölgə-filan olmur... Neçə illər keçsə də...

Uşaqlıq və yeniyetməlik çağlarımın incik yaddaş parçalarıdı xəstəxanalar...Əvvəl anam həmişə xəstəxanada olurdu. O vaxt səbəbini anlamırdım... Anasından ayrılmaq istəməyən balaca bir uşaq düşünün - həmişə başqa adamların himayəsində... Anasını ancaq xəstə paltarında, xəstə... İnsanın həyatında elə günlər var ki, parlaq işıqlarla gəlir yaddaşa... Kölgə- filan olmur... Neçə illər palatasında görür...

Həmin axşam anam məni çimdirdi, yedirtdi... və birdən evdə təlaş başladı... İkicə gün idi ki gəlmişdi evə, ikicə gün idi ki cıxmışdı xəstəxanadan... Artıq öyrəncəli olmuşdum, anam paltarlarını yığanda bilirdim ki, yenə xəstəxana məsələsi var. Ağlamağa başladım, sakitləşdirməkçün məni də özləriylə beşinci mərtəbədən aşağı düşürtdülər. Nənəm bizdə idi. Atam taksi dalınca qaçmışdı... Anam taksiyə minəndə lap bərkdən ağlayıb ətəyindən yapışdım, qucaqladı məni - sənə bacı gətirməyə gedirəm dedi... O vaxt heç indiki aparatlar, uzi- zad yox idi. Amma dedi, bacı gətirəcəm ))))

Həmin gecə bacım doğuldu... Vaxtından tez. 1966-cı ilin fevral ayının 2-də.

İndi xatirəyə dönmüş yaddaşımın içində ancaq mən və bacım salamatıq... Valideynlər də, nənəm də sağ deyil... Həyat dediyimiz budur... Nənəm də fevral ayında rəhmətə getdi... Amma 1984-cü ilin fevralında. Fevralın 12-də Sov.İKP MK-nın Baş Katibi Yuri Vladimiroviç Andropov vəfat etdi. Həmin gün kənddən də xəbər gəldi - nənəm rəhmətə getmişdi.

Padşahla nənəmin eyni gündə ölməyi yəqin bir tale ironiyası idi. Çünki nənəm çox ağır həyat yaşamışdı, cavan gəlin dörd yetimlə dul qalmışdı. İkinci Dünya Müharibəsinin aclığından bu yetimləri kolxozda işləyə-işləyə çıxarmışdı, oxutmuşdu hamısını.

O gün dəhşətli qar yağdı. Dizə qədər. Hamı kəndə getdiyindən evdə atam, səkkiz aylıq körpə oğlum və mən qalmışdıq. Kimsə yox idi ki, başımıza bir iş gəlsə dadımıza yetsin. Maşınlar çətinliklə işləyirdilər, yollar buz idi... Həm də o vaxt indiki ərzaq bolluğu da yox idi. Atam ağır, zəhərli dərmanlar içdiyindən hər gün süd içməli idi. Südü isə səhər-səhər süd maşınında gətirib satırdılar. Ala bildin nə yaxşı, yoxsa qaldın südsüz . Həm də böyük növbə olurdu. Səhər tezdən durdum, körpə yatmışkən süd dalınca getdim, hamilə idim ikinci oğluma. Yol buz, qarnım burnumda, yolda yıxılsam mən orda qalacam, evdəkilər də evdə. Kimsə bilməyəcək. Nəsə, evimizlə süd maşını olan yolu az qala santimetrlə getdim. Südü aldım... Qayıdanda fikirləşdim ki, görəsən niyə belədi, nənəm öləndə də rahat bir vaxtda ölmədi? Dörd yetim böyüdən bu qadın belə zülmlü gündə dəfn olunacaq... 1984-cü il idi. O vaxtdan hər fevralın 12-də o qarı xatırlayıram...

Qəribədir, bu vaxt məsələsi niyə belə qısa, kəsik, yarıtmaz olur bizim kimi ölkələrdə??? Neçə nəslin həyatını xatırlayıram - həyat olmayıb... Həyat üçün başlanğıc maddə süd - onu çətinliklə alırdıq. O vaxt yəni.

Vaxt və həyat. Olmayan həyat, yaşamadığımız həyat... Gənclər gününü qeyd edirik guya... Dünya III Dünya Müharibəsinə hazırlaşır. Yalandan tərif vururuq...

Əslində siyasi mənzərə deyə bilərik. Və hər ölkəyə aid bir şey sayıla bilər. Kim güclüdüsə kənardakılara yumruq vurur, özünkünə qapaz... Yumruq indi populyardı - abidə də qoyuruq yumruğa... Qapaz haqqında da düşünməyin vaxtı çatıb. Qapaz olmadan yaşaya bilmirik. Yumruq xarici siyasətdi, qapaz daxili... Vaxt gələcək, qapaza da heykəl qoya bilərik...

Bu yaşa çatmışam - hələ görməmişəm yaxşı nəyisə düzgün ünvanına çatdırsınlar. Amma ola bilər də nəyəsə "pis" deyərsən - üstünə beşini də qoyub yollayacaqlar sahibinə. Ya da birbaşa özləri deyəcək... Kiməsə yaxşı deyib ona niyə dividend gətirsinlər ki? Hazır öz işini həll edər də...

Çatdı yəqin, nə deyirəm. Açıq deyə bilmirəm də. Xoş şey deyil axı... SUS!!!

Bu yaşa çatmışam, hələ görməmişəm ki, doğru-düzgün qiymət versinlər düşüncəyə və gözəl yazıya Qiymət, dəyər də vaxt kimidi... Bahalı!!!

İnsan cəmiyyəti heç vaxt (ən ağır repressiya dövründə də) birfikirli, birdüşüncəli olmayıb. Hətta dəmirqapı SSRİ-də də anekdot, ya samizdat şəklində də öz fikrini bildirib... Siyasət lazımdı... Diplomatiya... Görən, səfirlər xoşbəxtdi??? Onların da başı Qarabağ söhbətinə qarışıb...

Baxıram xəbərlərdə... Məmləkətdə belədi - sata bilirsənsə alacaqsan. Fərqi yoxdu - 18 yaşlı əsgəri, dövlətin maraqlarını, öz ləyaqətini... Vəzifəni, iş yerini, qəzet səhifələrini. Prinsip budur - sat... al...

Bu dövlət, bu dövlətin bayrağı uğrunda döyüşən bir ailədə böyümüşük. Kimsəyə təzim etmədən - amma bu gün dövlətin parası ilə "Qapalı Səhmdar Cəmiyyət"i quranlar xalqa və dövlətin başında duranlara hücum edir!!! Dövləti qorumalıyıq, bu da bizim borcumuzdur!!! Bu borc ancaq bizimdi??? Neçə ildi qalıb boynumuzda? Genetik borclar!!! Oğurluq, quldurluq, riyakarlıq da genetik borcdu. Görürsüz necə uğurla yiyə dura bilirlər, susa bilirlər və xoşgünlü olurlar.

Amma ...

İnsan nə zombi deyil, nə də cəza dəstəsi deyil. Və əlini başına aparıb "sluşi" dayanmır. İnsanı tərbiyə eləməyin yolları var. Və bu da döyülməklə olmur. Bunu bəşəriyyət neçə min ildi düşünür.

Təbii, düşüncə varsa... O da kimə lazımdı??? Yazdıqlarımı oxuyan yoxdu zatən. Ancaq özlərinə lazım olanları oxuyurlar. Elə ediblər ki, online da oxuyan olmur. Zövq xətrinə yəni... Bir qrup xoşbəxt edib...

Kütləvi olan kim qaldı??? Pensiyaçılar... Yazıqlar... Gördüm necə qocalır insanlar bizim məmləkətdə... Gənclər... Çoxlu idarələr açıblar... İntihar da kütləvi olub gənclər arasında... Qaçqınlar... Futbol komandası deyil ki, onların hamısı...

Mühacirlər... Əlbəttə yox... Müxalifət.... Yox vallah... hamıya partiya yaratmayıblar...

Əslində çatışmayan insani hisslərdi... İrandan, Turandan yazmaq mümkündü, insanlığı unutmuşuq...

**Bir hekayə oxumuşdum illər əvvəl. Zəngin bir adam bahalı maşında kəndin içində, yolda bir qız uşağını vurur. Hekayə birinci şəxsin həmin anda xatırlamalarıdır - öz-özünə deyir, guya böyüsə nə olacaq? Yekələcək, kökələcək, eybəcərləşəcək... Öldü, xilas oldu da... Yoxsulluqdan qurtardı... Bu anda görür ki, kənd camaatı qəzəblə onun üstünə gəlir və döyməyə başlayır qəza edəni... Yumruq, qapaz... Bir gün belə də ola bilər...**

# Ümummilli liderin müasir hüquq sisteminin formalaşmasında, o cümlədən Azərbaycan ədliyyəsinin inkişafında xüsusi rolu

**Hər bir xalqın taleyində ona işıq, ziya gətirən fenomen şəxsiyyətlər olur. Azərbaycan xalqı da belədir. Yüzilliklər boyu onun da keçmişindən-bugününəcən qəlbi xalq üçün döyünən, yaşayıb quran, yaratdıqları ömür boyu, özündən sonra əsrlərlə millətinə xidmət edən oğullar yetirmişdir. Belə fenomen, dahi şəxsiyyətlərdən ən görkəmlisi iyirminci yüzillikdə xalqımızın qan yaddaşında dərin iz qoyan ulu öndərimiz, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev olmuşdur.**

Heydər Əliyev müxtəlif illərdə vəzifələrdə çalışarkən Azərbaycan xalqının iqtisadi, sosial və mədəni həyatının bütün sahələrinin inkişafına təkan



vermiş, 1993-cü ildə xaqlın yüksək fəallığı şəraitində baş tutan seçkilərdə 76.1 faiz səs toplayaraq etimad qazanmış, Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Rəhbərlik etdiyi gündən etibarən o, bütün gücünü Azərbaycan xalqının daxili və xarici siyasətinin inkişafına yönəltmiş, iqtisadiyyat, təhsil, diplomatik əlaqələr, neft sənayesinin inkişafı və ixracı, hüquqi dövlət quruculuğu sahəsində uğurlar və bir çox başqa müvəfəqiyyətlər əldə edilməsinə nail olmuşdur. Azərbaycan xalqının tarixində ən parlaq səhifələrdən biri də müstəqillik uğrunda mübarizədir ki, milli azərbaycançılıq idealogiyasının inkişafı da ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. O bu yolda heç bir çətinlikdən qorxmadan millətinə sonsuz sədaqət nümayiş etdirərək yeni inkişafa qədəm qoyan Azərbaycanda qətiyyətli addımlar atmış, çox mühüm islahatlar keçirmiş, bir daha xaqlın etibar və etimadını qazanmışdır. 20 faiz torpaqları təcavüzkar ermənilərin işğalı altında olan xaqlımız ən çətin anlarda ona arxalanmış, dövlətimizin inkişafının etibarlı əllərdə olduğuna güvənmişdir.

Ölkədə cərəyan edən hadisələri dərindən təhlil edən Heydər Əliyev yaxşı dərk edirdi ki, Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməlidir. "Dövlət - dövlətçiliyi qorumalıdır" fikrini dönə-dönə vurğulayan Heydər Əliyev çox qəti və prinsipial mövqedən çıxış edərək ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkdi. Ölkədə geniş vüsət almış cinayətkarlığın bütün ünsürlərinə qarşı qəti mübarizə aparmaq üçün 1994-cü ildə imzaladığı xüsusi Fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı. Eyni zamanda, milli dövlətçiliyin inkişafında korrupsiyanın aradan qaldırılmasının əhəmiyyəti nəzərə alınaraq bu ümumbəşəri sosial bəla ilə mübarzəyə başlanıldı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev isə hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi.

Yeni Konstitusiyanın layihəsinin hazırlanması kimi cox ciddi və məsuliyyətli vəzifəni bilavasitə öz üzərinə götürən dahi öndərimiz bununla bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etmişdir.

"Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik" - deyən ulu öndər Heydər Əliyev konstitusiyaçı alim kimi bu sahədə bütün problemləri öyrənərək və görkəmli filosoflarının elmi irsinə mükəmməl yiyələnərək Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını yaratdı.

Azərbaycan Respublikasında aparılan hüquq islahatları müasir hüquq və idarəetmə sisteminin qurulmasına və hüquqi münasibətlərin modernləşdirilməsinə yönəlmiş demokratik inkişafın ayrılmaz elementidir. Bu islahatlar Konstitusiya müddəalarını reallaşdıraraq, cəmiyyətin hüquqi əsaslarının və dövlətçiliyin möhkəmləndirilməsinə xidmət edir.

Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş məhkəmə-hüquq islahatı nəticəsində Azərbaycanda bütün hüquq təsisatlarının fəaliyyətini tənzimləyən yeni mütərəqqi qanunlar, məcəllələr qəbul edilmiş, yeni - 3 pilləli müstəqil məhkəmə sistemi yaradılmış, hakimlərin müstəqilliyinin real təmin edilməsi üçün zəruri tədbirlər görülmüş, hüquq-mühafizə orqanlarının və vəkillik xidmətinin fəaliyyəti demokratik əsaslarla yenidən qurulmuşdur.

Hazırda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş məhkəmə-hüquq islahatları ölkəmizdə məhkəmə sisteminin müasirləşdirilməsinə, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və ədliyyə orqanlarının inkişafına yönəlmişdir. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin başladığı hüquq islahatlarını uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dediyi kimi, hətta inkişaf etmiş ölkələrdə bu proses daim gedir. Yəni bu prosesin əvvəli var, amma sonu yoxdur.

Ölkəmizdə aparılan hüquq islahatlarının mühüm tərkib hissəsi olaraq dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi məqsədilə 2001-ci ildə demokratik dövlətlərin hüquq sistemində mühüm rol oynayan qeyri-məhkəmə müdafiə mexanizmi - Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) institutu yaradıldı. Qanunvericilik tədbirləri çərçivəsində yeni hüquq sisteminin fəaliyyət göstərməsi üçün Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki Prosessual, Əmək, Ailə, İnzibati Xətalar, Gömrük, Vergi və digər məcəllələri, "Notariat haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" və digər qanunlar qəbul edildi.

Bu gün ədliyyə fəaliyyətində müasir iş üslubları, ən qabaqcıl texnologiyalar tətbiq olunur. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə 2013-cü il ölkəmizdə "informasiya-kommunikasiya texnologiyaları ili" elan olunmuşdur. Ədliyyə Nazirliyi tərəfindən İKT-lərin tətbiqi daim diqqətdə saxlanılaraq, bu sahədə xeyli işlər görülmüş, o cümlədən vətəndaşlara keyfiyyətli və rahat xidmət göstərilməsi, inzibati işçilərlə təmasın minimuma endirilməsi məqsədilə elektron köşklər, habelə nəzarətin gücləndirilməsi üçün veb-kameralar quraşdırılmış, nazirliyin saytında xüsusi e-xidmətlər bölməsi yaradılmış, məhkəmə sisteminin vahid elektron portalı yaradılmışdır. Bütün bunlar dövlət başçısının rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsidir.

Dünya təcrübəsi göstərir ki, hüquqi dövlətin qurulması möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Möhkəm ədliyyə sistemini, əsas məqsədi insanların bütün hüquqlarına hörmətlə yanaşılan açıq vətəndaş cəmiyyətinin yaradılması və inkişafına xidmət etməkdən ibarət olan, mükəmməl normativ-hüquqi baza əsasında fəaliyyət göstərən və bu ümumi məqsədlə birləşdirilən ədliyyə orqan, idarə və təşkilatlarının məcmusu kimi səciyyələndirmək olar. Struktur bölmələr olan həmin idarə və təşkilatlar bir-biri ilə sıx bağlı və qarşılıqlı fəaliyyət göstərərək sistemin bütövlüyünü şərtləndirirlər. Əsl mənada möhkəm ədliyyə sistemi olan dövlətdə vətəndaşların hüquq və azadlıqları, qanun qarşısında bərabərlik və onun hər kəs tərəfindən icrası təmin olunur.

**Ümumilikdə, bütün həyatını Azərvaycan xalqı qarşısında böyük xidmətlərə həsr edən ulu öndərimiz, ümumilli liderimiz Heydər Əlirza oğlu Əliyevin ömür yoluna diqqət yetirəndə bir daha əmin oluruq ki, onun əziz xatirəsi xalqımızın yaddaşında əbədidir və heç vaxt unudulmayacaqdır.**

**Nail Qarayev**
**Gəncə şəhər 6 saylı notariat ofisinin hüquqşünası**



*Rüstəm Hacıyev*

## *Baydenin Ukrayna ilə bağlı yeni strategiyası*

***Ukraynada münaqişə yeni fazaya qədəm qoyur. Bloombergin eksperti Xol Brends bəyan edir ki, ABŞ-ın bu müharibəylə bağlı strategiyası dəyişməyə başlayıb.***

***Ekspertin sözlərinə görə, Ukrayna münaqişəsiylə bağlı Vaşinqtonun münasibətini dəyişməsi, tərəfləri məsələnin diplomatik yolla həllinə gətirib çıxaracaq.***

***"Rusiya nüvə silahı ilə bağlı təhdidlərini aradan qaldırır, çoxsaylı itkilərlə müşayət olunan uzun müddətli müharibə daha da şiddətlənir"- deyə bildirən Brends, əlavə edir ki, amerikan prezidenti Co Baydenin administrasiyası Ukraynaya hərbi yardımları artırmaqla güman edirlər ki, bu münaqişənin diplomatik yolla həllinə gətirib çıxaracaq.***

***Ekspertin fikirincə, Vaşinqton Ukraynanın Hərbi Qüvvələrinə "ehtiyatla optimistcəsinə" yanaşırlar. Brends hesab edir ki, Baydenin Ukrayna ilə bağlı üç yeni əsas strategiyası var. Əvvala ABŞ rəhbərliyi bu münaqişədə əsas hədəflərini dəqiq müəyyənləşdirməlidir.***

***Hazırda ABŞ istəyir ki, Ukrayna hərbi cəhətdən müdafiə olunsun, siyasi və iqtisadi cəhətdən ayaqda qalmağı bacarsın. Artıq Birləşmiş Ştatlar Donbassın və Krımın Ukraynaya qaytarılmasını vacib şərt hesab etmir.***

***Ekspertin fikirincə, "ABŞ müharibənin sonsuzluğa qədər uzanmasını istəmir. Çünki bu müharibə Ukraynanı boş səhralığa çevirir və qərbin büdcəsinə ciddi zərbə vurur".***

***İkincisi , yeni strategiya Ukrayna ordusunu ən müsir silahlarla təmin etməyi nəzərdə tutur. Üçüncüsü,Bayden Krımın güc yoluyla qaytarılmasını dəstəkləmir, lakin "yarımadada yerləşən Rusiyanın hərbi obyektlərinə zərbələr endirməyi" məqbul sayır.***

***"Beləliklə, Bayden çalışır ki, Ukrayna Rusiya qüvvələrinə qarşı təyziqi artırsın. Mümkündür ki, ABŞ növbəti hərbi fazanın sonunda, vəziyyəti öz xeyrinə dəyişsin"- deyə Brends bildirir.***

***Ukraynanın Fransadakı şəfiri Vadim Omelçenko bəyan edib ki, qərb ölkələri Kiyevə 321 ədəd tank göndərməyə söz verib. Ukrayna prrzidenti Volodimir Zelenski tələb edir ki, tanklar münkün qədər tez göndərilsin. "Əgər bu tanklar avqus-sentyabr aylarında göndıriləcəksə, bu çox gec olacaq"- deyə Zelenski bildirib.***

***Artıq Portuqaliya, Finlandiya, İspaniya və Niderland Kiyevə döyüş maşınları göndərmək istədiklərini bildiriblər.***

***Rusiya Federasitasının prezidenti Vladimir Putin, qərb dövlətlərinin Ukraynaya 321 ədəd hərbi texnikanın göndərilməsi məsələsiylə bağlı bildirib ki, "biz qərblə sərhədlərə tanklarımızı göndərməmişik. Bizə qarşı zirehli texnikaların gpndərilməsiylə iş bitməyəcək. Bizim buna cavab verməyə gücümüz var".***

***Rusiya lideriinin fikirincə, "Kollektiv Qərb bu hərkətlətiylə Rusiyanı cavab verməyə məcbur edir".***

## *Saakaşvili vəsiyyət etdi: Məni orada dəfn edin*

**Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili məhkəmə iclasında Ukraynada dəfn olunmasını vəsiyyət edib.**

Adalet.az xəbər verir ki, bu barədə RİA Novosti məlumat yayıb.

Saakaşvili bildirib ki, onun ürəyi Ukraynaya məxsusdur:

"Qələbəmizə tam əminəm, amma bu qədər yaxın olan bu qələbəni görməsəm, ürəyim Kiyevdə dəfn edilməlidir. Ürəyim Ukraynaya məxsusdur".

# İranın azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyi

## Xoya yardıma imkan verilmir

**Yanvarın 18 və 28-də İranın, əsasən, azərbaycanlıların yaşadıqları Xoy əyalətində zəlzələ baş verib. Dağıdıcı yeraltı təkanlar nəticəsində 70-dən çox kənd dağılıb, mindən artıq insan yaralanıb, üç nəfər ölüb. Təbii fəlakətdən xeyli vaxt keçməsinə baxmayaraq, İran hökuməti soydaşlarımıza heç bir yardım göstərmir. Minlərlə ailə kəskin soyuq və qarlı hava şəraitində çöldə gecələyir. Çadır, isti geyim və qidaya olan tələbat ödənmir, insanlar arasında kütləvi xəstəliklər yayılır. Xəstəxanalarda tibbi heyət və dərman çatışmazlığı var. Bu səbəbdən də xəstə qəbulundan imtina olunur.**

Diplomatik mənbələrə istinadən (APA) bildirilir ki, Azərbaycan dövləti Xoyda zəlzələdən zərərçəkmiş soydaşlarımıza hər cür yardım göstərməyə hazırdır və buna bütün resurslar da var. Lakin İran dövləti Azərbaycanın bu yardımı soydaşlarımıza çatdırmasına imkan vermir.

Qardaş Türkiyə Cümhuriyyətinin Qızıl Ay Cəmiyyətinin açıqlamasına görə, İran bu ölkənin də zəlzələdə zərər çəkənlərə yardım təklifini qəbul etməyib. Əvəzində İran rəsmiləri öz imkanları ilə məsələnin öhdəsindən gələ biləcəklərini ifadə ediblər. Türkiyə Cümhuriyyəti Qızıl Ay Cəmiyyətinin başqanı Kərəm Kınık bu barədə öz "Twitter" səhifəsində yazıb: "Zəlzələdən sonra dərhal yardım təklifimizi onlara çatdırdıq. Ancaq zəlzələnin öhdəsindən gələ biləcək qədər imkanları olduğunu ifadə edərək bizlərə təşəkkür etdilər".

Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib ki, İranın zəlzələdən zərər çəkənlərə qarşı aqressiv davranışı, heç bir yardım göstərməməsi və yardım



göstərənlərə mane olması İranın daxili siyasətində azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyin göstəricisidir: "Bu, öz vətəndaşlarına münasibətdə humanitar terrordur. Eyni zamanda, islam dininin bütün humanitar və mənəvi dəyərlərinə ziddir".

Hikmət Babaoğlu bildirib ki, İranın Xoyda baş verən zəlzələdən zərər çəkmiş soydaşlarımıza ediləcək yardımlardan imtinası şovinist fars rejiminin azərbaycanlıların hüquqlarını tapdalamasının, onları adi humanitar hüquqlardan belə, məhrum etməsinin göstəricisidir: "İranın bu cür antihumanist, antihüquqi və antiislami mövqeyi qətiyyətlə pislənilməlidir. İranda yaşayan 30 milyon azərbaycanlı ən çətin anlarda belə, vətəndaşı olduğu dövlətdən humanitar yardım görmürsə, əlbəttə ki, onlar beynəlxalq hüquqa uyğun olaraq öz müqəddəratını təyinetmə, özünü ifadəetmə vasitələrindən istifadə etməyə məcbur qalacaqlar. İran rejimi azərbaycanlıları öz müqəddəratlarını təyin etməyə doğru itələyir".

"Bu, faciədir. Heç nəyə baxmadan biz yardımımızı etməliyik". Bu fikirləri isə məsələyə münasibət bildirən deputat Aqil Abbas səsləndirib. Millət vəkili Azərbaycan-Ermənistan müharibəsi zamanı da İranda zəlzələ olduğunu xatırladaraq bildirib ki, "o zaman Azərbaycandan İrana həkimlər yola salınmışdı, onları qəzaya salıb öldürmüşdülər".

**Deputat bildirib ki, "İranda faciə olub. Zəlzələ nəticəsində evlər dağılıb. Bizim də yardım etmək imkanımız var. İran bu yardımı rədd etməklə səhv edir. İran hökuməti icazə verməsə, heç nə etmək mümkün deyil. Güman edirəm ki, kənar vilayətlərdə yaşayan azərbaycanlılar köməklərini əsirgəmirlər. İran hökuməti icazə versə, şəxsən özüm də maddi yardım göndərərəm".**

**Nicat Novruzoğlu**

# NATO-nun baş katibi Ukraynaya silah göndərmək üçün yeni dövlətlər axtarışına çıxıb

**NATO-nun baş katibi Yens Stoltenberq, ötən istirahət günlərində Cənubi Koreyaya səfər edib və bu ölkənin rəhbərləri ilə görüşü zamanı Ukraynaya kömək məqsədilə yeni tərəfdaş axtarmağa çalışıb. Alyansın başçısı, Seulu Kiyevə silah göndəməyəcəyi ilə bağlı verdiyi sözdən geri çəkilməyə çağıraraq təkid edib ki, onlar Kiyevə silah göndərsinlər.**

Bu barədə məlumat verən Bloomberg yazır ki, Stoltenberq çıxışlarının birində qeyd edib ki, "Avropada baş vetənlər, Hind-Sakit okean regionu üçün də böyük əhəmiyyət daşıyır. Asiyada baş verənlər isə, NATO üçün əhəmiyyət daşıyır". Alyansın baş katibi Cənubi Koreya rəhbərliyini, Ukrayna-Rusiya danışıqlarını tezləşdirmək üçün bunun vacib olduğuna inandırmağa çalışıb. Stoltenberqin fikirincə, Ukraynanın sulala təmin olunması danışıqlara başlamağı tezləşdirə bilər.

Stoltenberq, bu məqsədlə daha bir tərəfdaş tapmaq üçün Yaponiyaya da səfər etməyi planlaşdırır. Baxmayaraq ki, Yaponiya Ukraynaya kimyəvi müdafiə geyimləri və pilotsuz uçuş aparatları göndərib, letal silahların göndərilməsindən isə imtina edib.

NATO-nun baş katibi bu məsələnin həll olunması üçün Yaponiya hakimiyyətini razı salmağa çalışacaq.

ABŞ və Qərb nə qədər Rusiyanın guya Ukrayna ilə müharibə aparması imitasiyaslnı yaratmağa çalışsalarda, əslində dünyanın az qala yarısının bu müharibədə faktiki iştirak etməsi göz qabağındadır.

**Görünən odur ki, Putinin Sem dayının qurduğu oyuna düşməsi, Rusiyaya baha başa gələ bilər.**

**Rüstəm Hacıyev**

## *Rusiya inflasiyanın qarşısını ala bilmir*

**2022-ci ilin sonu - 2023-cü ilin əvvəlində Rusiya hakimiyyəti üçün ölkədə inflyasiyanın artımının qarşısını almaq çətinləşib.**

Bu barədə "Kommersant" qəzeti yazıb. "Dekabrın sonu, yanvarın əvvəlində federal büdcə xərcləri gözləniləndən 2,1



trilyon rubl çox olub və bu ilin ilk ayında bu məqsədlər üçün xəzinədən daha 0,9 trilyon rubl götürülüb", - qəzet bildirib.

**"Blumberq"in analitiki Aleksandr İsakovun sözlərinə görə, hazırkı şəraitdə Rusiyada istehlak qiymətlərinin artım səviyyəsi əvvəlkindən daha az proqnozlaşdırıla bilən olacaq. Bu ssenaridə rəsmilər rublu saxlamaq üçün əlavə kompensasiya haqqında düşünəcəklər.**

*Nicat Novruzoğlu*

# QƏRBİN GƏTİRDİYİ DEMOKRATİYA VƏ SAAKAŞVİLİ



**Son günlər saytlarda, sosial şəbəkələrdə Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin xəstəxanadan videoları, şəkilləri paylaşılır. Boylu-buxunlu, sağlam, top kimi oğlanın indiki vəziyyəti ürəkləri ağrıdır. ABŞ başda olmaqla, Qərb içi həyat dolu bu oğlandan namərdcəsinə istifadə elədi. Sonra da arxasından qaçdı.**

**Stalin nə qədər cəllad və diktator idisə, Saakaşvili bir o qədər demokrat və ürəyiaçıq bir şəxs idi. Təbii ki, səhvləri də vardı. Birinci səhvi o idi ki, hələ demokratiya üçün yetişməmiş gürcü xalqına birdən-birə demokratiya gətirdi. Qafqazın ən güclü korrupsiyaya bulaşmış respublikasına şəffaflıq gətirdi.**

**Daha böyük səhvi isə bir respublikanın prezidenti olmuş şəxs gedib Qərb ölkələrinin tapşırığı ilə özünü kiçildərək Odessa şəhərinin meri oldu. Və sonra da Qərbə inanıb yenidən Gürcüstana qayıtdı.**

**Və indi acınacaqlı vəziyyətinin şəkillərini yaymaqda da məqsəd odur ki, buyurun, bu da Qərbin gətirdiyi demokratiya və aldanıb Qərbə söykənmiş ölkənin prezidenti.**

**Nə deyə bilərik? Tiflisdə tikdirdiyi möhtəşəm kilsə, həmin kilsədə çarmıxa çəkilmiş heykəli olan Həzrəti İsa köməyi olsun.**

**Günlərin bir günü Ukraynanın prezidenti Zelenskini də elə vəziyyətdə görsəniz, qəti təəccüblənməyin.**



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# *Tələbənin cibinə pul qoyarlar...*

## Pul almazlar

**Bu gün bir çoxları yeni təhsil sistemində yaradılmış yeniliklərlə bağlı müxtəlif fikirlər səsləndirirlər. Bu yeniliklər təbii ki, bir çox ölkələrin qabaqcıl və müasir təhsil metodlarından yaradılıb. Və eyni zamanda bizim təhsil işçiləri Avropanın və eləcə də xarici ölkələrin təhsil sistemlərini bəh-bəh ilə qəbul edirlər və deyirlər ki, bu təhsil sistemi çox yüksək nəticə verəcək, gənclərimiz dünyəvi elmlərə və müasir texnologiyalara daha dərindən yiyələnəcəklər. Buna sözümüz yoxdur, amma görünən odur ki, bu Avropadı, nədi, bizi yaman pis günə qoyur. Yəni yeni təhsil sisteminin birdən-birə həyata keçirilməsində elə anlar yaranır ki, bunu nə müəllimlər qəbul edir, nə də tələbələr.**

**Mənimlə kimsə mübahisə edə də bilər, amma görünən odur ki, yenilik adı ilə qəbul olunan bu ənənələrə görə, təhsil sistemində tələbələr bəzən olmazın çətinlikləri ilə üzləşirlər. Məsələn, hər hansı bir tələbə semestr imtahanı verərkən kəsilirsə, bu, heç də asanlıqla başa gəlmir. Yəni həmin tələbə bu kəsir üçün 50 manatdan 200 manata kim pul ödəməlidir. Hələ bu da hamısı deyil. Hansısa tələbə dərsə gəlmədiyinə görə, qayib alırsa, ona görə də pul verməlidir. Balam, bu tələbə pul üstündə yatıb, yaxud bütün tələbələr varlı uşaqların övladıdır?! Bax, bu pulu onlar hardan tapıb versinlər? Tələbə təhsil haqqı versin, kirayənişin pulu ödəsin, yeməyə pul tapsın, əyin-baş almağa pul axtarsın. Yazıq tələbə bunu hardan tapsın?! Hələ biz kitab-dəftərə, yolpuluna xərclənən vəsaitləri demirik...**

**Ümumiyyətlə, bu gün tələbələrə münasibət heç də birmənalı deyil. Şəxsən mənim onlara yazığım gəlir. Çünki əksər ali məktəblərin yataqxanası yoxdur və böyük tələbə ordusu da yataqxanada yox, ayrı-ayrı yerlərdə mənzil götürməklə kirayənişinlik ömrü yaşayırlar. Təqaüd alanlar da var. Amma bu təqaüd heç onların yeməkpulu eləmir. Biz tələbə olanda kirayə pulu 30 manat idi. Yeməyə də gün ərzində 1-2 manat pul xərcləyərdik. Ümumiyyətlə, 100 manatla bəy kimi dolanardıq. Hələ təqaüd alan tələbələr isə o vaxtlar kef edirdilər. Amma indi kirayə pulu ən azı 100-150 manat edir. İki tələbə bir evdə qalsa, 300 manat ev pulu verməlidir. Bəs belə olan halda yazıq tələbə kəsir pulunu necə ödəsin?! Hələ üstəlik, bəzi ali məktəblərdə rüşvət də var. O pulu da tapıb müəllimə vermək özü də bir zülümdü.**

**Bir çox təhsil ekspertləri kəsir pulunun və eləcə də qayıb pulunun ləğv olunmasını səsləndiriblər. Özü də düz eləyiblər! Bu gün biz tələbələr haqqında düşünməsək, onların gününü-güzəranını fikirləşməsək, gələcəyimiz çox qaranlıq ola bilər. Təhsil eksperti, millət vəkili Etibar Əliyev də bu mövzu ilə bağlı dəfələrlə sosial şəbəkələrdə, saytlarda və kütləvi informasiya vasitələrində öz fikirlərini səsləndirib. O, dəfələrlə bildirib ki, kəsir pulu yığışdırılmalıdı. Təəssüf ki, onun dedikləri sanki daşa, divara dəyir. Daşdan, divardan səs çıxır, amma aidiyyatı qurumlardan xəbər olmur. O vəsait ayrı-ayrı universitetin büdcəsinə gedir, ona da nəzarət olunmur, rektorlar da sağa-sola xərcləyirlər.**

**Təbii ki, təhsil ekspertinin fikirləri çox ədalətli və obyektivdir. Valideyn var ki, övladının təhsil haqqını banklardan kredit götürməklə ödəyir. O ki, qala kəsir pulu ola və digər problemlər yarana! Əgər bir tələbənin semestrdə 4-5 kəsiri olsa, onun evi yıxılar ki?! Yazıq valideyn o pulu hardan tapıb balasını bu bəladan xilas eləsin?! Bizcə, bu cür "təhsil metodları" özünü doğrultmur, ən azından ona görə ki, bu barədə cəmiyyətdə və ictimaiyyətdə çox böyük narazılıqlar var. Qardaşım, tələbədən pul almazlar, tələbənin cibinə pul qoyarlar ki, o yaxşı oxusun, gözəl mütəxəssis kimi yetişsin, xalqına və millətinə xidmət eləsin. Biz tələbələrin elmə və təhsilə olan həvəsini öldürməməliyik. Əksinə, onları ruhlandırmalıyıq ki, tələbəlik illərində dərin savad alsınlar, dünyəvi biliklərə yiyələnsinlər və vətənpərvər insan kimi yetişsinlər.**

**Gəlin, bir reallıqla da razılaşaq ki, elə təhsil ocaqları var ki, orda tələbələrə böyük sevgi ilə, məhəbbətlə yanaşılır. Mənim nəvəm qəbul imtahanı zamanı seçim gələndə nə qədər elədim, Bakı Dövlət Universitetini seçmədi. Dedi ki, dədə, yox. Mən Azərbaycan Dövlət Pedaqoji Universitetini seçirəm. Çünki mən seçdiyim universitetdə rüşvət yoxdur. Nəvəm Pedaqoji Universitetin biologiya ixtisasını seçdi və ora qəbul oldu. İndi də 2-ci kursda təhsil alır. Bir dəfə olsun onun imtahanları ilə bağlı kiməsə ağız açmamışam. Gecə saat 2, 3-ə qədər oxuyur və yüksək qiymət də alır. Nəvəm onu da deyir ki, onların rektoru, professor Cəfər Cəfərov bu ali məktəbdə çox böyük şəffaflıq və obyektivlik yaradıb. Nəvəm onu da deyir ki, hətta tələbələr çətin vəziyyətə düşəndə rektorun qəbuluna asanlıqla girir və rektor da ona köməklik edir. Bizdə bir qıza qarşı ədalətsizlik olmuşdu, həmin tələbə rektorla görüşdü və həmin gün də qızın problemi həll olundu. Yəni obyektivlik və ədalət qalib gəldi.**

**Təbii ki, bu cür ali məktəblərin təcrübəsi digər təhsil ocaqlarında da yayılmalıdır. Ali məktəb var ki, tələbə rektorun qəbuluna düşə bilmir. Amma Azərbaycan Dövlət Pedaqoji Universitetində ədalət Zəfər çaldığına görə, burda tələbənin incidilməsindən və rüşvət alınmasından söhbət gedə bilməz. Aydındır ki, belə təhsil ocağında tələbə özünü daha rahat hiss edir, əsəbləşmir, biliyinə, özünə, bir də müəllimin ədalətinə güvənir.**

**Sözümüzün canı odur ki, tələbələrimizi əlavə streslə, sıxıntı ilə və çətinliklə yükləməməliyik və onların kövrək qəlbini, ürəyini sındırmamalıyıq. Ümumiyyətlə, Azərbaycan təhsilində kəsir pullarının verilib-verilməməsi ilə bağlı qısa zaman kəsiyində bir qərar qəbul edilməlidir. Əgər bu qərar kəsirə görə pul verməməklə həll olunarsa, bu tələbələrin və onların valideyninin çiyinlərində ağır bir yükün götürülməsi deməkdir. Və bu yükü kim götürsə, çox ədalətli və obyektiv bir addım atmış olar.**

# *Biz keyfiyyətli qara çörək yeyə biləcəyikmi?*



**İndi hansı mağazaya, dükana gedirsən, orda qara çörəyin olduğunu görürsən. Sevinə-sevinə o çörəyi alırsan, gətirib evdə yeyəndə görürsən ki, çörəkdən çox başqa dad verir. Yəni çörəyin qara olması üçün tərkibinə müxtəlif kimyəvi maddələr, boyalar və rənglər qatılır. Aydındır ki, qara çörəkdən ən çox diabet, ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlar istifadə edirlər. Onlar bu çörəkdən istifadə edirlər ki, xəstəlikləri güclənməsin. Amma qeyri-standart yolla bişirilən və tərkibinə müxtəlif kimyəvi maddələr qatılan bu qara çörəklər həmin xəstə insanların vəziyyətini bir qədər də ağırlaşdırır.**

Bəs onda Qida Təhlükəsizliyi Agentliyi nə üçün yaradılıb? Onlar araşdırmanı aparmalıdılar ki, hansı sahibkar və istehsalat sahəsi standartlara cavab verən qara çörək istehsal edir.

Daha doğrusu, bir növü həmin qurum çörək istehsal edən sahibkarı məsuliyyətə cəlb etməlidir ki, onlar keyftyyətli qara çörək istehsal etsinlər və əhali keyfiyyətsiz çörəkdən narazılıq eləməsin.

**Emil FAİQOĞLU**

# Göyçayda inkişafın yeni mərhələsi

## Yeni istirahət parkı yaradılır



**Tanrı Göyçaya qarşı səxavətli olub, göz oxşayan gözəllikləri, nemətləri bu yerdən əsirgəməyib. Qarlı dağlardan baş alıb gələn, rayon ərazisinin bu başından o başına axıb gedən Göyçay çayı, bərəkətli torpaq, bir də bu yurda ürəkdən bağlanan, onun gözəlliyi üçün fədakarlıqla çalışan insanlar. Həmin insanlar əkib başı az qala buludlara çatan xan çinarları, həmin insanlar salıb Göyçaya şöhrət gətirən dünya şöhrətli nar bağlarını. Onlar ucaldıb bir-birindən gözəl binaları...**

Bu günlərdə rayon sakinləri çoxdan arzuladıqları bir xəbəri sevinclə, fərəhlə qarşıladılar: Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin təşəbbüsü ilə şəhərin dağların ətəyinə söykəndiyi yerdə, Göyçay çayının sahilində yeni park salınır.



Dörd hektar ərazini əhatə edəcək yeni park rayon əhalisinin istirahəti, asudə vaxtının səmərəli keçirməsi üçün nəzərdə tutulub. Yeni parkın yaradıldığı ərazi təkcə relyefi, göz oxşayan, baxımlı olması ilə seçilmir. Bu ərazi Göyçay çayının mənbəyindən, uca, qarlı dağlardan, dərin dərələrdən çay yatağı ilə gələn təmiz havasıyla fərqlənir. İsti yay günlərində burada havanın temperaturu rayonun digər ərazilərinin Aran bölgəsinə xas olan qızmar havasından ən azı 6-7 dərəcə aşağı olur. Ən bürkülü, isti günlərdə də bu əraziyə başı qarlı Baba dağdan Göyçay çayının yatağı ilə sərin meh, külək əsir. Rayon sakinləri buranı öz aralarında təbii kondisioner adlandırır.

Uzun illər idi ki, rayondan kənara, qonşu İsmayıllı, Qəbələ rayonlarına getməyə vaxtı və imkanı olmayan adamlar bu əraziyə gəlir, şərait olmasa da bir neçə saat da olsa təmiz, sərin havada dincəlmək istəyirdilər.

Göyçaylılar bu ərazidə parkın, istirahət mərkəzinin yaradılmasını həmişə arzulamışlar.

İndi onların uzun illər boyu ürəklərində qalan arzuları reallaşır. Ərazidə qızğın iş gedir; münbit torpaq, üzvi gübrə daşınır, daş-kəsək,kol-kos təmizlənir, respublikamızın müxtəlif ərazilərindən gətirilmiş, yerli iqlim şəraitinə uyğunlaşa bilən ağaclar, gül kolları əkilir.

Parkda insanların rahat istirahət etməsi üçün bir sıra xidmət obyektlərinin yaradılması nəzərdə tutulmuşdur. Park cari ilin yay mövsümünə kimi rayon sakinlərinin istifadəsinə veriləcəkdir. Görülən bu işlər Göyçayda turizmin inkişafına yeni təkan verəcəkdir.

### *Göz oxşayan küçələr, bərpa edilən səkilər*

Üç aydan artıqdır ki, Göyçayda küçələr yollar, meydanlar abadlaşdırılır, asfalt vurulur. İllərlə bərbad vəziyyətdə olan ucqar küçələr, gözdən uzaq döngə və dalanlar artıq göz oxşayır. Parklara, yolların kənarına gül kolları, meyvə və bəzək ağacları əkilir, hasarlara, yol kənarındakı evlərin divarlarına üzlük daşlar vurulur, suvaq, rəngləmə və ağartma işləri aparılır. Şəhərin içərisindən keçən arxlar təmizlənir, həmin arxlara vaxtilə salınmış, indi yararsız vəziyyətdə olan su boruları yeniləri ilə əvəzlənir.

### *Yaponiyanın Azərbaycandakı səfiri Göyçay rayonuna səfər edib*

25 yanvar 2023-cü ildə Yaponiyanın Azərbaycan Respublikasındakı səfiri Vada Cüniçi Göyçay rayonuna səfər edib. Səfir əvvəlcə rayon icra hakimiyyəti başçısı Natiq Ağayev ilə görüş keçirib. Görüşdə icra hakimiyyəti başçısı səfir Vada Cüniçyə rayonun tarixi, əhalisi, məşğuliyyəti və sosial-iqtisadi inkişafı haqqında ətraflı məlumat verib və görülən işlərdən danışıb.

Görüşdə həmçinin yapon və Azərbaycan xalqlarının dostluğundan, Azərbaycan hökuməti ilə Yaponiya hökumətinin geniş, hərtərəfli əlaqələrindən və bu əlaqələrin günü-gündən inkişafından danışılıb və Yaponiya hökumətinin" Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində rayonun müxtəlif sahələri üzrə bu günədək 11 layihənin həyata keçirildiyi qeyd olunmuşdur.

Səfər çərçivəsində səfir Vada Cuniçi və icra hakimiyyətinin başçısı rayonda fəaliyyət göstərən "Göyçay-Süd" Açıq Səhmdar Cəmiyyətində olublar. Müəssisənin rəhbəri Mustafa Bədəlov qonaqlara istehsal prosesi barədə məlumat verib.

**Səfir göstərilən diqqətə görə rayon rəhbərinə minnətdarlıq etmiş və qarşılıqlı əməkdaşlığın, xalqlarımız arasındakı dostluğun daha da möhkəmlənməsinə xidmət edəcəyini bildirmişdir.**

**Ə.Məzahir, M.Adil**

# Xanım sürücülər avtomobilləri təhlükəli idarə edir?

**Son 10 ildə ölkəmizdə xanımların nəqliyyat vasitələrini idarə etməyə həvəsi daha da çoxalıb. Başqa sözlə demiş olsaq, sükan arxasında əyləşən xanımlar dəfələrlə artıb. Burda pis heç nə yoxdur. Və hər şey alqışlanmalıdır. Çünki Azərbaycan xanımı da avtomobili idarə edir, kimdənsə asılı olmur və mənzil başına rahat çatır. Təbii ki, ictimai nəqliyyatda, özü də indiki sıxlıq dövründə qadının harasa getməsi bir qədər çətindir. Ancaq şəxsi avtomobillə bayaq dediyimiz kimi, istənilən yerə getmək çox rahat və asandır.**

Onu da qeyd edək ki, avtomobilləri normal idarə edən çoxlu sayda xanım sürücülər var. Ümumiyyətlə, sürücü məsələsinə gələndə orda kişi, xanım sürücüsü anlamı yoxdur. Sadəcə olaraq hərəkət iştirakçısı var və bir də sürücü var. Bu sürücü kişi də ola bilər, qadın da! Amma əksər qadınlar kişilərə nisbətən nəqliyyat vasitələrini bir o qədər də yüksək sürətlə idarə etmirlər, yol hərəkəti qaydasını tez-tez pozmurlar, başqa sözlə demiş olsaq, "aftoşluq" eləmirlər və avtomobili normal sürürlər. Bunlar hamısı çox yaxşıdır!

Amma son vaxtlar kişi sürücülərinin və eləcə də digər hərəkət iştirakçılarının qadın sürücülərə qarşı münasibəti birmənalı deyil. Məsələn, tanıdığım təcrübəli bir kişi sürücüsü deyir ki, hər hansı bir yerdə qarşıma qadın sürücüsü çıxan kimi ona yol verirəm. Görürəm ki, bəziləri avtomobili normal idarə edə bilmir, gah sola, gah da sağa keçir, qəza vəziyyəti yaradır. Üstəlik də, bu cür təcrübəsiz xanım sürücü lazımi yerdə sürət həddinə əməl etmədiyi üçün "propka" yaradır. Aydındır ki, bu fikir bir o qədər də etalon deyil. Ancaq görünən odur ki, son vaxtlar yol hərəkəti qaydalırının pozulmasında qadın sürücülərin də payı var və onlar çoxalıb, hətta "aftoşluq" eləyən qadın sürücülər də var.

Bir neçə gün bundan əvvəl mən Yeni Günəşli yaşayış sahəsinin "D" massivinin 282 nömrəli məktəbin yanından yolu keçərkən, gördüm ki, yüksək sürətlə bir "Cip" gəlir. Təhlükəni hiss edib yoldan sürətlə geri qaçdım. Həmin "Cip" sərt döngədən dönə bilməyib, yüksək sürətlə yolun qırağında dayanmış iki avtomobilə çırpıldı. Nəticədə həm "Cip", həm də o iki avtomobil möhkəm əzildi. Bir də gördüm ki, həmin "Cip"dən həyəcanlı halda bir sürücü qadın yerə düşdü. Elə bu vaxt yol polisləri hadisə yerinə çatdı. Araşdırma zamanı məlum oldu ki, "Cip"in sürücüsü hadisə baş verməmişdən öncə kobud qayda pozuntusuna yol verib, yüksək sürətlə hərəkət edib və nəticədə iki avtomobilin toqquşması ilə ağır yol-nəqliyyat hadisəsi baş verib. Göründüyü kimi, əgər həmin qadın sürücüsü sürət həddinə əməl etsəydi, bu ağır qəzanı törətməzdi, nə digər avtomobilə, nə də özünün maşınına yüksək məbləğdə maddi ziyan vurmazdı. Hər halda, görünən odur ki, xanım sürücü yol hərəkət qaydasını pozub və nəticədə belə bir xoşagəlməz vəziyyət yaranıb.







Xanım sürücülərlə bağlı Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru, polis kapitanı Toğrul Nəsirliyə müraciət etdik. Cənab kapitan dedi ki, istər kişi, istərsə də qadın sürücü yol hərəkəti iştirakçısıdı və onların hər biri yol hərəkəti qaydalarına əməl etməli, sürət həddini düzgün seçməli, hava şəraitinə uyğun yol tutmalı, ara məsafəsi saxlamalı və nəqliyyat vasitəsinin texniki sazlığına önəm verməlidir. Əlbəttə, digər sürücülər kimi xanım sürücülər də yol hərəkəti qaydalarını pozurlar. Buna görə də "Yol hərəkəti haqqında" Qanunda və eləcə də "İnzibati Xətalar Məcəlləsində" sürücünün məsuliyyəti nəzərdə tutulub və qanunu pozan sürücü də buna uyğun inzibati məsuliyyətə cəlb edilir və onlar barəsində protokol tərtib edilir. Onu da qeyd edim ki, ölkəmizə kifayət qədər intizamlı və yol hərəkəti qaydalarına əməl edən xanım sürücülər də var. Amma bir daha cinsindən asılı olmayaraq, bütün sürücülərə müraciət edərək deyirik ki, mürəkkəb hava şəraitində, qarlı, şaxtalı və buzlu yollarda sürücülər daha diqqətli olmalı, ara məsafəsi saxlamalı, metroloji şəraitə uyğun sürət həddi seçməlidilər. Bir sözlə, hər bir sürücü məsuliyyətli olmalı və qanunlara ciddi əməl etməlidir. Əgər bu dediklərimizə əməl olunursa, istər kişi, istərsə də qadın sürücü özünü təhlükədən xilas eləmiş olur.

**Bir sözlə, polis kapitanı Toğrul Nəsirlinin sözünə qüvvət, həm kişi, həm qadın sürücülər sükan arxasında diqqətli olmalı, özü və yanındakı sərnişinlərin taleyini düşünməli və digər hərəkət iştirakçılarının təhlükəsizliyini təmin etməlidir. Yəni sürücü görürsə, piyada təyin olunmuş yerdən keçirsə, mütləq ona yol verməlidir. Bu, həm sürücünün, həm də piyadanın təhlükəsizliyi deməkdir!**

**Faiq QİSMƏTOĞLU**

# *Soğan niyə bahalaşır?*

**Onsuz da bizdə ərzaq məhsullarının, eləcə də tərəvəzlərin qiyməti həmişə bahalaşıb. Çox nadir halda - yəni mövsüm vaxtı həmin məhsulların qiyməti normal olur. Amma bir həftədir ki, bütün bazar və dükanlarda soğanın qiyməti 1 manat 30 və 1 manat 50 qəpik civarına qalxıb. Təbii ki, bu da alıcıları çox narahat edir. Ən azından ona görə ki, kartof və soğan hər gün istifadə edilən məhsullardandır. O da bahalaşanda istər-istəməz insanların cibinə mənfi təsir göstərir.**



Hansı ki, ayrı-ayrı fermerlər deyirdilər ki, soğanlarımız yığılıb qalıb anbarda, satılmır. Görünür, həmişə olduğu kimi, indi yenə işbazlar anbarlarda yığılıb qalan o soğanları ucuz qiymətə alıb topdansatış mərkəzlərinə gətirib və indi də baha qiymətə əhaliyə satır. Ümumiyyətlə, bu cür süni bahalaşmaların qarşısı İqtisadiyyat Nazirliyinin müvafiq idarəsi tərəfindən vaxtında alınmalıdır. Göründüyü kimi, bahalaşmanın qarşısı vaxtında alınmır, soğanın da qiyməti bahalaşmaqda davam edir.

**Emil FAİQOĞLU**

*Əntiqə Rəşid*

# "İgidlər oylağı"ndan "həddini aşanlara" qarşı bir səs çıxmadı, axıı...



**İran dövlət olan gündən Şimali Azərbaycana qarşı qərəzdən, təhdid və hədələrdən əl çəkmədi. Yadınızdadırsa,İranın son günlər ətrafındakı qonşuları hədələməsi , təhdid etməsi "qırmızı xətti"ə yaxınlaşırdı. "Qırmızı xətti" keçməsi isə diplomatımız Orxan Əsgərovun İran xüsusi xidmət orqanları tərəfindən qətlə yetirilməsi oldu.**

**Azərbaycan şəhid oğluna ağlayarkən, İrandan ard-arda gələn xəbərlər yaralarımıza su səpdi. İran Müdafiə Nazirliyi İsfahandakı sursat fabrikinə dron hücumunu təsdiqlədi. Bİdirildi ki, yanvarın 28-də saat 23:30 radələrində Müdafiə Nazirliyinin mərkəzlərindən birinə dronlardan istifadə etməklə hucum həyata keçirilib.**

**SEPAH-ın Suriyada yerləşən qərargahına zərbələr endirildi. Həmçinin bu qərargaha təchizat daşıyan 25 yük maşınından ibarət karvanının da vurulduğunu bildirildi.**

**Hətta sosial şəbəkələrdə paylaşılan videolarda İranın Qərbi Azərbaycan vilayətinin Mahabad şəhərində dəhşətli partlayışların baş verdiyi yayıldı.Ehtimal edilir ki, bu, növbəti dron hücumunun nəticəsidir.**

**Yeri gəlmişkən, MOSSAD-ın gözəgörünməz dronlarına hədəf olan İsfahan şəhəri İranın raket sənayesinin mərkəzidir və orada israili vura bilən orta mənzilli "Şabah" raketləri yerləşir. İsfahan şəhəri Tehrandan təxminən 330 kilometr cənubda yerləşir.**

**Yeri gəlmişkən yadınızdadırsa İranın "Səhər Azəri" kanalı İran ordusu ilə bağlı klip yayımlamışdı.**

**Klipdə həm Azərbaycan, həm də İsrail təhdid edilirdi:"İsrail, gözlərini aç və bunu bil! Bura İrandır, igidlər oylağıdır. Müharibədə fırtına kimidir. Həddini aşma, öz əlinlə öz qəbrini qazma. İran elan edir, bunu bilsin Azərbaycan!", - mahnının sözlərində qeyd olunmuşdu.**

**O "igidlər oylağı"ndan nə əcəb " bir "hıqq" eliyib, İsrailə gözün üstə qaşın var deyən olmadı.**

**Deyəsən elə həddini aşan da İran oldu, qəbrini qazanda...**

# "Helikopter" müəmması - Avakov 14 ukraynalını nazirə görə öldürüb?

**Yadınızdadırsa, ötən ilin 25 dekabrında- Misir Qasımlıya həbs kəsiləndə Misirə "cinayətkar" adı qoymuş soydaşlarıma etiraz olaraq Adalet.az saytında "Misir Qasımlını "günahkar " çıxardanlar, "Arsen Avakov mafiyası"nı da qınayın..." məqaləmdə gerçəkləri anlatmağa çalışmışdım. Məqalədə Ukraynada böyük bir erməni mafiyasının və terror qrupunun mövcudluğunu sübut etməyə çalışmışdım. Bundan sonra Ukraynadakı ard-arda baş verən faciəvi hadisələr fikrimi daha da möhkəmləndirdi. Beləki, 18 yanvarda Kiyev vilayətinin Brovarı şəhərində helikopterin qəzaya uğraması nəticəsində uşaq bağçasının yaxınlığında partlayış, daha sonra isə güclü yanğın baş verməsi, həlak olanlar arasında Ukraynanın daxili işlər naziri Denis Monastırski, daxili işlər nazirinin birinci müavini Yevgeni Yenin və Daxili İşlər Nazirliyinin dövlət katibi Yuri Lubkoviçin də olması hadisənin bir qəza yox, bir terror olduğunu ortaya qoyurdu. Araşdırmalarım əsasında 25 yanvarda "Avakovun cinayətləri: Helikopterdə ölüm, silah qaçaqmalçılığı..." adlı məqaləm dərc olundu.**

Ermənilərin xarakterinə bələd olduğum üçün israrla bu faciəni erməni terrorçuları , daha dəqiq Ukraynada dərin kök salmış Avakov mafiyasının etdiyini söyləyirdim. Məqalədə bu cümləm də yer almışdı: "Arsen Avakov Ukraynadakı qarışıqlıqdan istifadə edərək yenidən yüksək vəzifəyə gəlmək ümidindədir. Xüsusən, Daxili İşlər Naziri olmağı qarşısına məqsəd qoyub. Kiyev vilayətinin Brovarı şəhərində helikopterin uşaq bağçasının yanında qəzaya düşməsi sizə bir "qurulmuş işdən" xəbər verir mi? Helikopterdə 16 nəfərdən başqa daxili işlər naziri Denis Monastırski, onun müavini Yevgeni Yenin və Ukrayna Daxili İşlər Nazirliyinin dövlət katibi Yuri Lubkoviç həlak olması doğrudanmı sizə heç nə "demir"?



Hər gün düşünürdüm ki, əgər vəzifəli, vətənini sevən ukraynalılar erməni xislətindən xəbərdardılarsa, mütləq Avakovu ifşa edəcəklər.

İndi baxıram ki, sosial şəbəkələrdə Ukrayna hüquq-mühafizə orqanı DİN-in keçmiş rəhbəri Arsen Avakov paylaşım edib. Paylaşımında Brovarıda qəzaya uğrayan helikopterlə bağlı onun evində axtarış aparıb:"Helikopter qəzası ilə bağlı axtarışı yekunlaşdırıblar. Altı il əvvəl "Airbus" müqavilələrinə baxdılar. Təbii ki, heç nə yox idi. Müqavilələr hökumət və parlament tərəfindən təsdiq edilib. Mənasız iş olsa da, formal xarakter daşıyırdı".

Qeyd edək ki, Ermənistanın Ukraynadakı səfiri Tiqran Seyranyan 2019-cu ildə səfirliyin sosial şəbəkələrdəki rəsmi səhifəsində Qarabağa qanunsuz səfər etdi. Erməni səfirin təxribatı Ukrayna XİN ölkə vətəndaşlarını Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziyaya səfər etməməklə bağlı çağırışından sonra həyata keçirildi. Seyranyanın cəzasız qalması Avakovun "krişalığı" sayəsində baş tutmadımı?



Bəlkə elə düşünürsünüz ki, Ukrayna parlamentində oturan erməniəsilli deputatlar Ukrayna xalqını çox sevir?

Ukryanadakı "Erməni Birliyi" təşkilatının sədri , deputat Vilen Şatvoryan parlamentdə "Erməni soyqırımı" qurbanlarının xatirəsinə ehtiram göstərilməsinə dair Ukrayna hökümətinə qanun qəbul edilməsini təklif edərkən, sizcə, onda erməni yoxsa ukraynalı duyğuları qabarmışdı? Daha sonra məhz müxalifət partiyasının üzvü Qeo Leros (əsil adı Gevorq Baqratoviç Kurexyan) Ukrayna Azərbaycanı dəstəklədiyini bildirəndən sonra aqresivləşdi və iclasda iştirak edən ölkə başçısı Vladimir Zelenskiyə orta barmağını göstərərək təhqir etdi. Ukraynada erməni birliyinə, rifahına, xalqına, dövlətinə xidmət edən o qədər erməniəsilli, yüksək çinli məmur, mafioz, oliqarx terrorçu var ki, günlərim o faktları yazıb qurtarmağa bəs eləməz!

**P.S. Ermənilərin kompakt yaşadığı ərazilərdə terrorların, faciələrin, dağıntı və partlayışların olmaını təbii qəbul edirəm. Çünki bu toplumun anadangəlmə qüsurlu tərəfi bu: İnsan qanından zövq almaq. Odur ki, Ukraynadakı sadaladığım cinayətləri ölkənin vicdanlı vətəndaşları bir də, dərindən araşdırsınlar. Zatən Avakovun evinə Ukrayna Təhlükəsizlik Xidməti boş yerə getməyib.**

**Əntiqə Rəşid**

**(əvvəli ötən şənbə saylarımızda)**

***

- Ə, nemes, burda bizim pulnan nə qədər pul var?

- Vay dədəm, vay. Ə, nə bilim, bir meşok. Özünə bir cip ala bilərsən, özü də Rəmişinkindən. O Surenin dranquletini də at getsin.

- Hə, elə maa cip yaraşır dədeyin goru haqqı. Surenin maşınını atmaram, amanatdı. Geri qayıdanda qaytarıf verəjəm özünə.

- Ə, səfeh-səfeh danışma, indiyə Suren qalar?

- Bijin biridi. Dəyirmanın gözünə ölü salsan, altınnan pırttıyıf diri çıxar.

Market Vəliş bic-bic gülümsəyib dedi:

- Şaka, sən dədeyin Mazdokdakı goru, düzünü de, Surenin oğlunun bir suyu sənə oxşayır, arvadıyla aranı qatmamısan?

Şakir hirsləndi:

- Ə, nemes, oğraş-oğraş danışma. İstəkanı çırparam təpənə. Surennən bir ton çörək yemişih. Kişi evində çörəh yediyi kişinin arvadına-qızına baxmaz.

Market Vəliş özünü yığışdırdı:

- Ə, sən də özündən çıxma. Bir qələtdi elədim də. Erməni arvadları şirin olur, dedim, bəlkə tamahını saxlaya bilməmisən.

- Dedim də, oğraş-oğraş danışma. Özü də oğraş özünsən. Surenlə mən qardaş olmuşux, - dedi və sonra güldü; - amma onu düz deyirsən. Bir məsəl var ey

- Ay qız, ordan dünən Şakiri gətirən o polisləri bura çağır, özün də get otur dəftərxanada. Day mənə katibə lazım deyil, get kağız-kuğuzla işlə.

Katibə pərt olsa da bir söz deyə bilmədi. Otaqdan çıxıb polisləri çağırdı, özü də şey-şüyünü yığışdırıb getdi dəftərxanaya.

Rəis içəri girən polislərə dedi:

- Hansınız yaxşı çay dəmləyə bilirsinizsə, otursun qəbul otağında. Telefonla danışanda da mədəni olun.

Polislərdən biri elə bil bu sözə bənd imiş. Tez qayıdıb oturdu katibənin yerində.

Rəis otaqda qalan serjanta dedi:

- O yataqxanalar sizin ərazinizdi, bilmirsən orda nə qədər ailə yaşayır?

- Rəis, əlliyə yaxın.

- Get o şadlıq sarayının müdirinin yanına, denən ki, əlli pay düzəltsin. Özü də adam kimi pay düzəltsin, ət, çolpa, yağ, makaron, düyü, vermişel, çay, qənd, pesok, konfetdən-peçenyedən də qoysun. Yəni öz adına yox, mənim adıma layiq. Aparın verin Şakirə paylasın camaata. Özünə də deyin ki, axşam gələcəm.

Serjant:

- Rəis, bəlkə özünüz deyəsiniz, birdən məni eşitməz.

- Qələt eləyər. Sən mənim adımdan deyirsən.

Serjant otaqdan çıxdı, üz tutdu şadlıq sarayına. Müdiri tapdı, rəisin ismarıcını bir-bir çatdırdı müdirə. O dedikcə müdir də yazırdı:

Müdir:

- Baş üstə, rəis, ona nə sözdü? Lap istəyirsən ayda iki dəfə göndərim.

İş Adamı:

- Rəis, ayda bir dəfə də mən göndərərəm.

Rəis:

- Maşallah, yaman səxavətli olmusunuz.

***

Rəis:

- Hə də, sonra da qəzetlər yazsın ki, rəis Aftandili restorana gətirdib, ya da Rəmişi, kef eləyir. Böyrünə də bir-iki qadın müğənni qoşsunlar. Özü də mən qarmona qulaq asmağa getmirəm. Gedək, görək camaatın nə problemi var. Siz idə yaxşı bir kişi ilə tanış edim.

Müdir:

- Problemlərini günorta göndərdim də.

Rəis:

- İndən belə onu hər ay göndərərsən. Tapşıraram, sənə də heç kim dəyib-dolaşmaz.

Müdir:

- Baş üstə, rəis, o nə sözdü? Lap istəyirsən ayda iki dəfə göndərim.

İş Adamı:

- Rəis, ayda bir dəfə də mən göndərərəm.

Rəis:

- Maşallah, yaman səxavətli olmusunuz.

- Ə, qorxmayın gəlin bura, rəyis çağırır.

Yataqxanada nə qədər arvad-uşaq vardı tökülüşdü həyətə. Rəis hamıyla hal-əhval tutdu, dedi ki, mən də sizin kimi qaçqınam, Göyçə qaçqını. Elə bil camaatın üzünə gün doğdu. Dəli dəlini görəndə dəyənəyin dalına çıxdığı kimi, qaçqın da qaçqını görəndə elə bil dədəsini görür.

Rəis:

- İndi gəlmişəm görüm nə problemləriniz var?

Hamı hay-küylə problemlərini danışmağa başlayanda Şakir çığırdı:

- Ay camahat, bir-bir dana. Qoyun mən deyim. Rəyis, öyün qaşqınkom gəlmişdi, dedi ki, burdan bir az yuxarıda Qobuda qaşqınlara çoxmərtəvəli evlər tikib verəjəhlər. Ölmə, eşşəyim, ölmə, yaz gələr, yonja bitər. O binalar navaxt hazır olajax, heş qaşqınkom da bilmir. Bu yataqxanaların damı dağılıf gedif. Yağan yağış evlərin içinə yağır. Ləyən də tapmırıx yağışın altına qoymağa.

Rəis İş Adamına baxdı. İş Adamı dərhal cibindən bir bloknot çıxarıb Şakirin dediklərini qeyd etməyə başladı.

Şakir:

- Sonra rəyis, suyumuz yoxdu. Camahat aşaadakı məhlədən vedrəylə, səhənglə su daşıyır. Düzdü, kənddə də suyumuz yoxuydu, camahat eşşəylə daşıyırdı. Bura şəhər yeridi dana, eşşəy yoxdu, eşşəyin işini arvad-uşax görür. İşığımızı da gündə beş-altı dəfə kəsillər, tilvizerə də baxa bilmirik, görəh dünyada nə var, nə yox.

***Aqil ABBAS***

# ÇAY QIRAĞINDA BİTİB, SUSUZ QALAN AĞACLARIN SAĞLIĞINA...

## (Abdal-Gülablı Şakirin xatirəsinə)

**(povestdən bir parça)**

eşitmisən? Deyir, alasan gürcü qızın, şirin canına qəsd eliyə. Alasan erməni qızın, səni gejələr məst eliyə. Alasan müsəlman qızın  Kolxozdan yorğun-arğın gələsən, Hüseyn kişi də saa itin sözün deyə, gəlif oturasan divanda, tilvizeri açasan deyəsən, arvad, ordan bir istəkan çay gətir. O da qayıdakı, balaca eşşəksən, dur, get özün tök gətir də.

- Surenə qardaş deyirsən, amma ermənidi. Görmədin, başımıza nə oyun açdılar?

- Suren o ermənilərdən döyül.

Şakir durdu kafedən çıxdı. Market Vəliş dalınca dedi:

- Şaka, pulun da var, sən dədeyin Mazdokdakı goru,kafeyə bir rəngli televizor al bağışla. Yoxsa bu televizor gözlərimizi xarab elədi.

Şakir:

- Baxarıq, - dedi və getdi olmayan evinə.

Səhər yuxudan durdu. Türklərin yardım gətirdiyi pendirdən bir qıça yedi, bir stəkan da şirin çayını içdi, qarmonunu da götürüb düşdü həyətə. Arxa qapını açıb qarmonu qoydu oturacağa. Sonra həyətdəki uşaqların birinə dedi:

- Ay bala, ordan o Sağsağan arvada deynən nəvəsini götürsün gəlsin.

- Şakir əmi, Sağsağan arvad kimdi?

- Ə, Turaj arvad dana.

Uşaq girdi yataqxanaya, bir azdan Turac arvad nəvəsiylə çıxdı həyətə. Nəvəsini elə qəşəng geydirmişdi, saçını da daramışdı, elə bil 1 May nümayişinə göndərirdi uşağı. Heç elə bil dünənki tör-töküntülü, kirli-paslı uşaq deyildi.

- Ay Sağsağan xala, bunu elə həmişə belə geyindir dana.

- Oldu geyindirmədim?

Şakir qabaq qapını açıb uşağı oturtdu maşına, Turac arvad qayıtdı ki, Şakir, qoy mən də gedim.

- Ay arvad, sənə də qarmon çalmağı öyrədəjəm?

Və maşını sürdü musiqi məktəbinə. Şakirin gəldiyini və maşından qarmonla düşdüyünü görən məktəbin direktoru da, müəllimləri də sevincək töküldülər bayıra.

Direktor Şakiri basdı bağrına:

- Şakir, məktəbimizi xilas elədin.

- Niyə, erməni topunun qavağına keşdim?

- Ondan da pis idi, məktəbimizi bağlamaq istəyirdilər. Deyirdilər müəllimlər şagirdlərdən çoxdu. İndi ondan çox uşaq qarmon eşqiylə gözləyir. Day mədəniyyət şöbəsi bir söz tapa bilməz.

- Niyə, tara, pyanoya, kamançaya gələn yoxdu?

- Şakir, day o zaman deyil ey, hərənin evində bir piano ola. Cəlal müəllimin musiqi məktəbinə girmək üçün dədəmiz baş yüz manat rüşvət verə. O baban öldü. İndi özümüz qapı-qapı düşüb yalvarırıq ki, uşaqlarınızı verin oxudaq. Yenə tara bir az gəlirlər. Piano ilə kamançada uşaq çox azdı.

Şakir girdi məktəbə. Direktor onu apardı dərs deyəcəyi sinifə. Çox səliqəli, səhmanlı bir sinif idi. Küncdə təzə bir piano qoymuşdular, divardan Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Qurban Pirimovun, Bethovenin, Baxın portretləri asılmışdı. İnanmayın, şair sözü əlbəttə, yalandı. Yöndəmsiz, sınıq-salxaq bir piano vardı, beş-altı sınıq-salxaq stul, divarda da bircə Üzeyir bəyin portreti idi, o da əyilmişdi. Pəncərənin şüşəsinin də biri qırılmışdı, şüşənin yerinə qəzet vurmuşdular. Qəzetin adını yazmıram, kiminsə xətrinə dəyə bilər, ayıbdı. İşıq da yanmırdı.

Şakir döndü direktora:

- Məllim, burda heş Murad Rzayev də Qarabağ bülbülləri yetişdirə bilməz. Olsa-olsa burdan Qarabağ cüllütdəri çıxar.

- Neyləyək, buna da şükür. Elə deyirlər təmir eləyəcəyik, ortada da fındıq.

- Çağırın, qarmon çalmax isdiyənlər gəlsin.

Altı-yeddi uşaq əllərində qarmon sevinclə girdilər sinifə. Bircə Turac arvadın nəvəsi qarmonsuz idi. Hamısı oturdu və mehribancasına Şakirə baxmağa başladılar.

Şakir üzünü tutdu direktora:

- Məllim, mən nəzəriyyə-zad, solfeciya bilmirəm ey. Birdən sabah yoxlama gəlsə nə cavab verəjəm?

Direktor:

- Yoxlama gəlsə, narahat olma, beş-on manatla mən yola salacam. Kim səndən solfeciya istəyir ki? Bunlara elə muğamdan, mahnıdan öyrətsən bəsləridi, - dedi və sinifdən çıxanda geri döndü; - Şakir, sən canın, məktəbin işıqlarını da düzəldərsən.

Şakir güldü:

- Polu da yuyummu?

Şakir uşaqların birindən qarmonu aldı, verdi Turac arvadın nəvəsinə:

- Ala, ə, bir barmaxla görüm.

Turac arvadın nəvəsi həvəslə qarmonu aldı və başladı barmaqlamağa. Uşağın "Segah" üstə qarmonu barmaqlamağı Şakirin xoşuna gəldi:

- Hə, deyəsən, sənnən nəsə olajax. Amma sol əlini yadınnan çıxartma.

***

Rəis ona nazlana-nazlana çay gətirən katibəyə baxdı, yadına Məşədi Abbasın sözləri düşdü:

- Ə, neçə kilo ət, neçə çolpa, neçə kilo düyü?

- Nə bilim, rəisin adına layiq də.

- Yadından heç nə çıxmayıb?

Serjant bic-bic güodü:

- Bir də dedi ki, bir yüzlük də mənə verəsən.

Müdir:

- Yaxşı, get, bir saatdan sonra gələrsən hazır olacaq. -çıxarıb bir yüzlük də verdi serjanta.

Serjant sevincək otaqdan çıxdı. Müdir telefonu götürüb rəisə zəng elədi, yaltaqcasına dedi:

- Salam, cənab general.

- Ə, mən general deyiləm, polkovnikəm.

- Eşitmişəm səni yuxarı aparırlar, inşallah, olarsan.

- Gör məni dilə-ağıza sala bilirsənmi?!

- Sifarişini aldım. Bir saata hazır olacaq, özü də artıqlamasıyla. Axşam bəlkə gələsən mənim restoranıma, bir qismət çörək kəsək. Ağcabədidən bir əmlik qara quzu göndəriblər. O İş Adamı var ey, o da çoxdandı sənlə görüşmək istəyir. İcazə versən, onu da çağıraram.

- Gələrəm, onu da çağırarsan, elə mənə lazımdı.

Günorta "Qazel" girdi yataqxanaların həyətinə. Şakir həmişəki kimi kafenin qabağında oturub çay içə-içə domino oynayanlara baxırdı.

Polis işçiləri maşından düşdülər.

- Ə, genə noluf? Məni aparmağa gəlmisiz?

Serjant:

- Yox, səni heç Əzrayıl apara bilməz. Rəis camaata pay göndərib, dedi ki, sənə təhvil verək, sən özün payla camaata. Axşam özü də gələcək.

Sonra maşında nə vardı boşaltdılar kafeyə. Camaat da elə bildi yenə türklər yardım gətirib, tökülüşdülər həyətə.

Şakir:

- Basabas salmayın dana, hamınıza pay çatajax. Qayıdın xarabanıza, bir-bir hamının xarabasına göndərəjəm. Narahat olmuyun, mən qaşqınkom döyüləm, yarısını özümə götürüm.

Kafenin önündə domino oynayanlardan başqa hamı qayıtdı evinə, bilirdilər ki, Şakir boşuna söz deməz.

Şakir polisləri yola saldı, sonra üzünü tutdu Market Vəlişə:

- Ə, nemes, saa demədim ki, rəyis qızıl oğlandı, kişi oğlu kişidi? Gördün dana, hələ axşam özü gəlsin gör mənim nətər saldatım oluf. Sizin yanınızda vesim yoxdu ey!

***

Restoranın kabinetində üçü oturmuşdu - rəis, müdir, bir də İş Adamı. Süfrədə də bircə quş südü əskik idi. O da ona görə ki, Allah heyvanlara süd paylayanda quşlar həmin məclisə gecikmişdilər, bu da Allahın xoşuna gəlməmişdi.

Müdir:

- Rəis, deyirəm Ağcabədinin qoyun-quzusundan başqa qalan hamısı yalandı.

Rəis:

- Sən Göyçə quzusu yemisən?

- Yox.

- Onda az danış. Snçala podumay, potom qovari.

İş Adamı:

- O zonada yovşan da boldu, günəş də; - sonra da bir qabırğanı götürüb başladı qabırğanın məziyyətlərini saymağa: - bax, görürsüz, qabırğanın üstündə bir lay yağ var, onun üstündə qara tikə, qara tikənin üstündə də yenə yağ. Kabab bişirəndə qabırğanın üstündəki yağ layı əriyib qarışır qara tikəyə, həm onu yanmağa qoymur, həm də ətin dadını gözəlləşdirir.

Rəis:

- Sən lap professor kimi danışırsan ki.

İş Adamı:

- Rəis, mən həmişə iş adamı olmamışam ha. Ağcabədidə o qədər qoyun otarmışam, çobanlıq eləmişəm.

Rəis:

- Sovet hökuməti dağılmasaydı elə Ağcabədidə qalıb çoban olacaqdın, bəxtin gətirib. Yaxşı, yeyib qurtardınızsa durun gedək, o Qobu yolundakı qaçqın yataqxanalarına, işim var. Həm də sizi gözəl bir kişiylə tanış edəcəm.

Deyirlər əla qarmon çalır, bir az da qarmon çalar, qulaq asarıq.

Müdir:

- Rəis, qarmona qulaq asmaq istəyirsənsə, adam göndərim getsin Aftandili tapıb gətirsin də. Səhərəcən nə qədər istəyirsən qulaq as, dostumuzdu. Ya da istəyirsən, Rəmiş burda, yaxındadı, onu çağırım.

Rəis:

- Hə də, sonra da qəzetlər yazsın ki, rəis Aftandili restorana gətirdib, ya da Rəmişi, kef eləyir. Böyrünə də bir-iki qadın müğənni qoşsunlar. Özü də mən qarmona qulaq asmağa getmirəm. Gedək, görək camaatın nə problemi var.

Müdir:

- Problemlərini günorta göndərdim də.

Rəis:

- İndən belə onu hər ay göndərərsən. Tapşıraram, sənə də heç kim dəyib-dolaşmaz.

***

Şakir girdi kafeyə, televizoru açdı ki, görsün olmayan dünyada nə var-nə yox. Politoloq Mübariz Əhmədoğlu yenə jurnalistləri başına yığıb ATƏT-i yıxıb-sürüyürdü. Televizor yenə sarsaqladı, kanalları qarışdırdı. Şakir yenə televizorun təpəsinə bir-iki qapaz vurandan sonra televizor qayıtdı əvvəlki kanala.

Market Vəliş:

- Şaka, televizoru şapalaqlayırsan, yoxsa danışanı?

- Elə ikisini də. Diyəsən bunun sekada adamı var. Ha vaxt tilvizeri açırsan, görürsən jurnalistdəri yığıf başına.

- Şaka, indi seka yoxdu ey, seka qaldı Sovet hökumətində. İndi Prezident Aparatı var.

- Olsun Prezident Aparatı, nə fərqi var ki?! Sən öl, mən buna otarmağa on eşşəh vermərəm, hardasa ikisini itirəjəh. Bu danışanda bilirsən yadıma nə düşür? Hadisələr təzə başlayanda Fantamas xəstəxanada yatırdı. Ağdamın say-seşmə oğlannarını çağırır yanınakı mən bu Qarabağ probleminin həllini tapmışam. Allahverdi, Eldar, Fred Asif, Xallı Şahin yığışıf gedillər xəstəxanaya Fantamasın yanınakı bizi çağırmısan, nə məsələdi? Fantamas da qayıdır ki, Qarabağ məsələsi çox sadə bir işdi. Siz belə eliyin, Qorbaçovu, Amerikanın prezidentini, bir də Fransanın prezidentini çağırın gəlsinnər Ağdama, oturax, mən bunun yollarını onnara deyim. Allahverdi də başını bulayıf deyir ki, baş üstə, Fantamas, Təhmasibi göndərərik, üçünü də çağırar Ağdama. Elə mənim restoranımda da onnara bir qonaxlıx verərik. İndi bu da toşnu Fantamas kimi deyir ki, ATƏTdi-nədi onun həmsədrləri oturuf bu məsələni həll edəjəh.

Market Vəliş:

- Ə, nə işinə qalıb? Ona deyirlər belə danış, o da danışır də. Sən gəl otur dominonu oyna.

Şakir:

- Ə, siz də o damnonu yığışdırın, siz telefon oynamırsız ey, sizinki pereqavornudu. İndi rəyis bura gələjəh. Gəlif görsə ki, qatmalı kişilər oturuf damno oynuyur, deyəjəh ki, sizin tay-tuşdarınız Qarabağda vuruşur, siz də burda bağıra-bağıra damno oynuyursuz. Ondansa durun kafeni sahmana salın.

Dominonu yığışdırdılar. Bu vaxt yataqxanaların həyətinə bir polis maşını girdi və Şakiri dünən tutub polisə aparanlar maşından düşdülər, həyətdəki camaat da polisləri görən kimi hamısı qaçıb girdi olmayan evlərinə. Şakiri gülmək tutdu:

- Belə cırarsız ey, aradan.

Şakir polislərlə görüşdü ki, xeyirdimi?

Polislər:

- Şərə lənət, bir azdan rəis gələcək, gəldik görək nə var- nə yox?

- Rəyisə deyin narahat olmasın, təhlükəsizliyi tam təmin etmişəm. Hər yataqxananın üstünə bir snayper qoymuşam, hər qapıya da iki nəfər ki, çölə-içəri heş kəsi buraxmasın.

Polislər:

- Zarafatından qalmırsan da.

Bir az keçmiş xəbər gəldi ki, rəis gəlir, sonra məlum oldu ki, gələn rəis deyil, yenə polis maşınıdı. Gəldi durdu yolun kənarında, içindən də dörd nəfər polis düşdü. Və gəzişməyə başladılar.

Nəhayət, qabaqda rəisin, arxada da İş Adamının bahalı maşınları girdilər yataqxananın həyətinə. Camaat da yığışmışdı yataqxananın eyvanlarına, ordan baxırdılar, həyətə düşməyə cürət etmirdilər.

Rəis maşından düşdü. Şakirlə çox mehriban görüşdü, sonra da kafenin önündəki kişilərlə bir-bir əl tutdu. İş Adamıyla müdir də maşından düşdülər, başları ilə salamlaşdılar.

Rəis Şakiri onlarla da tanış elədi:

- Dediyim Şakir budu.

İş Adamı Şakiri bir süzdü, yöndəmsiz sir-sifətinə baxıb rəisə dedi:

- Ə, bu ki çobandı.

Şakir:

- Rəyis, axır ki qoyunnarımdan biri məni tanıdı.

İş Adamı özündən çıxmaq istədi, amma rəisin sərt baxışlarını görüb dayandı.

Rəis ona dedi:

- Çoban sənsən ey, elə çoban olaraq da qalmısan.

Market Vəliş tez çöldəki stollardan birinin üstünə süfrə saldı, stəkan-nəlbəki düzdü, qənddən-konfetdən qoydu, sonra gedib iki çaynik gətirdi. Şakir tapşırmışdı ki, ayrıca kəkotu dəmlə, Rəis dağ adamıdı. Market Vəliş çaynikləri qoydu stolun üstünə:

- Rəis, biri təmiz İsmayıllı kəkotusudu. Özüm yığmışam. -sonra da rəisin stəkanına kəkotu çayı süzdü.

Rəis:

- Şakir, bəs bu camaat hanı?

- Odur ey, eyvandan baxıllar. Gözdəri qorxuf, polisi görən kimi qaçıllar.

- Denən düşsünlər həyətə.

- Sora elə biləllər yenə mitinqdi, gəlif səni də bizim gözümüzə qatıf aparallar.

- Ə, camaatı mən tuturam, məni kim tutacaq?

Şakir bir fıştırıq verib əliylə işarə elədi:

Bu vaxt Market Vəliş Şakiri dümsüklədi:

- Ə, deynən kafenin televizoru da xarabdı.

Şakir:

- Ə, nemes, sən də bir dayan görüm. Dediklərimi bu dəyqə düzəltdilər, qaldı sənin tilvizerin.

Rəis:

- O nə deyir?

- Heş, rəyis, kafenin tilvizeri xarafdı, başına qapaz vurmayanda göstərmir.

Rəis:

- Day nə dərdiniz var? Molla gəlmişkən, ölən ölsün.

Şakir:

- Bir də qazımız yoxdu, hamı pletkadan istifadə edir. Ona görə də işıx güjə düşür. Vallah, bir gün bir qısa qapanma olajax, bu yataxxanalar bomba kimi partdıyajax.

Rəis durdu Şakirlə girdi yataqxanalara, İş Adamıyla Müdir də onların ardınca. Vəziyyətlə yerində tanış oldu, dağılmış tavana baxdı, otaqları gəzdi. Sonra yenə qayıdıb oturdu kafenin qabağında, Market Vəlişə dedi:

- O kəkotu çayından birini də ver.- sonra da üzünü tutdu şadlıq sarayının müdirinə;- şoferini göndər bir təzə televizor alsın, tarelka da alsın, gətirsin qursun bu kafedə.

Müdir:

- Bəlkə bir videomaqnitofon da alsın?!

- Pis olmaz, alsın da. Kasıb düşməyəcəksən ha!

İş Adamı:

- Rəis, mənə tapşırığınız?

- Sən sabahdan fəhlələri tökürsən bura, yataqxanaların damını dəyişdirtdirirsən, qırıq pəncərələrə şüşə taxdırırsan, eyvanları da rənglədirsən. Sonra da gedirsən dəmiryol rəisinin yanına, mənim adımdan xahiş edirsən ki, bu yaxındakı stansiyadan yataqxanalara işıq versin, onlarda həmişə işıq var. Sonra da baxarıq neyləmək lazımdı.

Camaat yer-yerdən alqış eləməyə başladı:

- Rəis, Allah balalarını saxlasın.

- Allah ölənlərinə rəhmət eləsin.

- Min budaq olasan.

- Kaş səni qaçqınkoma sədr qoyaydılar.

Elə bu vaxt yataqxananın həyətinə daha bahalı bir maşın girdi, sürücü tez düşüb arxa qapını açdı və elə maşını kimi bahalı geymiş bir şəxs yavaş-yavaş yendi. Onu görən kimi rəis də qalxdı ayağa, İş Adamıyla, şadlıq sarayının müdiri də.

Şakir başa düşdü ki, bu kimdisə çox böyük adamdı. Maşından düşən şəxs yaxınlaşdı rəisə, bircə rəislə görüşdü. İş Adamıyla, şadlıq sarayının müdirinə dilinin ucuyla salam verdi.

- Rəis, işçilər gəlib dedilər ki, yenə burda mitinq var.

Şakir:

- Rəyis, saa demədim ki, vallah, səni də bizim gözümüzə qatıf aparajaxlar?

Rəis:

- Sən narahat olma.

Sonra üzünü tutdu lap bahalı maşından düşən şəxsə, dedi:

- Cənab başçı  - Şakir də, bura yığılanlar da bildi ki, bu rayonun başçısıdı: - Gəldim görüm ki, nə problemləri var, iki-üç gün problemlərini həll edərik.

Cənab Başçı:

- Burda bir Şakir var, o kimdi, Bəxtiyar Vahabzadənin dostu?!

Şakir çıxdı qabağa:

- Məllim, mənəm. Avdal-Gülaflı Şakir, qarmonçalan Şakir, camahatın Şaka dediyi Şakir.

Amma nə cənab dedi, nə də başçı.

Cənab Başçı:

- Mən məllim deyiləm, cənab başçıyam.

Şakir:

- Yəni cənab başçı məllimdən hörmətli olur?

Kənardakılar qaş-göz elədilər ki, bir az ağıllı ol.

Cənab Başçı:

- Ə, Şakirsən-nəsən, Bəxtiyar müəllim deyib, mən də sənə iş təklif etmişəm, niyə bəyənməmisən? Qaçqın adamsan, yetim qızsan, qıvrıl yat.

Şakir:

- Məllim, mən yetim qız deiləm, yetim oğlanam. Dədəm də nemesdərnən müharibədə həlak oluf, qəbri də Mazdoxdadı. Pulum olmuyuf ki, gedib bir dəfə ziyarət eliyim. İkinci də, sağ ol, yəqin ki, mənə olunan təklifdən xəbəriniz var. Bu yataxxanalardakılar gözünü dikif çörəhpuluna. Onların çörəhpulusu ilan sümüyüdü, adamın boğazında qalar. Amma sizlərin nətəər boğazında qalmır, Allah bunu nətəər götürür başa düşmürəm. Həm də mən iş tapmışam, musiqi məktəbində qarmon məllimiyəm. Siz də şairə zəng edin deyin ki, maa iş düzəltmisiz, onun da ürəyi açılsın, siz də kefinizdə olun. Bəxtiniz gətirif belə rəyisiniz var. Yoxsa bu camahatı yığıf gətirib binana od vuraram.

Cənab Başçı da Şakirin qırımını görüb özünü yığışdırdı.

- Eşitmişəm yaxşı qarmon çalırsan, bəlkə bir nəsə çalasan qulaq asaq?!

- Mən qarmonu dostdarçün çalıram, sifarişnən çalmıram.

**(Ardı olacaq.**
**Özü də Rasim Müzəffərlinin xətrinə)**

## *Bayden ən aktiv sosial şəbəkə istifadəçisi oldu*




**İtaliyanın "Italia digitale" fondunun rəqəmsal rəsədxanası dünyanın bəzi aparıcı ölkələrinin liderləri ilə bağlı araşdırma aparıb.**

24 lider arasında aparılan təhlildə liderlərin son 3 ayda sosial media fəaliyyətlərinə görə sıralama hazırlanıb.

Araşdırmada izləyicilərin sayı, hər yazıya bildirilən rəy və son 3 ayda qarşılıqlı əlaqə əsas götürülüb.

Sosial mediada ən çox izlənən lider 66 milyondan çox izləyicisi ilə ABŞ Prezidenti Co Bayden olub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 40 milyondan çox izləyicisi ilə ikinci yeri tutub.

Ukrayna Prezidenti Volodimir Zelenski isə 27 milyonla üçüncü olub.

Təhlillərə görə, Braziliya Prezidenti Lula da Silva sosial mediada ən fəal liderdir.

## *Liftlərə gediş haqqı qoyulacaqmı?*

**Liftə minmişdik.**



**İş yoldaşım Sübhan dedi ki, nə əcəb, lifti pullu etməyiblər?**

**Dedim, adə, sus, indi Tarif Şurası eşidər, zibilə düşərik.**

**Eminquey**

## *Araşdırma: Haylar Rusiya SM nəzarətindəki kənddə üzüm bağı salır, şərab zavodu tikir...*

**Ermənilər ekoetirazçılara göz dağı vermək üçün Qarabağda kənd təsərrüfatı işlərinə start veriblər.**

Adalet.az xəbər verir ki, 44 günlük müharibə nəticəsində Hadrut rayonunun Mets Tager (Böyük Tag?lar) və Toq (Tuğ) kəndlərində 300 min üzüm kolunu və şərab zavodunu itirən sahibkar Samvel Qriqoryan buna baxmayaraq, üzümçülükdən əl çəkməyib. O, yeni müqavilə bağlayıb, yeni üzüm bağı salmağa başlayıb.

Sahibkar Qriqoryan deyib ki, artıq yer seçilib, dövlət onu prioritet əhəmiyyətə malik ərazi kimi tanıyıb:" Təqdim olunan biznes plan çərçivəsində 200 min üzüm kolundan ibarət üzüm bağının becərilmə-



si və 300 min şüşə şərab istehsalı zavodunun tikintisi üçün maliyyə ayrılacaq. Ümumi investisiya 3,5 milyon ABŞ dolları təşkil edəcək. Bu günə kimi Fransadan gətirdiyimiz 100 min üzüm kolu artıq əkilib.

Biz 5 üzüm sortunu yetişdiririk: Pinot Noir, Merlot, Cabernet Sauvignon, Cabernet Franc və Syrah, keyfiyyətli şərablar istehsal edəcək".

İlk məhsul 2024-cü ildə yığılacağını, bu müddət ərzində şərab zavodu tikilib istifadəyə veriləcəyini deyən Samvel Qriqoryan sonda vurğulayıb ki, o, nə qədər ki, yer üzündə olacaq, o vaxtadək üzüm bağları salacaq.

Qeyd edək ki,  əkin sahəsi ermənilərin Tsağkaşat adlandırdığı  Qışlaq kəndi Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə görə, Xocalı rayonunda yerləşir. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Qışlaq kəndi Rusiya Sülhməramlı qüvvələrinin nəzarətinə keçib.Kənd dağətəyi ərazidədir. Yaşayış məntəqəsi keçmiş qışlaq yerində salındığı üçün belə adlandırılıb.

**Xatırlatma:** 2019-cu ilin payısında ermənilər Azərbaycanın Araz çayı sahili boyu yerləşən işğal altındakı ərazilərində məskunlaşma və quruculuq işlərini davam etdirirdilər və bunu mediada sürəkli tirajlayırdılar. Cəbrayıl rayonunun Qumlaq kəndi yaxınlığında salınmış və "Araksavan" adlandırılmış qəsəbənin iki erməni sakini 120 hektar ərazidə nar bağı salmışdı. Fermerlər Henrik Aslanyan və Qagik Satryan nar tinglərini və müasir suvarma sistemlərini ABŞ-dan gətirmişdil ər.

**Noldu a fermerlər... Məhsul götürə bildiniz? Amerikadan gəlmiş nar tingləri kimə qaldı?**

**Əntiqə Rəşid**



Əbülfət MƏDƏTOĞLU

# Ağasəfa sözü

*Azərbaycan oxucusu yəqin ki, bu imzanı unutmayıb. Bir sözdən ibarət imzanı - yəni Ağasəfanı. Çəkilib kəndinə, yəni doğulduğu ocağa, könlünü verdiyi sözlə və bir də güvənc yeri olan ocağı ilə baş-başadır hər zaman. Nə kimsənin könlünə dəyir, nə də kimsədən nəsə ummur. Mənim bildiyimə görə, onun umacağı bircə sözün hər zaman dəyərdə olmasıdır. Bax, elə kitab rəfimdən götürüb vərəqlədiyim bu kitabındakı şeirləri gözdən keçirsək, bilərik ki, bu sözün sahibi Ağasəfadı:*

*Yenə "Pul! Pul!" demə, arvad,*
*Dah vaz keç! Bəsdi!*
*Pulda olsaydı vəfa,*
*Əldən-ələ keçməzdi...*




*Sadə bir məntiq hamının bildiyi, amma yalnız Ağasəfanın şeirə çevirdiyi məntiq. Adi görünən bu məntiqin içərisindəki həqiqət isə heç kimə sirr deyil. Hamı bunu bilir, bəlkə də içində etiraf edir.*

*Amma ictimailəşdirmir. Ağasəfa isə öz şair ampulasında pulun necə vəfasız olduğunu birbaşa deyir və yaxud o vurğulayır ki:*

*Bu bəla gəlib fələkdən,*
*günüm oldu qara bir də.*
*Keçirir bizi ələkdən,*
*ələnir idarə bir də.*

*Ona gəldiyim gəlişdən*
*camaat ölüb gülüşdən.*
*Məni də çıxardır işdən,*
*qalıram avara bir də.*

*Günümüzün reallığı olan bu mənzərənin sadəcə göz önünə gətirmək lazımdı.*

*Çünki dünyanı bürüyən iqtisadi tənəzzül və təbii ki, bunun fonunda artan işsizlik özünə çəkilmiş Ağasəfanın "Məni də çıxardır işdən..." şeirində çox səmimi bir şəkildə qələmə alınıb.*

*Bütövlükdə isə, onun "Rüşvət dünyası" kitabı təkrar oxuduğum kitablar içərisində kənardan baxıb gerçəkləri az qala bağıraraq hər kəsə çatdırmaq istəyən bir şairin ürək səsidi. Darıxanda siz də bu cür səslərə qulaq asın.*

## *ETSN qanunsuz ov edənlərə xəbərdarlıq etdi*

**Son zamanlar qanunsuz balıq ovu ilə mənfi hallara rast gəlinir. Belə ki, ölkədə olan milli parkların ərazilərində ov aparılır ki, bu da qadağandır.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Ağgöl və Qızılağac gölü ətrafında qanunsuz ov faktları aşkarlanıb:

"Həmçinin çöl donuzunun ovlanması halı müşahidə olunub. Ov edənləri bu işdən çəkinməyə səsləyirik".



Aqşin Yenisey

# Məhəmməd Əminin cırıq ayaqqabıları...

**Məhəmməd Əmin Rəsulzadə "Qafqaz xatirələri"ndə 1920-ci ilin qışını Moskvada cırıq ayaqqabılarda keçirdiyini yazır.**

**Rəsulzadəni ayaqyalın görən bir rus arvad ona "Valenka" deyilən keçə çəkmə borc veribmiş. Məhəmməd Əmin qar donanda o keçə çəkmələri, əriyəndə isə qalın yun corabın üstündən cırıq "çüst" ayaqqabılarını geyinib gedirmiş "Rumyansev kitabxanasına" Azərbaycan haqqında araşdırma aparmağa.**

**Nəhayət, qışın son günlərində ABŞ fəhlələri sovet fəhlələrinə bir gəmi ayaqqabı göndərirlər və Rəsulzadə cibində olan sonuncu və dəyərsiz qızıl pulun üstünə bir ədəd iynə, bir qom tikiş sapı və bir çimdik duz qoyub o gəmidən bir cüt ayaqqabı ala bilir.**

**Məhəmməd Əmin özünü demokratik artistliyə vursaydı, bəlkə də, ayaqqabını ABŞ fəhləsindən yox, ABŞ konqresindən alardı, həm də "bir ədəd iynə, bir qom tikiş sapı və bir çimdik duz" ödəmədən. Əslində elə indi də xalis demokratik düşüncə daşıyıcıları cırıq ayaqqabı ilə dolaşırlar öz məmləkətlərində.**

**Bunun əsl səbəbi isə yüz il keçməsinə baxmayaraq, Azərbaycan insanın bu gün də xalqı təmsil etməsidir. Demokratiya isə xalqı millətə çevirən ağır intellektual prosesin nəticəsidir.**

**Xalq özünün millət mərhələsinə, yəni məsələn, adət-ənənədən qanuna, şifahi ədəbiyyatdan yazılı ədəbiyyata, zahiri təmtəraqdan daxili kübarlığa, qəhrəmanlıqdan peşəkarlığa və s. keçməyibsə onun demokratiyası meymunun kostyum geyinməsi kimi bir şey olacaq. Bu gün Azərbaycanda söz və fikir azadlığı filosofu söymək üçün pusqudadır. İnsan haqları Azərbaycanda imtiyaz, mandat, qarın davası aparır və s. Niyə?**

**Çünki biz hələ də xalqıq, millət deyilik. İntellektual zəhmət tələb edən o möhtəşəm millətləşmə mərhələsini keçməmişik. Millət olanda bugünkü demokratik davranışlarımıza baxıb xəcalət çəkəcəyik.**

**Necə ki, mən indi yüz il əvvəl yanlış olaraq millət olmağı yuxusunda belə görməyən xalqa tezbazar demokratiya verib özü ayaqyalın qalan Məhəmməd Əminin cırıq ayaqqabılarına baxıb xəcalət çəkirəm.**

# "Bütün yollar Şuşaya aparır"

**30 illik həsrətdən sonra qovuşduğumuz Şuşanın bugününü görmək, onun yenidən necə doğma əllərlə həyata qayıtdığını izləmək çox qürurvericidi. Şəxsən mən artıq bir neçə dəfə ziyarət etdiyim Şuşaya hər səfərimdə qarşılaşdığım bu yeniliklərin təsirindən çıxa bilmirəm. Həmin aura məni bir az da ruhlandırır, bir az da bu torpağa olan dəli həsrətimi sanki bir seyrəlmə və yumuşalma qatır. Daha dəqiq ifadə etsək, sevincin qolu, qanadı şaxələnir, həsrət budanır...**

Bir qələm adamı olaraq Şuşa ziyarətlərində qatıldığım Vaqif poeziya günləri artıq xatirəyə çevrilib. Amma bu xatirələr o qədər isti və doğmadır ki, onların aurasından uzaqlaşa bilmirəm. Və elə bil ki, hər sözdə, hər söhbətdə xatırlanan Şuşa ünvanı məni təkrar o yerə, o xatirələrə qaytarır.




Bugünlərdə kitabxanamı bəzəyən "Bütün yollar Şuşaya aparır" kitabı diqqətimi çəkdi. Ədəbiyyat adamlarının işğaldan sonra keçirilən ilk Vaqif poeziya günlərinin bir növü təəssüratı olan bu kitab həm də maraqlı yazıların toplusudur. Burada Azərbaycanın dəyərli ziyalılarının, yazıçı və şairlərinin, ictimai xadimlərinin fikirləri yer alıbdır. Onların arasında professor Vilayət Quliyevin, akademik İsa Həbibbəylinin, xalq şairləri Nəriman Həsənzadənin, Sabir Rüstəmxanlının, Vahid Əzizin, millət vəkili Rəfael Hüseynovun, eləcə də yazıçı və şairlərdən Səyyad Aranın, Elçin Hüseynbəylinin, Fərid Hüseynin, İbrahim İlyaslının, Təranə Vahidin, Elnarə Akimovanın və digərlərinin bir-birindən oxunaqlı, bir-birindən diqqət çəkən Şuşa sevdalı yazıları yer alıbdır.

**Mənə elə gəlir ki, bu toplunu gözdən keçirmək yenidən Şuşaya qayıtmaq qədər maraqlıdır. Elə ona görə də mən "Bütün yollar Şuşaya aparır" toplusunu yenidən sizlərə təqdim etdim.**

**Əbülfət Mədətoğlu**

# "Gəraylar gərəkdir Azərbaycana"

Az qala 45 ilə yaxındır ki, bir-birimizi arayıb-axtardığımız və həmin o axtarışların içərisində də daha çox xoş məqamlarını xatırladığımız gənclik dostum Bəhram Fərmanzadə Beyləqanda yaşayır. Onu Azərbaycanın ziyalı mühiti, xüsusilə söz adamları yaxşı tanıyır. Hər kəsə açıq ürəyi, açıq süfrəsi ilə qarşılıq verən, necə deyərlər, vaxtını imkanını əsirgəməyən Bəhram Fərmanzadə böyük bir nəsilin layiqli övladıdı.

O, Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun bacısı oğludu. Torpağına, əqidəsinə bağl və sədaqətli olan Bəhram Fərmanzadə dost kimi də, ziyalı kimi də çox unikal bir adamdı. Onunla həmsöhbət olanda özün də bilmədən mövzu səni çəkib çox-çox uzaqlara aparır. Bu da onu göstərir ki, Bəhram müəllim dövlət qulluğunda olduğu illərdə çox gəzib, çox görüb, çox oxuyubdu. Az qala dünyanın o biri başı ilə təmas qurubdu. Harda bir işıqlı adam görübsə, onunla tanış olmaq üçün vaxtından, imkanından istifadə edibdi və bir də...

Bəhram Fərmanzadə həm də bölgədə yaşayıb-yaradan şairlərimizdəndi. Onun şeir dünyası daha çox dostluğu, təbiəti, Azərbaycan coğrafiyasını, sədaqəti, sevgini və bir də xalqın dəyərli övladlarına ünvanlanan mövzularla cilalanıb. İstər şəhidlərimizə, istər Qarabağımıza, xüsusilə də ulu öndərimizə həsr etdiyi şeirlər və poemada Bəhram Fərmanzadə bir vətəndaş mövqeyini, şair peşəkarlığı ilə ortaya qoyubdur.

Elə barəsində söhbət açmaq istədiyim "Gəraylar gərəkdir Azərbaycana" kitabında da o, təkcə Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovu deyil, bütövlükdə Azərbaycanın igid oğullarını tərənnüm edib, onların döyüş səlnamələrini qələmə alıbdır.

Ümumiyyətlə, bu kitabda Bəhram Fərmanzadə bir şair olaraq Azərbaycan oğullarının Sovet-alman müharibəsində göstərdiyi rəşadətdən başlanan igidlik yoluna Qarabağ müharibəmizin Zəfərinə qədər davam etdirib.

Buradakı şeirlərin hər birində biz həmin məqamların şahidinə çevrilirik. Elə bu şeirində olduğu kimi:

***Düşmən məqsədinə heç vaxt çatmayıb,***
***Soyuq məzarlarda əsgər yatmayıb,***
***Durna qatarı tək göydə düzülüb,***
***Analar sevinib, körpələr gülüb***
***Vətənim qələbə çaldığı gündə.***

Və yaxud kitabdakı "Çıxacaq ağ günə Azərbaycanım!" şeirində olduğu kimi:

***Şoran torpaqlarda bağlar salacaq,***
***Millətim qələbə, zəfər çalacaq.***
***Baxıb ilhamına ilham alacaq,***
***Çıxacaq ağ günə Azərbaycanım!***




Düşünürəm ki, gənclik dostumun kitabı barəsində oxuculara atüstü verdiyim bu bilgi onu tanıyanların, imzasını izləyənlərin yaddaşında Bəhram Fərmanzadənin şeirlərini arayıb-axtarmaq istəyi yaradacaq.

Bu hiss də şair dostuma mənim tərəfimdən bir hədiyyə kimi gəlib keçdi.

**Əbülfət Mədətoğlu**

**Hörmətli oxucular, bəri başdan deyim ki, Şuşa özü insanı məftun edən gözəllikləri, mədəni abidələri, böyük şəxsiyyətləri ilə Azərbaycan tarixinin ən canlı enskiplopediyasıdır, hər daşı, hər qarış torpağı neçə-neçə tarixi hadisələrin canlı şahididir. Bu şəhər dünyaya onlarla tarixi şəxsiyyətlər bəxş etmişdir.**

# Şuşanı yaddaşına köçürmüş rəssam

**"Qonşuya hörmət ataya hörmət kimidir"**

**Həzrəti Məhəmməd (s.a.a.s)**

"Bizim Şuşalılar" rublikasında vətənini və xalqını sevənləri, insana və insanlığa qiymət verməyi bacaranları, halallıqla yaşayanları, millətinin təəssüfün çəkənləri, milli mənəvi dəyərlərimizi təbliğ edənləri, elm, sənət və peşə sahiblərini tanımağı və tanıtmağı özümə mənəvi borc bilmişəm. Səmimi deyim ki, "Bizim Şuşalılar" rublikasında bu vaxta qədər yüzə yaxın şuşalılardan söz açmışam.

Bu yazımda da ənənəmə sadiq qalacağam. Bir sözlə, hər gülünün, çiçəyinin, hər otunun, bir ovuc torpağının, bir udum havasının və suyunun ətrindən doymadığım Şuşanın müdriklik yaşına çatmış bir rəssamından, onun doğulduğu yurduna sozsuz sevgisindən, milli ruhundan, yaradıcılığından söz açacağam.

Onu da deyim ki, çoxlarınızın məndən də yaxşı tanıdığınız, ömrünün 70-ci baharını gəncliyə xas olan gümrahlıqla başa vuran bu insan əsl azərbaycanlıdır, tanınmış rəssamdır, müəllimdir, milli mənəvi dəyərlərimizin təbliğatçısıdır, nümunəvi ailə başçısıdır, sadə və təvazökar insandır. Nəhayət, Şuşa sevgisindən doymayan şuşalıdır. Bu insanı çoxlarından fərqləndirən odur ki, o öz sağlığında ömrünün davamını yaxşı əməlləri, həyatda qazandığı hörmət və uğurları ilə yazmağı bacarıbdır. Ondakı yüksək keyfiyyətlər məni əlimə qələm almağa sövq etdi.

Şuşada yaxın qonşu olmuşuq, uzun illərdir dostluq edirik. Tez-tez görüşürük. Biz Ocaqqulu küçəsi 4-də yaşayırdıq. O isə yaxınlıqdakı Zöhrabbəyovların malikanəsində təşkil olunmuş Şuşa Dövlət Rəsm Qaleriyasında müdir işləyirdi. Rəsm fırçasının əlindən yerə düşdüyünü görməmişdim.

**Qısa tanışlıq:**

Bayramov Rövşən Mehrab oğlu 9 fevral 1953-cü ildə musiqi və poeziya beşiyi sayılan Şuşa şəhərində həkim ailəsində dünyaya göz açıbdır. 1960-1970-ci illərdə Şuşa şəhər 4 nömrəli orta məktəbdə oxuyub. 1970-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə qəbul olub 1974-cü ildə həmin məktəbi əla qiymətlərlə bitirib.

Rövşən Bayramov 1974-1982-ci illərdə Şuşa şəhər Mədəniyyət Evində tərtibatçı rəssam vəzifəsində işləyib, eyni zamanda rəssamlıq işə ilə məşğul olubdur. Hələ orta məktəbdə oxuduğu illərdə onun rəsm əsərləri nümayiş olunurdu. Gənc yaşlarından diqqəti cəlb etmişdi. Bir çox əsərlərinin sərgisində iştirak etmişəm.



R.Bayramov 1992-ci ilin 8 mayında Şuşa şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı ilə əlaqədar doğma yurdundan məcburi köçkün düşüb və ailəsi ilə birlikdə Bakı şəhərində müvəqqəti məskunlaşıb, işini davam etdirib; 2021-ci ildə təqaüdə çıxıbdır. O, 1987-ci ildən SSRİ Rəssamlar İttifaqının üzvüdür. Rəssamlıqdan mənəvi zövq alan Rövşən müəllim 2013-cü ildə Fəxri Mədəniyyət işçisi döş nişanına layiq görülübdür.

Onun əsərləri təkcə ölkəmizdə yox, dünyanın bir çox ölkələrinin sərgi salonlarında da nümayiş olunubdur. Bu baxımdan rəssamın ən çox üstünlük verdiyi peyzaj və qrafika əsərləri Yuqoslaviyada, Venesiyada, Macarıstanda, İtaliyada, Moskvanın Şərq Muzeyində nümayiş etdirilib və saxlanılır.

Fəxrlə qeyd etməliyik ki, Rövşən müəllimin bir çox əsərləri həm yerli, həm də xarici ölkələrdə şəxsi kolleksiyalarda da qorunub saxlanılır.

Şuşalı rəssam uzun illər səmərəli fəaliyyətinə görə onlarla Fəxri fərmanlarla, diplomlar və qiymətli hədiyyələrlə təltif olunubdur. Rövşən müəllimin yaradıcılığının ana xəttində Şuşa əsas yer tutur. Haqqında tanınmış rəssamlar, ziyalılar, sənət və peşə sahibləri ayrı-ayrı mətbu orqanlarda xoş sözlər yazıblar.

Azərbaycanın xalq rəssamı Ziyadxan Əliyev yazır: "Şuşanın bədii salnaməsində Şuşalı rəssam Rövşən Bayramovun xidmətləri əvəzsizdir. Mübaliğəsiz olaraq onu Şuşaya ən çox əsər həsr etmiş rəssam hesab etmək olar..."

Yaxşı mənada Z.Əliyevə deyək ki, bəli, XIX əsrdə Şuşanın mənzərələrini və burada keçirilən mərasimləri öz əsərlərində əbədiləşdirən görkəmli rus rəssamı V.Veroşagindən başlamış Şuşaya üz tutan xarici və Azərbaycan rəssamlarının ənənələrini davam etdirən Rövşən Bayramov Şuşanın mənzərələrin memarlıq və incəsənət abidələrin təkcə ürəyində-ruhunda yox, həm də dünyanın bir çox ölkələrinin sərgi salonlarında nümayiş etdirdiyi əsərlərində də əbədiləşdirib, kim olduğunu təsdiqləyibdir.

Rövşəni çoxlarından fərqləndirən ən gözəl keyfiyyətlərindən biri də onun uzaqgörənliyidir. Belə ki, rəssam Şuşanın işğalından əvvəl şəhərin bütün məhəllələrin, küçələrin, tarix və memarlıq abidələrin fenomen yaddaşına köçürmüşdür, bir sözlə, iç dünyasında muzeyləşdirmişdir. Bu əsərlər Şuşanın işğalından sonra şəhərin yenidən bərpasında misilsiz rol oynamışdır.

Nəhayət, deyək ki, şairlər sözlə, alimlər kəşflərlə, rəssamlar sənət əsərləri ilə, bəstəkarlar musiqi parçaları ilə, sərkərdələr öz qələbələri ilə insanları heyrətləndirirlər.

Bunu onun əsərlərində də duymaq olur. Onun əsərləri indiyə qədər Şuşa ilə bağlı çəkilən rəsmlərdən tamamilə fərqlidir. Rövşənin öz yolu, öz yaradıcılıq üslubu, düşüncəsi var. "Gövhər ağa məscidi", "Xan qızı" bulağı, "Gəncə qapısı", "Vaqif türbəsi", "Bulaq başında", "Xarıbülbül", "Qala divarları", "Zöhrabbəyovların mülkü", "Misgər", "Qədim qablar", "Haray" və s. əsərləri R.Bayramovun milli kökə bağlılığının məhsuludur.

**Sonda əziz dostuma, dünya rəssamlarının layiqli davamçısı sayılan Rövşən Bayramova uzun illər yaddaşına köçürüb saxladığı, əsərlərə çevirdiyi doğma Şuşamızda yeni əsərlər yaratmaq, uzun ömür, cansağlığı arzulayıram.**

**Əyyub Şırlanlı**
**şair-publisist, Əməkdar müəllim,**
**"Məclisi-Üns" - "Söz gülüstanı"**
**Ədəbi Birliyinin rəhbəri**

Emil Rasimoğlu



# Utanan həbsxana və ya Aydın Canıyevin yandırılmış fotosu...

**Onu düşünürəm- öz istedadına, içindən başlanan YOLa özünün belə əli çatmayan Aydın Canıyevi - günəşin yaddaşındakı AĞ RƏNGLİ ÇOVĞUNu! Eləcə gözlərimin önündən əlləri alqana boyanmış qapı şəkili gəlib keçir. Bəli, illərdir yalquzaq bir ömrün üzünə çırpılan qapı şəkli!**

**...Aydın Canıyev canavar dişləri ilə dilənçi ovucları arasında daim öz taleyini yaratdı. Yaratdı və bütün ağrı-acıların səngərində özünün qərib düşmüş üzünü qorumağı bacardı. O, ömür boyu həmin taleyi eləcə Tanrıya, Vətənə...və bu məmləkətdə ayaqyalın körpənin yuvasız ayağlarının soyuqluğuna öyrəşdirdi. Məhz buradan başladı qələminin qış fəsli, şum yeri...**

**...Bu illər ərzində Aydın Canıyev İSTEDADının, İMZAsının, ƏMƏYinin dəyəri verildimi? Bəlkə Aydın Canıyevi ona verilən evdən, öz isti yuvasından götürüb həbsə apardılar. Ya bəlkə sənət Aydın Canıyev üçün bir ömür "yarınmaq körpüsü", "hiylə meydanı" oldu. Təbii ki, yox! Belə olduğu halda bütün həbsxanalara aydınlıqdan utanmaqdan başqa nəsə qalmır. Heç Aydın Canıyev də!**

**...Ona cəza, həbs istəməzdən öncə onun haqqını istəmək lazım idi. Tanrı qədər böyük, danılmaz...və şəriksiz haqqını!**

**Həbsini istədiyin ADAMın bir gün HAQQını istəməmisənsə...istəməyəcəksənsə sən bir başqa çoxizahlı "Allahsız"san, insan oğlu! İllah da o ADAM Aydın Canıyev ola, o haqq Aydın Canıyevin HAQQı ola...**

**Yoxsa, unutmuşuqmu?! (Hərçənd ki, bir çoxunun "çörəyi" qan gölündə unutmaqdan çıxır!). Axı, o həmin Aydın Canıyevdir ki, bu məmləkətin SÖZünün...dar ağacından çıxıb getməyə yol axtaran müasir JURNALİSTİKAsının...künclərə qısılan HƏQİQƏTLƏRinin üstündə SƏS HAQQI...SƏNƏT HAQQI...ÖMÜR HAQQI...QƏLƏM HAQQI...var! Axı, o həmin Aydın Canıyevdir ki, qəbrə dönən ATA, gözü yollarla doğmalaşan ANA, bəxtindən didərgin düşmüş YOLDAŞ, ÖVLAD...sevgisindən, arzusundan, istəyindən (hətta üzündən!) imtina edib bu Vətənin iztirablarının, alnındakı qırışların cəbhəsində dayandı. Dayandı və qaranlıqlara külüng qaldırdı, nişan alınası ürək göstərdi! Məgər, o iztirabların, qaranlıqların zaman-zaman Aydın Canıyevin ömrünə necə divan tutduğunun şahidi olmadıqmı?! Əlbəttə olduq! Həm də kimimiz gözümüzlə, kimimiz kürəyimizlə şahidi olduq! Bəli, kürəyimizlə! Aydın Canıyev MÜCADİLƏsinə, İSTEDAD YOLUna...kürək çevirənlər də az olmadı!..az deyil!..və bu gedişlə heç az olmayacaq da!..**

**...Qoy, darıxmasın günəşin yaddaşındakı AĞ RƏNGLİ ÇOVĞUN - azadlığın Aydın Canıyev üzü! O günə az qalıb. Gələcək!..İçində Aydın Canıyevin dərviş əlləri...və bir də xatirələrə söykənən bir həbsxana!**

Pərvanə Bayramqızı

# Dua ilə oxuduğum şeirlər



*Mətnin adı demək istədiyimi tam ifadə edə bilmədi. Uzun başlıq yazı üçün uğursuz olduğundan sözə qənaət etməyə (bu, əslində, oxuyanları qəzəbləndirməmək ehtiyatıdır) məcbur oldum. Uzun mətləbləri bir cümləyə sığışdırmaq sənətkarlıq tələb etsə də, bəzən sənətkarda da (özümü demirəm) alınmır. Ona görə alınmır ki, dolanbac yollar olduğu kimi, bir-birindən keçən fikirlər də var. Gərək incə-incə, dənə-dənə, kəlmə-kəlmə açasan.*

*Poeziyaya sevgimi dönə-dönə bu mövzuda yazmaqla, bir-birindən gözəl şeirlər paylaşmaqla, əzbər söyləyənləri maraqla dinləməklə izhar etmişəm. Onu da demişəm ki, yaxşı şeir yazammasam da, yaxşı şeirlər oxuyuram. Şeir üstündə xətri əziz insanlarla incikliyim də olub. Hərəsilə bir səbəbdən. Əslində, deyəsən, mən onların qəlblərini qırmışam. Şair çoxdur, şeir az. Mən də azı sevirəm. Şairlər inciyirlər: mənim şeirimi paylaşmırsan. Şeir özü isə bu barədə susur. Danışmayan şeiri loqopedə aparmaq olmur axı. Elə şeir paylaşıram, oxucular mənə inanıb növbətini özü axtarıb tapsın. Ramiz İsmayılın şeir kitabını oxumağa başlayanda dua etdim: İlahi, ruhumu oxşayacaq şeir tapıb zövq ala bilim. Onun şeirlərindən yazmağı yadıma salanda Allaha əməlli-başlı yalvar-yaxar elədim: Allah, qurban olum kitabda haqqında yazmağa bir-iki şeir olsun, başqa heç nə istəmirəm. Soruşa bilərsiniz, vacibdirmi bu əziyyətlə şeirdən yazmaq? İndi qulaq asın, cavab verim. Haqqında yazdıqlarınızın hansı qəşəng yazır? Bəziləriniz resenziyaları xətir-hörmətdən başqa pul ilə də yazırsınız. Müəllif də var, həyasızlığına salıb yazdırır. Bu səbəblərdən uzaq olan mətni niyə də yazmayasan? Öz abrına qısılıb heç kəsi narahat etməyən səssiz şairdən yazmağa dəyər.*

*Hekayələri ilə çoxdan tanış idim. Hətta oxuyub sayta da yerləşdirmişdim. (Çoxu elə bilir saytda şalışıram. Bunun xobbi olduğunu bilməyənlər tez-tez yazı göndərib: "sayta yerləşdir" deyə əmr edirlər) Şeir kitabını isə imzalayıb sinif yoldaşına gətirmişdi. Atama kitab verəcəkdim? Hədiyyə kitab olanda balamdan başqa heç kəsə vermirəm. Atam özü kitabdır, övladı kitablaşdırmaq lazımdır. Ona görə də*

*R. İsmayılın kitabını öz evimə gətirdim. Səhifəni vərəqləyəndə gözüm ürəkdən tikan çıxaran şeirə sataşdı. Bütöv yazmayacam. Qarışıq zamandır, milli ayrıkeçkinlik kimi səslənər, amma reallığı əks etdirir.*

*Ərəb gəldi, ərəb olduq*
*dağımızda, daşımızda*
*qərib olduq...*

*Laqeyd qala bilmədiyim digər şeir populyar mövzudadır. O da bir çox şairlər kimi vədəsiz sevgidən gileylənir. Şair qəbahətini bilir, özünü məzəmmət edir, amma sevir. Bunu bədii boya vurmadan etiraf edir:*

*Sevən vaxtım keçib daha*
*Bilə-bilə sevəcəyəm.*
*Səadəti lüğətimdən*
*Silə-silə sevəcəyəm.*

*Yuxa könül, qoca ürək*
*Ramiz, kimə, nəyə gərək?*
*Şama dönüb əriyərək*
*Belə, belə sevəcəyəm.*

*Məhz buna görə şair: "Taleyimiz bir sükansız gəmidir" deməkdə haqlıdır.*

*Sevdiyinə sevgisini "sabahın xeyir"lə bildirmək istəyəndə, qız arif olduğundanmı, yoxsa boşuna ümid vermək istəmədiyindənmi: "sevmirəm xeyr" deyə yüyrək cavab verir. Maraqlı "elçilik"dir.*

*Dərdi bezdirən şairin dərddən başqa həmdəmi yoxdur.*

*Dünya kirkirədir iki daşı var,*
*Bir dayaq daşıdı, bir əl daşıdı.*
*Ömrümüzü yarma kimi üyütdü*
*Bir əl qamarladı, bir əl daşıdı.*

*Ramiz İsmayılın yubileyidir. Ömrü "üyütdüyünü" zənn edir, amma özü boyda bir dünya olan Fərəhlə oynayanda sevincindən: "Hələ bunlar harasıdır?" deyə şadlanır. Biz də: "görməli, yaşamalı günlər qarşıdadır, Ramiz müəllim, yaşayın, hələ bunlar nədir ki" deyirik. Yox, yazıram. Yazıram ki, yubiley təbriki olsun.*

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

№ 5 (2329) 4 fevral 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# 44 günlük savaşda qələbəmizin sirri

**Azərbaycan zaman-zaman öz gücünü və qüdrətini bütün dünyaya göstərib. Çünki o, həmişə beynəlxalq hüquqa, beynəlxalq qanunlara çox hörmətlə yanaşıb. Düz 30 il ölkəmiz BMT-nin 4 qətnaməsinin icrasını gözlədi. Və bu 30 ildə bir dəfə beynəlxalq təşkilatlar hərəkətə gəlib Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsinə heç bir köməklik göstərmədilər. Sadəcə olaraq ATƏT adlı qurum Bakıya və Yerevana gəlib getdi, 30 ildə bir daşı-daş üstünə qoymadı. Əksinə, o qətnamənin icrası əvəzinə, erməniləri müdafiə elədi və 30 il vaxt uddular.**

Təbii ki, bu ədaldətsizliyə və haqsızlığa Azərbaycan dözə bilməzdi. İstər Ulu Öndər Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanın haqq işi dünyaya çatdırıldı. Beynəlxalq kürsülərdə və mötəbər yerlərdə Azərbaycan Prezidenti İlham Əliyev bu haqsızlığı, hətta BMT-nin iclasında belə dünya ictimaiyyətinə çatdırdı. Beynəlxalq qurumlar və dünya ictimaiyyəti isə 30 il susdu, ancaq boş vədlər və sözlərlə bizi aldatmaq istədi.

Təbii ki, Azərbaycanın da səbir kasası vardı və bu səbir kasası artıq zaman-zaman daşmağa başlayırdı. Erməni işğalı uzun sürə bilməzdi. Hansı ki, onun havadarları bəlkə də 50 il, 100 il işğal altında olan torpaqlarımızı bir az da nəzarətdə saxlamaq istəyirdilər.

Amma zaman gəldi və o zaman Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ciddi addım atdı. Çünki ermənilər artıq atəşkəsi tez-tez pozur, sərhədyanı yaşayış məntəqələrini atəşə tuturdular. Buna isə dözmək olmazdı. Ən azından ona görə ki, Azərbaycan daha 90-cı illərin əvvəlindəki ölkə deyil, siyasi, iqtisadi və hərbi cəhətdən çox qüdrətli dövlət idi.

2020-ci ilin sentyabrın 27-də ikinci Qarabağ savaşı başladı. Bu savaş adi savaş deyildi. Çünki uzun illər artıq Azərbaycan bayaq dediyimiz kimi, öz hərbi gücünü daha da möhkəmlətmiş, ordunu ən müasir texnikalarla, silahla təchiz etmişdi. Ali Baş Komandan bu böyük savaşa başlayanda ilk növbədə Azərbaycan xalqına, Azərbaycan Ordusuna və Azərbaycan əsgərinə güvənirdi. Bu güvənc də təsadüfi deyildi.

Çünki Azərbaycan xalqı da öz uzaqgörən, müdrik və dünya şöhrətli siyasətçisi Prezident İlham Əliyevə güvənirdi. Deməli, ermənilərin hər bir hücumunu dəf etmək o qədər də çətin deyildi.

Savaşın ilk günündə ermənilərin Füzulidəki və Cəbrayıldakı müdafiə mövqeləri darmadağın edildi. Elə həmin gün 5 kənd erməni işğalından azad olundu.

İkinci qarabağ savaşının ən ağır günlərində mən də bir jurnalist kimi füzuli və cəbrayıl istiqamətində oldum və orda azərbaycan ordusunun, azərbaycan əsgərinin necə döyüşdüyünün, mücadilə apardığının və torpaqlarımızı azad edərkən hansı sevinci yaşadığının şahidi oldum. Mən şahidi oldum ki, müharibənin ilk günlərindən ordu ilə yanaşı azərbaycan xalqı da ayağa qalxdı.

Hamı bir nəfər kimi bu vətəni, bu ölkəni, bu dövləti qorumağa başladı. İnanın, minlərlə insanlar Füzulidəki



Müayinə Mərkəzinə axışır, orda yaralı əsgərlərimizə kömək göstərir, onlara isti paltar, ərzaq, siqaret gətirirdilər. Hətta kalonla hərəkət edən Azərbaycan əsgərlərinin maşınlarına ərzaqlar, qida məhsulları, geyim əşyaları, sular atırdılar. Azərbaycan əsgəri isə çox böyük sevinclə, çox böyük məhəbbətlə bu hədiyyələri qəbul edir və onlara əl eləyirdilər. Mənim də yanımda bir qutu - yəni 20 ədəd siqaret var idi. Həmin siqareti hərbi maşında əyləşib döyüşə gedən əsgərlərə verdim. Hamısı bir ağızdan "Əmi, çox sağ ol!" - dedilər. Mən isə dilləndim: "Çox sağ ol bizə yox, sizə düşür. Siz burdan döyüşə gedirsiz və bir neçə saatdan sonra səngərdə düşmənlə üz-üzə vuruşacaqsınız. Allah sizi qorusun!"

Bu sözləri deyəndə sonra kövrəldim. Xanımım da yanımda idi. o da kövrəldi və Azərbaycan əsgərinin hər birinə xanımım dualar oxudu. Dedi ki, oğul, Allah sizi qorusun!

Azərbaycan çox qısa müddətdə - yəni 44 gündə tarixdə çox nadir hadisə olan bir qələbəni əldə elədi. Unikal və möhtəşəm bir hərbi əməliyyat keçirdi.

Az itki ilə işğal altında olan torpağımızın böyük bir hissəsini azad elədi və sonradan ermənilər məcbur olub təslim aktına imza atdılar. Bu isə o demək idi ki, onlar müəyyən olunmuş tarixdə Ağdamı, Laçını və Kəlbəcəri azad etməli idilər. Ağızları nə idi azad etməsinlər.

Azərbaycan Prezidenti və Azərbaycan Ordusu erməni prezidenti və erməni ordusunun ağzını cırıb qoymuşdu qulağının dibində. Çünki onlar çox şey itirə bilərdilər. Xankəndini saxlamaq üçün dizini atıb yerə yalvardılar, Rusiya Prezidenti Putini minnətçi göndərdilər. Gərək bu tarixi an və məqam ermənilərin yadından çıxmaya. Belə ki, bu möhtəşəm döyüş yenə başlasa, onlar nəinki Xankəndini, eləcə də Göyçəni, İrəvanı itirəcək və bir dövlət kimi tarixdən silinəcəkdir.

Bu qırılmışın bir ağıllı adamı və ziyalısı yoxdu ki, onları başa salsın, desin ki, ay bala, müharibə ritorikasından, hapdan-gopdan əl çəkin, adam olun, adam kimi yaşayın. Əksinə, onların dövlət rəhbərləri də, xaricdəki erməni lobbisi də xalqa düz yol göstərmir, onları müharibəyə təhrik edir, aclıq və yalavaclıq içində yaşayan xalqı fəlakətə sürükləyir.

Bu gün dünyanın bir çox ölkələrində və Avropa ölkələrində Azərbaycanın 44 günlün İkinci Qarabağ savaşında qələbəsinin sirləri öyrənir. Çünki bu unikal və tarixi əməliyyat dünya hərb tarixinə qızıl hərflərlə yazılıb. Bizim qələbəmizin ən böyük sirri ondan ibarət idi ki, ölkəmizin İlham Əliyev kimi müdrik, uzaqgörən Ali Baş Komandanı var.

O, təkcə Qarabağ savaşında gedən müharibəyə komandanlıq eləmirdi. Həm də ideoloji müharibəyə komandanlıq edirdi. Xaricdən ölkəmizə göndərilmiş və maliyyə dəstəyi verilmiş jurnalistlərlə yüksək səviyyədə danışmaq, onları cavablandırmaq, çox səbirlə və təmkinlə hər bir hay-küy yaradan suala dəqiq, ədalətli və obyektiv cavab vermək ancaq Prezident İlham Əliyevə məxsus ola bilərdi.

Çünki cənab Prezident bu öyrədilmiş jurnalisti hər birinin psixologiyasını, dünyagörüşünü, səviyyəsini və kimə qulluq elədiyini çox yaxşı bilirdi. Bax, bizim İkinci Qarabağ savaşında qalib gəlməyimizin əsas səbəblərindən biri cənab Prezidentin dünyaya nümunə olan bu məziyyətləri idi.

Əlbəttə, ikinci sirr ordunun gücü, hərbi texnikalarımızın müasirliyi və əsgərlərimizin döyüş ruhunun yüksək olması ilə əlaqədar idi. Çünki cənab Prezident də dəfələrlə çıxışlarında bəyan edib ki, bizim qələbəmizin əsas səbəbkarı Azərbaycan Ordusu və Azərbaycan əsgəri idi. Çünki onlar aslan kim vuruşurdular. Aslan kimi vuruşdular və aslan kimi də torpaqlarımızı azad elədilər. Qələbəmizin üçüncü səbəbi o idi ki, Azərbaycan xalqı Prezidentin və ordunun ətrafında bir yumruq kimi birləşdi.

**Müharibənin ilk günündən qələbəyədək Prezidentimizi və ordumuzu ruhlandırdı. Hətta iki oğlu şəhid olan ata belə ruhdan düşmədi. Dedi, mənim özüm də əlimə silah alıb döyüşməyə hazıram. Bax, budur Azərbaycan xalqı və Azərbaycan dövləti və heç kəs bu gün bizə xox gəlməsin. Nə İran, nə Ermənistan, nə də Fransa bizi qorxutmasın. Lazım gəlsə, yenə Azərbaycan Prezidenti, Azərbaycan Ordusu və Azərbaycan xalqı bir yumruq kimi birləşəcək, o yumruğu düşmənin başına elə vuracaq ki, qiyamətə qədər düşmən bir də ayağa qalxa bilməyəcək.**

**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Ceyhun Əli*

## Heyf bizdən...

**2000-ci illərin Bakısı idi. Tələbə ikən dərsdən sonra Araz kafesində toplaşar, nahar edib şəhərdə gəzərdik. Marşrutumuz eyni idi.**

**"Araz"-da nahar edər, yeni açılan "Vanila" kafesində çay içərdik. Hərdən tələbə yoldaşlarımdan biri zarafatca deyərdi ki, "Vanila"dakı çay nədirsə içəndən sonra dadı bulvara qədər damağımızda qalır. Çay xoşumuza gəlsə də, hərdən gileylənirdik. Qiyməti çox baha idi. Müqayisədə yediyimiz nahar üçün ödədiyimiz pula bərabər idi. Bizim üçün az məbləğ deyildi. Amma kafe bizə görə xüsusi idi.**

**Şəhər camaatı həmişə ora toplaşardı. Mən isə müşahidə etməyi çox sevirdim...**

**Çaydan sonra biz Fəvvarələr meydanını eninə və uzununa "ölçərdik". Yenidən Nizami muzeyinin qarşısından ötüb, üzü Araz kafesinə çatanda qrupumuz seyrəlməyə başlayardı. Yəni artıq vaxtdır. Sağollaşmalıyıq.**

**Həmin gün hava Bakının payızına xas olan küləkli, hərdən də bulud arxasından boylanıb, gözü qamaşdıran günəşli idi.**

**Adəti üzrə muzeyin qarşısından ötürdük. Yonulmuş obrazlarının az qala hər qarışını dəqiq xatırladığımız daş heykəllərlə danışan bir kişiyə rastladıq. Görkəmi yorğun, baxışları dərin, üst-başı səliqəli idi.**

**Ətrafdakı insanlara baxır, sonra üzünü heykəllərə tutub ucadan danışırdı. Nitqi rəvan olsa da, səsində xırıltı vardı. Sanki, yaşı ilə bərabər səsi də qocalmışdı. Əslində bu danışmaqdan daha çox ünvanlanan suallar idi.**

**- Kimin üçün yazmışdınız?**
**- Niyə yazmışdınız?**
**- Yazmışdınız ki, oxumasınlar?**
**- Yazmışdınız ki, əksini eləsinlər?**
**- Sizi oxudular ki, qədrinizi də bilsinlər?**
**- İndi yağış, külək, qar da sizə rəhm eləmir.**
**- Axı siz o sətirlərə ürəyinizi vermisiniz.**
**- Heyf sizdən...**

**Kişi bu sualları ünvanlayndan sonra üzünü heykəllərə tutub, köhnə şəhər camaatına xas olan ədəblə sağ əlini sinəsinə qoyub, təzim edib getdi. Sağollaşdı...**

**Yerimdə donub qalmışdım. Yaşlı bir insanın daşlara verdiyi suallar ardı kəsilmədən beynimdə təkrarlanırdı. "Kimin üçün yazmışdınız?" "Yazmışdınız ki, oxumasınlar?"**

**Bəlkə də kişi daşlara ünvanladığı suallara cavabını çoxdan almışdı.**

**Onların əsərlərinin dili ilə. Cavablar elə sualların özündə idi.**

**Onun suallarının ünvanı ədiblər deyildi. Suallar isə təkrar-təkrar yenə səslənirdi. "Axı siz o sətirlərə ürəyinizi vermisiniz. Heyf sizdən..."**

**Məsafə yaxın olmasa da evə piyada gəldim. Bütün yol boyu ağsaqqalın sözləri məni ağuşuna almışdı.**

**- Kimin üçün yazmışdılar? Yazmışdılar ki, oxumayaq?**
**- Axı o sətirlərə ömür verilib...**
**- Biz isə...**
**- Heyf bizdən...?**



*Ramiz Orsər*

### ...bir də göz yaşı

**Fəsillər dörd qardaş,ya da dörd bacı,**
**Bir ilin övladı,can yoldaşıdı.**
**İllərsə bir ömrün xəzinədarı,**
**Həm də ki,tarixin qan yaddaşıdı.**

**Qınasam özümü,bundan kimə nə?**
**Bir eşqin yazında borandı,qışdı.**
**Bir qızın əlləri əlcəksiz qalıb,**
**Bu nə cür yazıdı,necə naxışdı?!**

**İçinə ağlayır buludlar kimi,**
**Kim görmür payızdan küsən o qızı?**
**Telləri üşüyür,hönkürür əli,**
**O,şəhid əsgərin tale ulduzu.**

**Qışın sazağına dözmək nədir ki ?!**
**Fəsillər ötüşür,illər ötüşür.**
**Əlləri əlcəksiz,ayağı yalın**
**Sevginin qışında o qız üşüyür.**

**Fəsillər dörd qardaş,ya da dörd bacı,**
**Bir evin dayağı,sirri,sirdaşı.**
**O qızın qəlbini isidə,bəlkə**
**Həm şəhid ruhları,bir də göz yaşı.**

### Mənim nəğməm

**Yaranışdan pür kamalı əzəldi,**
**Şirin dilli,suyu şirin gözəldi,**
**Bayatıdı,gəraylıdı,qəzəldi,**
**Mənim nəğməm nəğmələrin xanəsi.**

**Mayasında Koroğlunun andı var,**
**Samovarı alışdırar, yandırar,**
**Mənim nəğməm yad dodaqdan yan durar,**
**Xətası yox bir kimsədən danası.**

**Sevgilərin,sevinclərin dan yeri,**
**Hal əhıisən,bülbülü də dan,yeri.**
**Alar əldən,qoymaz canda can yeri,**
**Mənim nəğməm sonaların sonası.**

**Zili,bəmi dərd-sərimə həyandı,**
**Zəngulesi suya düşdü,su yandı,**
**OrSər sözü el-obaya bəyandı,**
**Mənim nəğməm könüllərin anası.**

### Bir ömrün nəğməsi

**Qocalıb,hallanıb,**
**haldan düşüb dodaqlarım,**
**Dənizdə-dalğalar qoynunda köpük kimi.**
**Sahilə çatınca dalğalar**
**köpüklər qucaqlayıb öpər sahili.**

**Birdən gəldi ağlıma,**
**son nəfəsimdə,görən**
**sapsarı payız dodaqlarımı**
**kim öpər,**
**dodaqlarım öpər kimi?**

**Bax,bu**
**bir ömrün nəğməsidi-**
**həm bəmidi,həm zili,**
**"Ay dili,dili,.."**
**Dodaqlarımın qışını görüb,**
**çaşıb qalar oğlanlarım.**

**Ax sizi!..**
**Ümidimin ucunda**
**işıq saçan qoçaqlarım,**
**Arzularımın göyündə**
**qanadsız uçan qaçaqlarım!..**

### Yanaqlarından

**puçur-puçur tər süzülən qadınım,**
**keçmişindən əli üzülən qadınım**
**gözlərinin nuruyla**
**əlacsız-əlacsız boylanar ötənlərə,**
**boylanar**
**yetimliyinə boylanan quzu kimi.**
**Bəlkə,ya da, olsun ki,**
**yuxularımda məni sevən bir qadın**
**səcdəyə dururmuş kimi**
**dizləri üstdə tumarlayıb barmaqlarımı,**
**sonra da öpər**
**dodaqlarımın yanaqlarını,**
**öpər buludunu öpən göyüzü kimi.**

**Bundan belə dirçələr sevincim,**
**ruhum çıxıb gəzər**
**qoşulub gəzdiyimiz çölü,çəməni.**
**Görən,o son öpüş**
**ölməyə qoyar məni?!**
**"Ay dili,dili,dilavər.."**

### Ey haqq yiyəsi

**Qurbanın mən olum,ey haqq yiyəsi,**
**Sevgi ocağını gur eyləmisən.**
**Hamının bəxtini yazıb əlinlə,**
**Məni də Məcnuna cur eyləmisən.**

**Birisi biriyçün doğulanları**
**Ayırıb irağa salmısan niyə?**
**Leylilər,Məcnunlar səllim dünyaya**
**Doğulub təzədən gələ,gəlməyə.**

**Sevəndə günah yox,biri-birinə**
**Uzaqdan boylanıb göz eyləyirlər.**
**Əlləri daşlılar,ağzı yanmışlar**
**Bunu da dillərdə söz eyləyirlər.**

**Oğrun baxışlarda,bal dodaqlarda**
**Bir niyyət gizlənir,o adın haqqı.**
**Yanan baxışların,gül dodaqların**
**Yazılıb alnına öpüşmək haqqı.**

**Bir qərib sevginin kimsəsizliyi**
**Bürünüb dumana qışımdan keçir.**
**Ömür tələssə də,ümid döz deyib,**
**Səbrim loxma-loxma,dişimdən keçir.**

**Qurbanın mən olum,ey haqq yiyəsi,**
**Olumdan ölümə yol da çəkmisən.**
**Sevgini alınmaz qala eyləyib,**
**Uğrunda ölməyə qol da çəkmisən.**

### Gəlmədi

**İlk dəfə həsrətə söz deyəcəkdim,**
**Hər nə deyəcəkdim,düz deyəcəkdim.**
**Əlini yaxamdan üz,deyəcəkdim,**
**Kövrəldi ayrılıq,dilim gəlmədi.**

**Gözlər görüş yeri,şirin söz yeri,**
**Gözünün üzümdə qalıb köz yeri,**
**Yandırır üzümü bumbuz göz yeri,**
**İstədim su vurum,əlim gəlmədi.**

**Əsdi dil-dodağım,ciyərim bişdi,**
**Həsrətlə hicranım əl-əl görüşdü,**
**Xəbəri dağlara,daşlara düşdü,**
**Hayımı huylayıb,elim gəlmədi.**

**Sevgilər zalımmış,bəs bunca niyə?**
**Bu sınıq könlümə çıxmayır yiyə.**
**Sürünən kölgələr azalsın deyə**
**Ölümü çağırdım,ölüm gəlmədi.**

**Son dəfə həsrətə söz deyəcəkdim,**
**Hər nə deyəcəkdim,düz deyəcəkdim,**
**Mən dözürəm,sən də döz,deyəcəkdim,**
**Ayrılıq hönkürdü,dilim gəlmədi.**

### Bir dodaq təbəssüm

**Sən payız eşqili,mən yaz havalı,**
**İçimin oduyla gəlirəm sənə.**
**Bu nadinc könlümü ovutmaq üçün**
**Bir dodaq təbəssüm bəs edər mənə.**

**Sevincin əlini qoy da çiynimə,**
**Boy verək günəşə baxıb göz-gözə.**
**Quşlar nəğməsində dua eləyər,**
**Bədnəzərin gözü dəyməsin bizə.**

**Gecələr yuxucul,yuxusu şirin,**
**Ay da gah görünər,gah da ki batar.**
**Mənim ürəyimdə təzə ağrılar,**
**Sənin ürəyində həsrətin yatar.**

**Bu sevda yükünün ağırlığını**
**Birlikdə daşısa çiyinlərimiz**
**Vüsaldan bağ salıb-cənnət yaradıb**
**Bir ilkə imzanı biz atarıq,biz.**

**Yerin də,göyün də əşrəfi bizik,**
**Ömrümün içindən keçsin baxışın.**
**Ələ almaq üçün deyilən sözün**
**Bu gündən sabaha düşməz işığı.**

**Sən payız ümidli,mən yaz havalı,**
**Qəlbimin oduyla gəlirəm sənə.**
**Bu nadinc könlümü ovutmaq üçün**
**Bir dodaq təbəssüm**
**bir ömür**
**bəs edər mənə.**

*Rüstəm Hacıyev*

## Hücumlar İranın öz ərazilərindən edilib

**Ərəb, Qərb və İsrailin kütləvi informasiya vasitələri, İranda baş verən partlayışlarla bağlı müxtəlif versiyalar irəli sürürlər.**

**Onların əksəriyyəti bu fikrə gəlirlər ki, bu partlayışların arxasında İsrail dayanır. Reuters agentliyinin mənbələrinə əsasən, hərbi obyektlərə hücumlar elə İranın öz ərazilərindən edilib.**

**İran dövlət agentlikləri bildirirlər ki, hücumlar nəticəsində dağıntılar çox az miqdarda zərər vurub, bu hücumlar nəticəsində xəsarət alanlar olmayıb. Guya bir pilotsuz aparat vurulub, digər ikisi isə havada partlayıb və onların partlayış dalğası zavodun yalnız damını zədələyib. Lakin, The Jerusalem Post qəzeti yazır ki, partlayış nəticəsində dəyən zərər deyilən, "damın kiçik bir hissəsi dağılıb" versiyasından daha çoxdur.**

**Bir sıra Telegram-kanallarında hətta İran zavodlarında baş verən partlayışlar yeraltı infrastrukturlardan başlayıb və bu da güclü zəlzələyə səbəb olub. MDU-nun kafedra müdiri Maksim Delinad "Lünta.ru"-ya müsahibəsində yeraltı təkanlarln partlayışla əlaqəsi olmasına inanmadığını bildirib.**

**Sadəcə olaraq bu hücumların məqsədinə aydınlıq gətirə bilmirlər. ABŞ -da yerləşən İran Watch araşdırma qrupunun məlumatlarına görə, İsfahanda Shahed Aviation İndustries müəssisəsinin, Pilotsuz uçan Shahed aparatıarı istehsal etdiyi üçün, Avropa İttifaqı, ABŞ, Böyük Britaniya tərəfindən sanksitalara məruz qalıb. Bununla bağlı ora hücum edilə bilər.**

**Lakin, İsrail kəşviyyatı ilə işləyən İntelli Timesin analitikləri bunun əksini təsdiq edərək bildirirlər ki, hücumların məqsədi İranın kosmik təhqiqatlar aparan labaratoriyalrını məhv etmək olub. Bundan başqa, bu zavodda pilotsuz uçuş aparatlarının istehsalı ilə yanaşı, İranın nüvə proqramı ilə bağlı - sentrifut əldə etmək üçün də da işlər aparılırmış. Bu isə daha çox İsraili narahat edirdi. Yəni buna görə zavoda hücum olunub.**

**Al Arabiya telekanalı, sifarişçilərin Vaşinqtondan olduğunu iddia edərək, bildirir ki, guya amerikan hakimiyyəti ballistik raketlərin istehsalına mane olmaq üçün belə bir addımın atılmasına göstəriş verib. WSJ-nin mənbələri isə qeyd edir ki, hücum ABŞ və İsrailin məmurlarırı arasında aparılan danışıqların fonunda baş verib. Çünki, İran Ukrayna ilə müharibə aparan Rusiyaya çoxlu sayda pilotsuz uçuş aparatları göndərir.**

**İran təhlükəsini müzakirə etmək üçün ABŞ -ın dövlət katibi Entoni Blinken dünən İsrailə gəlib. Bundan bir həftə əvbəl isə, ABŞ -ın mərkəzi kəşviyyat idarəsinin direktoru Uilyams Berns, İsrailin "Mossad" kəşviyyat idarəsinin rəhbəri David Barnea ilə görüşmək üçün İsraildə olub.**

**Yəni, İranda baş vetən partlayışlarla bağlı o qədər qarışıq versiyalar irəli sürülür ki, axırda deyəsən İranın prezidenti bezidiyindən, çıxıb bəyan edəcək ki, "əşi əl çəkin, zavodu məzə üçün özümüz partlatmışıq".**

**"lenta.ru"nun materialları əsasında**

# Emin getsin... (?)

*Emin Mahmudov "Neftçi"nin indiki halında ondan böyük addır/fiqurdur klub üçün. Bu ifadə emosional "ağ-qara" azarkeşlərini qıcılandırmasın, faktiki götürsək, klub Mahmudova minnətçi düşüb, lakin onu saxlamağa razı sala bilməyib hələ də...*

*Belə vəziyyətdə "Neftçi" azarkeşlərinin (bir qism) Eminə "get" deməsi doğru deyil. Bu, onun komandada qalmasına hələ qərar verməməsinə/tərəddüd etməsinə qıcıqlananların reaksiyasıdır. Təkrarlamağa gərək var, Eminə "get" demək harakiri qismində bir şeydir - nə edirsiniz...*



*Yayda müqaviləsi bitəcək Eminlə "Qarabağ" və "Sabah"ın maraqlandığı haqda xəbərlər çıxıb. İddiaların reallığı haqda fikrim yoxdur, ancaq düşünürəm ki, Mahmudov əvvəlcə "Neftçi" ilə münasibətlərinə tam aydınlıq gətirməmiş başqa danışıqlara razılıq verməz.*

*Emin "Neftçi"nin düşünən beyni, üslubu, xarakteridir. əhəmiyyəti bu qədər dərin olan biriylə yolların ayrılması ən azı o dərinlikdə problemlər yarada bilər.*

*Bunu "Neftçi" azarkeşi də anlamalıdır/anlıyır da... klub rəhbərliyi də, Eminin özü də. Güman ki, Mahmudov da hiss etməmiş deyil ki, onun tərzinə ən uyğun yerli klub elə "Neftçi"dir. O, burada simvoldur, liderdir. Bu anlayışlar klub və futbolçunun spektrindən baxılanda yüksək dərəcədə əhəmiyyətlidir...*

*Emin Mahmudov mövzusunda klub mövqeyini açıq bildirib: "Neftçi" Emini buraxmaq fikrində deyil". Mahmudovun fikri isə hələ bilinmir. Söz-söhbətlər də bu səbəbdən yaranır, yayılır və hətta arzulanmaz məcra alır. Yəqin Emin də bunun fərqindədir...*

**Elçin Cəlilov**
**futbolpress.az**

# Mahir lağlağını haqq edir?

**Adam artıq sosial şəbəkələrdən iyrənir.**

**O qədər iyrənc söhbətlər dolaşır ki, internet aləmində. Çoxu da futbola aid. Hamı millinin sabiq oyunçularının "Tik-tok"dakı performansından danışır. Onları qınayan da var, tərəfində duran da. Amma düşünmək lazımdı ki, belə şeyləri başqaları da edir. Elə Aquero. "Tviç" platformasında canlı yayınlar açaraq başını qatır. Düzdü, argentinalı çox vaxt xeyriyə işləri ilə məşğul olur. Ya da Messi, Pike kimi futbolçuları yayına qoşaraq futbol haqda müzakirə açırlar. Bizimkilər isə bu məsələdə əndazəni aşırlar. Qızlarla yarışırlar, müxtəlif proqramlarda qalmaqalların içində olurlar...**

İndi də keçək əsas məsələyə Sosial şəbəkələrin ulduzlarından biri də Mahir Emrelidi. Onunla bağlı yayılan bütün informasiyalar gündəm olur. Millimizin hücumçusu zədələnib. Bu səbəbdən də məşqlərdə iştirak etməmək üçün "Dinamo"nun çalışdırıcısından icazə alıb ki, özünü bərpa edib, növbəti matça kimi sağalsın. Xalqımızın "yaradıcı" kütləsi də onu lağa qoyur. "Külək əsir, Mahir zədələnir", "Pişik asqırır, Mahirin ayağı burxulur" kimi fikirlər gözümüzü mozol edir. Əslində belə fikirlərin formalaşmasında oyunçu özü günahkardı. "Qarabağ"da çıxış edərkən "instaqram"da o qədər postlar paylaşdı ki, artıq camaat onu məzə obyektinə çevirdi. Lakin indi vəziyyət fərqlidi. Mahirlə bağlı yaxşı məlumatlar var. Bunlardan ən əsası futbolçunun baş məşqçi Ante Çaçiçlə münasibətləri qaydaya salmasıdı. Millinin üzvü bütün problemlərini çalışdırıcıya danışıb. O da Mahirə güvənməyə başlayıb. Forvardın özü də etimad qazanıb. Qış fasiləsində Xorvatiyada qalaraq bazada məşq edib. Hazırlıq prosesində özünü yaxşı tərəfdən göstərib. Hətta "Qoritsa" ilə matçda meydana da çıxdı. Lakin heç nə ilə yadda qalmayıb. Çünki zədəliymiş...



İndi bizim xalq da bununla məzələnir. Nə gərək var? Ola bilər ki, Mahirin davranışı pisdi, xasiyyətində problemlər var. Amma bir məqamı unutmayaq. O azərbaycanlıdı və ölkəmizi xaricdə təmsil edir. "Legiya"da çıxış edərkən qollar vuranda "əsgər salamı" ilə hamının qəlbini fəth edirdi. "Napoli"ni məyus edəndə kameraya "Səni sevirəm, Azərbaycan", - deyə qışqıran da Mahir idi. İndi zədələnib deyə, niyə gözümçıxdıya salmışıq ki? Nəyə lazımdı "rakka-çiko" söhbətlər, nəyə lazımdı lağlağı? İnsanın ağrısı ilə məzələnmək sizə, bizə nə xeyir verir? Heç nə! Mahirlə bağlı ən çox tənqid yazan media qurumu bizik. Hər dəfə doğruları qələmə almağa çalışmışıq. Bir dəfə də olsun, futbolçunun özü və ya ailəsi ilə problem olmayıb. Çünki onlar da bilir ki, Mahirin yaxşılığını istəyirik. İndi pis vəziyyətində ona dəstək olmaq da şəxsən mənim mənəvi borcumdu. Belə şeylərə görə üzülmə, Mahir! Başını aşağı sal, sakitcə işini gör. Zədəni sağalt. Qollar vur, bizi, səninlə məzələnənləri sevindirməyə davam et!

**football-plus.az**

## *Ölən doğmalarımızda danışa biləcəyik...*



**2077-ci ildə ölülərlə danışmaq mümkün olacaq. Bunu Nyu-York Şəhər Kollecində işləyən fizik-həkim Miçio Kaku iddia edib.**

O, 2077-ci ildə həyata keçiriləcək yeni tətbiq sayəsində insanların simulyasiya vasitəsilə ölən yaxınları və tarixdəki insanlarla söhbət edə biləcəklərini söyləyib.

Dr. Michio Kaku bildirib ki, alimlər tərəfindən ruhlar kitabxanası yaradılacaq və bu kitabxanaya gedənlər seçdikləri kitab vasitəsilə ölü insanların əksi ilə ünsiyyət qura biləcəklər. Kaku ölü insanların simulyasiya olaraq canlı insanın qarşısına çıxacağını və qarşısındakı şəxslə danışacaqlarını bildirib.

**Eminquey**

# Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi ölkənin 2022-ci il turizm nəticələrini açıqladı

Türkiyə, pandemiyadan sonra böyük bir geri dönüş ilə 2022-ci il üçün turizm nəticələrini və növbəti 5 il üçün strategiyasını açıqladı.

Türkiyə Gömrük İdarəsinin məlumatına əsasən, Türkiyənin 2022-ci ildə qəbul etdiyi turist sayı 51,4 milyonu keçərək, pandemiyadan əvvəlki 2019-cu ilin rekord göstəricisi olan 51,8 milyonun 99%-ni təşkil edib. Bu rəqəmlə Türkiyə dünyanın 3-cü ən böyük turizm bazarı oldu.

Türkiyənin Mədəniyyət və Turizm naziri Mehmet Nuri Ersoy, bu gün ölkənin 2022-ci il üçün olan turizm göstəricilərini açıqlayıb. Ersoy bildirir: "2022-ci ilin sonuna qədər qlobal turizmin ziyarətçi məlumatları pandemiyadan əvvəlki dövrlə müqayisədə 65% bərpa olunub, lakin Türkiyə demək olar ki pandemiyadan əvvəlki rəqəmlərə çatıb. Turizm gəlirlərindəki artım daha da qənaətbəxşdir; belə ki, 2022-ci ildə Türkiyənin turizm gəlirləri 2019-cu illə müqayisədə 19% artımla rekord qıraraq 46,3 milyard dollara çatıb. Bu nəticələr pandemiyadan sonra Türkiyənin böyük bir geri dönüş etdiyini təsdiqləyir və 2028-ci ilin sonuna qədər 90 milyon turist gətirəcəyimizə və 100 milyard dollar turizm gəliri əldə edəcəyimizə inanırıq" deyə qeyd edib.




Mehmet Nuri Ersoy sözlərinə belə davam edib: "Növbəti 5 ildə hədəflərimizə çatmaq üçün bazarın çeşidləndirilməsinə, müəyyən bölgələrimizin və məhsullarımızın qlobal tanınmasına və brendləşməsinə, dayanıqlı turizm ekosisteminin yaradılmasına diqqət yetirəcəyik. Türkiyə, Qlobal Dayanıqlı Turizm Şurası (GSTC) ilə hökumət səviyyəsində əməkdaşlıq müqaviləsi imzalayan ilk ölkədir. Qlobal Dayanıqlı Turizm Şurası ilə müqaviləmizdə, 2030-cu ilin sonuna qədər 3 addımlı plan nəzərdə tutulur və bu vaxta qədər ölkəmiz 100% dayanıqlı turizm ekosisteminə sahib olacaq. Brendləşmə və qlobal tanınma fəaliyyətlərimiz ildən-ilə artacaq və 2028-ci ilin sonuna qədər ölkəmizin bütün turizm və mədəniyyət təkliflərini dünyaya təqdim edən ümumi 9 destinasiya və 20 məhsuldan ibarət olan alt brendimiz olacaq. Kommunikasiyada müxtəlifliyi və dayanıqlılığı davam etdirərək, 2028-ci ilə qədər 225 milyon dollarlıq satış kommunikasiyası büdcəsi ilə fəaliyyət göstərəcəyik".

Türkiyə turizmin təşviqi fəaliyyətlərində müəyyən sahələrə diqqət yetirəcək; İnanc, Qastronomiya, Velosiped Turizminə xüsusi diqqət yetirməklə İdman Turizmi və MICE əsas diqqət çəkən məqamlar olacaq.

Türkiyə ilin 12 ayı ərzində 81 şəhərində turizm təchizatını çeşidləndirməklə yanaşı, Sağlamlıq Turizminə də diqqət yetirəcək.

**Arxeoloji cazibə nöqtələri yaradan Türkiyə, dünyanın ən qədim Neolit abidəsi olan Taş Tepeler bölgəsində arxeoloji qazıntıları davam etdirəcək, İzmirdə və Likya Yolu daxilində Side-Antalya, Göreme-Kapadokiya, Bergama və Asklepion ərazilərində yeni arxeoloji parklar açacaq.**

# Ərini tikə-tikə doğradı, bişirib uşaqlarına yedirtmək istədi - Ən qorxunc qadın qatillər




**Kraliça I Mari** VIII Henri və Araqonlu Katerinanın ilk övladı. İngiltərənin dinini zorla katolikliyə çevirən qadın kimi tanınır. Tarixə "Marinin zülmü" olaraq keçən dövrdə bir çox protestant inanclarına görə edam edildi. Bu səbəbdən Mari "qanlı Mari" ləqəbini qazanıb.

800-ə yaxın zəngin protestant ölkəni tərk etdi, onun ölümünə qədər də geri dönmədi.

1553-cü ildə 37 yaşında taxta oturan I Mari beş il hökmranlıq etdikdən sonra 1558-ci ildə xərçəngdən dünyasını dəyişdi. Ölümündən sonra taxta oturan I Elizabet İngəltərədə yenidən protestantlığı bərqərar etdi.

**Myra Hindley** 1942-ci ildə doğuldu. !960-ci illərin ortalarında Mançesterdəki cinayətlərdən şübhəli bilinənlərin içində yeganə qadın idi. Sevgilisi İan Bredi ilə İngiltərədə ən çox nifrət edilən cütlükdür. Birlikdə uşaq qaçırtma, birinin 16, digərinin 17 yaşı olan iki gəncə və 12 yaşdan aşağı uşaqlara cinsi təcavüz, işgəncə və qətl.



İlk qurbanları 1963-cü ildə öldürdükləri Paulina Rid oldu. Bundan sonra sayı dəqiq bilinməyən cinayətlərə davam etdilər. Qurbanlarını adətən Mançesterdəki Saddleworth Moor bölgəsindəki kolluqlarda basdırırdılar deyə onlara "Kol qatilləri" deyirdilər. Myra Hindley bir müddət sonra tutuldu və çantasındakı səs yazıları sübut olaraq qəbul edildi. 10 yaşlı Lesley Annı qaçırıb təcavüz edən sonra pornoqrafik pozlar verməyə məcbur edən və ardınca işgəncə edərək öldürən cani cütlük hər şey kasetə yazmışdılar. Fəqət cütlük bir kəlmə də danışmadı və qurbanlarının çoxusunun cəsədi tapılmadı.

36 il həbsxanada yatdıqdan sonra 2002-ci ildə 60 yaşında ilən ölən Myra Hindley hələ də nifrətlə xatırlanır.

**Beverli Allit** "Ölüm mələyi" adını almışdı. İngiltərənin ən çox tanınan qatillərindən biri idi. Uşaq xəstəxanasında tibb bacısı işləyirdi. Öhdəsində olan dörd uşağın ölümü və beşinin də ağır yaralanmasında günahlandırılıb saxlanıldı.



Tapa bildiyi zamanlar uşaqlara insulin və ya potasium vuraraq ürək infarktı keçirmələrinə səbəb olur, tapmayanda boğmaqla kifayətlənirdi. 9 cinayət və yaralanmada günahlandırıldığı halda ondan əvvəlki 58 günlük müddətdə 13 uşağa hücum etdi və dördünü öldürməyi bacardı.

Cinayətləri niyə işlədiyi haqqında bir kəlmə də danışmayan Allitin davranışları Munchausen Proxy sindromu olaraq qəbul edildi. Bu mübahisəli şəxsiyyət pozğunluğunu yaşayan insan diqqət çəkmək üçün məsuliyyət daşıdığı adamlara fiziki zərər vermək ehtiyacı duyur.

**Belle Gunnes** 1859-cu ildə doğuldu. 183 sm boyu və 91 kq çəkisi ilə Norveç əsilli güclü bir qadın idi. Fərqli zamanlarda iki ərini və bütün uşaqlarını öldürdü. Amma dəqiq olan isə eşq yaşadıqları, kişi dostları və Martl və Lusi adlı iki qızını öldürdüyüdü.



Cinayətlərinin səbəbi isə bəsit idi. Həyat sığortası siyasəti və ya sevgililərindən oğurlanmış əmlak onun gəlir mənbəyi idi. İlk addım olaraq qəzetə evlilik elanı verən Hunnes bir müddət sonra ər namizədlərini iribuynuzlu heyvanlara verilən parazit ilə zəhərləyib öldürürdü.

Hesabatlara görə, 10 il içində iyirmidən, rəsmi iddialara görə isə yüzdən çox insanı öldürdü. Ona evli qadınları və uşaqlarını öldürən fransız qatil Bluebeardın ləqəbindən təsirlənərək "Dişi Mavisaqqal"da deyirlər.

**Katerina Knayt** 1956-ci ildə anadan oldu. Ömürlük həbs cəzası alan ilk avstraliyalı qadın oldu. O, 2001-də ayrıldığı və uzun müddət məhkəmə prosesi davam edən əri Con Çarles Tomasın bədənini öndən və arxadan 37 yerdən bıçaqladı. Sonra dərisini üzüb otaqdakı asılqandan asdı. Cəsədin qalanını parçalayan bu qorxunc qadın başını qazana, budundan ayrılmış parçaları isə sobaya qoyub qarnir olaraq hazırladığı tərəvəzlərlə uşaqlarına yedirməyi planlamışdı.



Amma polislər cəld davranıb onu tutdular.

Onun məhkəmə prosesi 2006-cı ilə qədər davam etdi və ölüm cəzası verildi.

**Eminquey**

## *İlkinin həyat yoldaşı: "Bilirəm ki, kimlərlədir"*

**İlkin Həsəninin bloger həyat yoldaşı Aysel Həsəni açıqlaması ilə diqqət çəkib.**



Adalet.az xəbər verir ki, "Səhər mərkəzi"ndə qonaq olan aparıcı üçün efirə zəng edən Aysələ sual ünvanlanıb.

Xanım Həsəni "İlkin evə gec gələndə əsəbiləşirsən" sualına "Əsəbiləşmirəm. Bizdə bu davamlı olan hal deyil. Tək tədbirlərdən gec gəlmir. Dostları ilə zaman keçirdiyi vaxtlar olur. Bilirəm ki kimlərlədir, hətta şəkil də göndərir oradan" sözləri cavab verib. İlkin isə "Sağollaşaq", - deyə, zarafatla fikrini bildirib.

Qeyd edək ki, cütlük 2017-ci ildə ailə qurub. Onların Alisa adlı bir qızı var.

## *Nigar Camal TikTok istifadəcilərini yıxıb-sürüdü*



**"Avroviziya" qalibi Nigar Camal TikTok-dakı gəncləri tənqid edib.**

Adalet.az xəbər verir ki, , sənətçi "Səhər mərkəzi" proqramında bu mövzuda cavanlardan narazı olduğunu bildirib:

"TikTok-dan narazıyam. Gənclərimiz TikTok xəstəsidir. Orada o qədər mədəniyyətsiz, qabarıq hadisələr baş verir ki... Çox pis şəkildə... Bu, ancaq bizdə belədir. Başqa ölkələrdə baxırsan ki, belə deyil. TikTok hesabım var, amma sevmirəm və girmirəm". Camal "Qızlarına TikTok-a girməyə icazə verirsən" sualına isə belə cavab verib:

"Qızlarıma TikTok-a girməyə icazə verirəm, onlarda onsuz da İngiltərə seqmentidir deyə, rahatam".

## *Roza Zərgərli ərə gedir*

**Müğənni Roza Zərgərli ailə həyatı qurmağı planlaşdırır.**

Adalet.az xəbər verir ki, o, bu barədə "10-da görüşək" verilişində danışıb. Müğənni artıq evlilik təklifi aldığını qeyd edib: "13 namizəd var, onlar arasında birini seçmişəm. Evlənəcəyik, az qalıb. Səkkizillik fanatımdır, bir ildir tanıyıram və altı aydır ciddi münasibətimiz var. Evlilik təklifi almışam".

## *Nura ilə Şəbnəm arasında nə baş verir?..*

**Müğənni Nura Surinin Şəbnəm Tovuzlunun mahnılarında səsinə effekt qoydurduğu haqda fikirlərinə qarşı tərəfdən cavab gecikməyib.**



Adalet.az xəbər verir ki, bu haqda Tovuzlunun prodüseri Şahanə Ayazqızı mətbuata açıqlamasında deyib. "Bu onun şəxsi fikridir. Yəqin ona xoş gəlməyib, bildirib.

Amma Şəbnəm xanımın canlı ifasını da təsdiqləyib, ona görə sözüm yoxdur. Müğənni effekt qoymur, onu aranjimançılar qoyur", - deyə, Ayazqızı vurğulayıb.

Qeyd edək ki, bu gün N. Suri qonaq olduğu verilişdə Şəbnəmin canlı ifasını bəyəndiyini, lakin mahnılarında səsinə effekt qoydurduğunu söyləmişdi.

**Əntiqə**

*Eldəniz Quliyev*

# Ayıbdı, cənablar!



**Ayıbdı, cənablar!**

**Bu, həqiqətən utanc gətirən işdi!..**

**Yenə dirijor çubuğu, yenə xor, yenə təşkil olunmuş kampaniya...**

**Bu dəfə hədəfdə Azərbaycan Respublikası Kinematoqrafçıları İttifaqı və onun rəhbərliyidir... KİV səhifələrində qərəzli, bir çox hallarda isə alabəzək yalan və iftira ilə bəzidilmiş məlumatlar yayılır. Ki, İttifaqın sədri Şəfiqə Məmmədova təşkilata ayrılan maliyyə vəsaitini mənimsəyir, qohum-əqrabasına paylayır, özünə 18 yerdə mənzil alıb və sairə və ilaxır.**

**Guya İttifaqdan kütləvi istefa verən kino xadimlərinin sayı artıq 20 nəfərə çatıb. Aktyorlardan biri deyir ki, mənə soyuq dəyəndə burnum axırdı, asqırıb-öskürürdüm və o vaxt İttifaq mənə pul vermədi...**

**Digəri deyir ki, mən Özbəkistan səhralarında 59 dərəcə istidə düz 17 filmə çəkilmişəm, Şəfiqə Məmmədova məni görəndə baş əyib reverans eləmir... Başqa birisi ərz eləyir ki, İttifaq gərək təcili surətdə 16 mərtəbəli bina, 82 bağ evi tikdirsin, üstəlik 77 dənə maşın alsın və bütün bunları kamali-ədəblə padnosa qoyub öz üzvlərinə pay-puş eləsin...**

**Başdan ayağa saxta olan özgə biri, yəni ölkədə keçirilən bütün saxta seçkilərin iştirakçısı və körükçüləri sırasında olan birisi ərz edir ki, ARKİ sədr seçkilərində dəhşətli-bombalı saxtkarlığa yol verib...**

**Əlqərəz, Azərbaycan Respublikası Kinematoqrafçıları İttifaqı barədə tirjlanıb yayılan bu tipli məlumatların "qəhrəmanları", (20 nəfər deyisə də, onlardan cəmi beş nəfəri fəallıq göstərir), əsasən çəyirtkə kimi küləkdən qorxub, bir İttifaqdan digərinə atlananlardı... Düşünürəm ki, olar, birmənalı olaraq öz şəxsi mənfəətlərini və komformist maraqlarını güdürlər.**

**Təbii ki, Ş. Məmmədovanın rəhbərlik etdiyi İttifaqda bir çox tanınmış incəsənət xadimləri də var. Amma nədənsə (bunu təəssüf hissi ilə deyirəm), onlar bir heykəl soyuqqanlığı və müdrükcəsinə susub da bu "stəkan fırtınasının" nə ilə bitəcəyini gözləyirlər.**

**Şəxsən mən, xor kollektivinə və xor oxunuşuna heç də pis baxmıram, amma...**

**Amma xorda bu qədər xaric oxuyanları görəndə ətim tökülür.**

**Əlbəttə, sənətkar (teatr səhnəsində, yaxud kinoda) müxtəlif xarakterli, müxtəlif taleyli, o cümlədən müxtəlif simalı obrazlar yaradır, buna baxmayaraq, onun özünün bir**

**siması, bir üzü olması və həyatda bu "üzü" qoruması vacibdir. Çünki bu, şərəf və ləyaqət məsələsidir.**

***P.S.* *Qeyd edim ki, mən tərəf tutmuram və adı çəkilən ARKİnın də üzvü deyiləm; sadəcə, haqqın bu sayaq nazilməsinə biganə qala bilmədim...***

## *Xatunla Röyanın oxşarlığı*

**Müğənni Xatun Əliyevanın obrazı Xalq artisti Röya Ayxanı xatırladıb.**

Adalet.az xəbər verir ki, ötən gün Xalq artisti Aygün Kazımovanın ad günündə iştirak edən sənətçi Röya Ayxanın "Ağla" klipində istifadə etdiyi libasın bənzərini geyinib.

Donun kəsiminin, sağ tərəfindəki detalların, hətta yarığının da oxşar olması diqqətdən qaçmayıb. Röyanın cəsarətli libasından fərqli olaraq Əliyeva paltarı daha qapalı şəkildə istifadə etməyi seçib.

## *Aşıq Zülfiyyə: "Həyat yoldaşım mənə qadağalar qoyub"*

**Adalet.az xəbər verir ki, bu sözləri aşıq Zülfiyyə İbadova "ATV səhər"ə müsahibəsində deyib. Sənətçi xəyanəti bağışlamağın mümkün olduğunu bildirib:**



"Bizim sənət adından da bəllidir ki, incədir. Hər şeydən ləkə götürə bilərsən. Ailənin sirri qorunmalıdır. Yoxsa, ərim mənə onu-bunu dedi... İnsan hər cılız şeyin üstündə dalaşıb aildə qan-qaraçılıq salmaz. Hansısa bir mövzudan söhbət gedirsə, son sözü kişi deyib, möhür vurmalıdır. Kişi səhv edə bilər. Xəyanət olmasa yaxşı olar. Elə qadınlar var ki, deyir ərim xəyanət etdi və mən də öz bildiyimi edim. Səhvsiz insan olmur. Xəyanəti ailəyə, uşaqlara, qınaqlara görə bağışlamaq olar. Şəxsi fikrimdir, mən bağışlayardım".

## *Hikmət Rəhimov: "Pulu basıb yedilər"*



**Tanınmış aktyor Hikmət Rəhimov açıqlamas ilə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, bu sözləri aktyor, rejissor Hikmət Rəhimovun "Dikdaban" verilişində qonaq olarkən deyib. Aktyor illər əvvəl Prezident İlham Əliyev tərəfindən serialların inkişafına dəstək məqsədilə ayırdığı 6 milyon manat vəsaitin mənimsədildiyini vurğulayıb: "Bir neçə il əvvəl ölkə başçısı serial sektoruna büdcə ayırdı. Heç nə, pulu basıb yedilər, serial da ortaya çıxmadı. Görürlər ki, iş də getmir... Onda o büdcəni niyə ayırmalıdırlar ki? 6 milyon büdcə ayrılmışdı ki, serialların inkişafına hissə-hissə bölünsün. O pul nə bölündü, nə bir şey olundu, kiminsə əlinə düşdü. Birini dəqiq bilirəm, adını çəkmirəm. 6 milyon Azərbaycanın serial sektoru üçün pis pul deyildi. Bunu da ayırdılar ki, bir az özünüzə gəlin, dirçəlin. Kimsə də pulu götürüb qoydu cibinə, qoy tək mən dirçəlim. Ona görə düzəlmədi".

**Əntiqə**

Qazax rayon Pasport Şöbəsi tərəfindən Sarıyev Elvin Elmar oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi (№ 14100596) itdiyi üçün etibarsız sayılır.

***

Sarıyev Elvin Elmar oğlunun adına verilmiş şəxsi silahın alınması üçün əvəzedici vəsiqə (№ 177) itdiyi üçün etibarsız sayılır.

***

Sarıyev Elvin Elmar oğlunun adına verilmiş maşın başçısı vəsiqəsi (№ 110) itdiyi üçün etibarsız sayılır.

"Ədalət" qəzetinin kollektivi qəzetin təsisçisi, millət vəkili, yazıçı-publisist **Aqil Abbasa** əzizi

**Firdovsinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 116
Çapa imzalanmışdır:
03.02.2023